RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 81 (10101) 9 may 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanda etnik və dini müxtəliflik milli sərvət kimi qorunur

### Roma Papası XIV Leo Həzrətlərinə

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında qarşılıqlı hörmət və anlaşmaya əsaslanan əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi və gündən-günə yeni məzmun qazanması məmnunluq doğurur. Bu əlaqələr dünyada dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqinə, sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılması kimi xoşməramlı niyyətlərə xidmət edir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan Azərbaycanda etnik və dini müxtəliflik milli sərvət kimi qorunur, bütün konfessiyalar üçün bərabər şərait yaradılır. Fəxr edirik ki, Azərbaycan müxtəlif din və etiqadlara mənsub insanların mehribanlıq və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkandır. Bakı şəhərində yeni katolik kilsəsinin təməlinin qoyulması ölkəmizdə dinlərarası harmoniyanın, multikulturalizm və tolerantlıq ənənələrinin növbəti əyani nümunəsidir.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında illərdən bəri təşəkkül tapmış səmərəli əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Fondun dəstəyi ilə Vatikanda aparılan bərpa işləri mədəniyyətlərarası dialoqa, dini və mədəni irsin qorunub saxlanmasına töhfə verməklə yanaşı, Azərbaycanın ümumbəşəri dəyərlərə sadiqliyinin göstəricisidir.

Zati-müqəddəsləri!

Azərbaycanla Müqəddəs Taxt-Tac arasında səmimi dialoqun və əməkdaşlığın inkişafına Sizin töhfənizi yüksək qiymətləndirirəm. Əminəm ki, ikitərəfli əlaqələrimiz ümumbəşəri dəyərlərin təbliği və sivilizasiyalararası anlaşmanın təşviqi naminə bundan sonra da möhkəmlənəcək və daha da dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali və müqəddəs missiyanızda daim uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2026-cı il*



## Azərbaycana etimad və maraq çox yüksəkdir

### Prezident İlham Əliyevin uzaqgörən siyasi kursu ölkəmizi yeni dünya nizamının önəmli mərkəzlərindən birinə çevirib

Dünyada baş verən əsaslı geostrateji dəyişikliklər və yeni çağırışlar fonunda Azərbaycanın həyata keçirdiyi balanslı siyasət və unikal mövqe mütərəqqi bir nümunə təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən xarici siyasi kurs Azərbaycanı qlobal qərarların qəbulunda söz sahibi olan strateji mərkəzə çevirib. Milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış siyasət nəticəsində rəsmi Bakı müxtəlif siyasi platformalar arasında etibarlı körpü rolunu uğurla icra edir.

Son həftələrdə Avropanın bir sıra dövlət və hökumət rəhbərlərinin ölkəmizə intensiv səfərləri Azərbaycanın yüksək geosiyasi statusunun və artan nüfuzunun bariz göstəricisidir. Bu diplomatik fəallıq rəsmi Bakının qlobalmiqyaslı proseslərdə həlledici dövlət statusunu təsdiqləyir. Dünya siyasətinin mühüm aktorlarının Azərbaycana artan marağı dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursunun məntiqi nəticəsidir. Avropanın aparıcı dövlətlərinin rəhbərləri tərəfindən Bakının strateji əhəmiyyətinin vurğulanması da Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsinin təzahürüdür. Səfərlər çərçivəsində imzalanan sazişlər isə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallığın beynəlxalq müstəvidə tam şəkildə rəsmiləşdirilməsidir.

Azərbaycanın geosiyasi statusunu gücləndirən ən mühüm amillərdən biri ölkəmizin Avropanın enerji arxitekturasında oynadığı roldur. Şərqi Avropada davam edən münaqişə fonunda Avropa İttifaqının enerji çətinliyinin qarşısının alınmasında Azərbaycanın operativ və etibarlı addımları Bakını "qoca qitə"nin strateji müttəfiqinə çevirib. Hazırda ölkəmizin mavi yanacaq ixrac etdiyi 16 dövlətdən 10-u məhz Aİ üzvüdür.

Ölkəmizin qlobal enerji təhlükəsizliyində oynadığı önəmli rola Prezident İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən diqqət çəkib. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğulayıb. Bu xüsusda Prezident İlham Əliyev qeyd edib ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

8

**Azərbaycanın özü qədər əbədi**



## Azərbaycanın qürur salnaməsi

1991-ci ildə müstəqilliyi yenidən əldə etsək də, dövlətimiz və cəmiyyətimiz xaos və anarxiyaya qərq olmuşdu. Ölkədə hakimiyyət özbaşınalığı və siyasi hərc-mərclik ən üst səviyyəyə çatmışdı. Belə bir ağır zamanda xalqı bu vəziyyətdən çıxaracaq liderə zərurət yaranmışdı. Xalq heç şübhə etmədən gözünü məhz Heydər Əliyevə dikdi və təkidli tələblə onu Bakıya dəvət etdi.

Məhz bu dövrdən başlayaraq, Azərbaycan tarixində Heydər Əliyevin idarəçiliyinin yeni və parlaq səhifəsi açıldı. Məhz Heydər Əliyevin 1993-cü ilin 15 iyunundan - Qayıdış Günündən başlayaraq, Azərbaycanın inkişafa doğru aparılmasının təməli qoyuldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və yeni neft strategiyasının təməli qoyuldu. Xarici investorların Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə qoymasına şərait yaradıldı. 1996-cı il 16 iyulda "Torpaq islahatı haqqında" qanun qəbul edildi, torpaqlar kəndlilərin mülkiyyətinə verildi. Neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillər üçün təminat yaradılması məqsədilə Dövlət Neft Fondu yaradıldı. Bakı-Tbilisi-Ərzurum və Qars kəmərlərinin təməli qoyuldu.

Heydər Əliyev bildirirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Onun 1995-2003-cü illəri əhatə edən islahatları Azərbaycanın yeni inkişaf modelini yaratdı. Bank, vergi, sənaye və kənd təsərrüfatı sahələrində ciddi irəliləyişlər əldə olundu.

Hazırda Ulu Öndər Heydər Əliyevin müstəqil inkişaf strategiyası cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Lider Heydər Əliyev bizə elə bir miras qoyub ki, bu miras xalq-iqtidar birliyi üzərində daha da möhkəmlənir. Bu, bizim həmrəyliyimizdir.

4

## Avropa Parlamentinin riyakar mövqeyi şəxsi ambisiyalara xidmət edir



Azərbaycan Prezidenti İlham Əliyev sülh yolunda atılan addımları, təşəbbüsləri yüksək qiymətləndirir. Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən üçtərəfli görüş, imzalanan Birgə Bəyannamə regionda sabitliyin yaradılması üçün təməl əsaslar yaratdı. Bunun müqabilində bəs Avropa Parlamenti nə edir, sülhün bərqərar olması üçün necə təşəbbüs göstərir, hansı məsələləri qabartmağı lazım bilir? Azərbaycana münasibətdə, əlbəttə ki, özünə aid olmayan işlərə baş soxmağı, ölkəmizin suverenliyinə, müstəqilliyinə kölgə salmağı, daxili işlərimizə qarışmağı bu qurum demək olar ki, fəaliyyətinin əsas istiqamətlərindən birinə çevirib. Dövlətimizin əleyhinə ən çirkin vasitələrdən istifadə edir, iftira dolu bəyanatlar yayır, əsası olmayan qətnamələr qəbul edir.

9

## Azərbaycan faşizmə qarşı dözümsüz olduğunu 1941-1945-ci illərdə də sübut etmişdir



1941-1945-ci illər müharibəsi ümumxalq xarakteri daşıyırdı. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı Sovet İttifaqı kimi ucsuz-bucaqsız bir ölkəni başdan-başa bürümüşdü. Azərbaycan da faşizmlə mübarizəyə qalxmışdı. Xalqımızın müharibədə iştirakı təkcə igid oğullarının odlu cəbhələrdə göstərdiyi qəhrəmanlıqla bitmirdi. Azərbaycanın özü də bir cəbhəyə çevrilmişdi - arxa cəbhəyə. Cəbhəyə göndərilən Bakı neftinin əhəmiyyətinin isə qiyməti, misli-bərabəri yox idi. Marşal Georgi Jukov vurğulayırdı ki, Bakı neftçiləri cəbhəyə və ölkəyə, düşmən üzərində qələbəyə kifayət qədər yüksəkkeyfiyyətli yanacaq vermişlər.

11

## BNF-yə Azərbaycanın rəhbərliyi dövrü başa çatdı

### Bir il gələcəyin nəqliyyat sisteminin qurulmasında mühüm mərhələ oldu

BNF-yə prezidentlik dövrü başa çatan ölkəmiz həmin mərhələni yüksək nəticələrlə yekunlaşdırıb. Azərbaycanın bu etimada layiq görülməsi, əlbəttə ki, təsadüfi deyil. Onun beynəlxalq əməkdaşlıqda fəal rolunun, nəqliyyat sahəsində artan nüfuzunun və etibarlı tərəfdaş kimi qəbul olunmasının təbii nəticəsidir. Rəhbərlik dövründə Azərbaycanın təşəbbüsü ilə bir sıra mühüm beynəlxalq tədbirlər təşkil edilib və qlobal nəqliyyata fayda verən strategiyalar irəli sürülüb. Özəlliklə də "Beynəlxalq yükdaşımaların rəqəmsallaşdırılması" və "Şəhər nəqliyyatının təkmilləşdirilməsi" kimi siyasət tövsiyələri üzv dövlətlər tərəfindən məmnunluqla qəbul edilib. Eyni zamanda ölkəmizin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərində həyata keçirdiyi strateji layihələr və islahatlar yüksək qiymətləndirilib, Azərbaycanın bu dəhlizlərdə açar ölkə rolu vurğulanıb.

8

## Ağdam və Xocavənd şəhərlərində ailələrə mənzillərin açarları təqdim olunub



Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər.

3

## WUF13 ərəfəsində "Bakı şəhərsalma həftəsi" təşkil ediləcək

WORLD URBAN FORUM

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ərəfəsində, mayın 11-17-də paytaxtımızda "Bakı şəhərsalma həftəsi" təşkil olunacaq. Bakı şəhərinin müxtəlif məkanlarında eyni anda silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, ölkə səviyyəsində keçirilən Azərbaycan Şəhərsalma Kampaniyasının kulminasiya nöqtəsi olan "Bakı şəhərsalma həftəsi" dövlət qurumlarını, şəhərsalma mütəxəssislərini, akademik dairələri, mədəniyyət nümayəndələrini, gənc innovatorları və geniş ictimaiyyəti bir araya gətirəcək.

Həftə çərçivəsində keçiriləcək tədbirlər şəhərin müxtəlif məkanlarını, o cümlədən tarixi abidələri, mədəni irs nümunələrini və müasir şəhərsalma həllərinin tətbiq olunduğu məkanları əhatə edəcək.

Tədbirlər silsiləsi qlobal müzakirələrin Bakının unikal şəhərsalma kontekstinə uyğunlaşdırılmasını, eləcə də şəhər sakinləri və xarici qonaqların bu müzakirələrdə yaxından və fəal iştirak etmələri üçün imkanların yaradılmasını hədəfləyir.

## Xəritə manipulyasiyaları reallıqları dəyişmək gücündə deyil




Azərbaycan-Ermənistan sülh prosesində əhəmiyyətli məsafə qət edilməsinə baxmayaraq, müəyyən mərkəzlər tərəfindən qondarma terminlərin və separatizmi təşviq edən ifadələrin gündəmə daşınmasını müşahidə edirik. Belə qərəzli yanaşmalar bəzən diplomatik bəyanatlarda, bəzən isə kütləvi informasiya vasitələrində özünü büruzə verir. Bunun ən son nümunəsi Rusiyanın dövlət mediasında qeydə alınıb. Mayın 6-da Rusiya dövlət televiziyası olan "1-ci" kanalın "Zaman göstərər" ("Vremya pokajet") verilişində Azərbaycan Respublikasının təhrif olunmuş xəritəsi nümayiş etdirilib. Xəritədə qondarma "Dağlıq Qarabağ" adlandırılan ərazi yerləşdirilib.

9

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 214-1-ci və 214-2-ci maddələrin dispozisiyalarına "214-3," rəqəmlərindən sonra "214-4," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 214-4-cü maddə əlavə edilsin:

**"Maddə 214-4. Terror təşkilatı yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etmə**

214-4.1. Bu Məcəllənin 102, 214, 214-1, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 280 və 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi məqsədilə terror təşkilatı yaratma, yaxud həmin təşkilata və ya onun struktur bölməsinə rəhbərlik etmə -

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

214-4.2. Terror təşkilatına üzv olma və ya onun fəaliyyətində iştirak etmə -

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu Məcəllənin 214-4.2-ci maddəsində nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla cinayət əməllərinin qarşısının alınmasına, terror təşkilatını yaratmış, ona rəhbərlik etmiş, fəaliyyətində iştirak etmiş və ya onu maliyyələşdirmiş şəxslərin aşkar edilməsinə yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.";

1.3. 282-ci maddə üzrə:

1.3.1. 282.1-ci və 282.2-ci maddələrin dispozisiyaları aşağıdakı redaksiyada verilsin:

"282.1. Azərbaycan Respublikasının müdafiə qabiliyyətini, iqtisadi təhlükəsizliyini və elmi-texniki potensialını zəiflətmək məqsədilə əhalinin həyat təminatı və kritik informasiya infrastrukturu obyektlərinin, enerji və nəqliyyat infrastrukturunun, telekommunikasiya şəbəkələrinin, müəssisələrin, qurğuların məhv edilməsinə, zədələnməsinə və ya normal fəaliyyətinin pozulmasına, əhalinin sağlamlığına və ətraf mühitə zərər vurulmasına yönəldilən partlayış, yanğın törətmə, kütləvi zəhərləmə, yoluxucu xəstəliklər yayma, yaxud eyni məqsədlə əməli süni intellekt texnologiyalarından, habelə xüsusi proqram təminatlarından istifadə etməklə törətmə və ya digər hərəkətlər etmə -";

"282.2. Eyni əməllər:

282.2.1. mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə;

282.2.2. fövqəladə və ya hərbi vəziyyət, sosial xarakterli fövqəladə mühit rejimi, habelə kütləvi iğtişaşlar zamanı törədildikdə;

282.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

282.2.4. ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - ";

1.3.2. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 282-ci maddəsi ilə nəzərdə tutulan əməlin hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.".

**Maddə 2.** "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475 (Cild I) 1-ci maddəsinin birinci hissəsinin on birinci abzasına "214-3," rəqəmlərindən sonra "214-4," rəqəmləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523, № 12 (I kitab), maddə 1125; Azərbaycan Respublikasının 2026-cı il 24 fevral tarixli 361-VIIQD nömrəli Qanunu) 1-ci maddəsinin birinci hissəsinin 20-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"20) **operativ nəqliyyat vasitələri** - yanğından mühafizə, polis, təcili tibbi yardım, qəza-xilasetmə bölmələrinin, hərbi avtomobil müfəttişliyinin və feldyeger rabitəsi orqanının funksional tapşırıqlarının yerinə yetirilməsi, minatəmizləmə fəaliyyəti üzrə səlahiyyətli qurumun minatəmizləmə əməliyyatlarında təcili və təxirəsalınmaz tədbirlərinin həyata keçirilməsi və partlayıcı sursatların daşınması, pul mədaxilinin inkassasiyası və qiymətli yüklərin daşınması, Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin mühafizəsi vəzifələrinin icrası, poçt rabitəsinin milli operatoruna məxsus olan və poçtun daşınmasında istifadə edilməsi, prokurorluq orqanlarına məxsus olan və kriminalistik avadanlıqlarla təmin edilərək hadisə yerində təxirəsalınmaz prosessual hərəkətlərin yerinə yetirilməsi, növbətçi əməkdaşların hadisə yerinə çatdırılması və ya təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan, üstündə xüsusi qrafikalı rəngli sxemlər, yazılar və tanınma nişanları olan, xüsusi işıq və səs siqnalları ilə təchiz edilmiş avtomobillərdir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

# "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 137** **Bakı şəhəri, 8 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 196-VIIQD nömrəli Qanununun tətbiqi və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyun tarixli 406 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024; № 2, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə" üzrə:

2.1. 2.1.1-ci yarımbənddə "və yerli özünüidarəetmə orqanları" sözləri "orqanları (qurumları) və bələdiyyələr" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 6.1.1-1-ci və 6.1.11-1-ci yarımbəndlər əlavə edilsin:

"6.1.1-1. informasiya ehtiyatları və sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) və bələdiyyələr üçün informasiya sistemində yaradılmış elektron kabinetlərdə həmin dövlət orqanları (qurumları) və bələdiyyələr tərəfindən yerləşdirilmiş icra sənədlərinin qəbul edilməsi;";

"6.1.11-1. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda icra hərəkətlərinə dair bildirişin borclunun adına qeydə alınmış mobil telefon nömrəsinə (nömrələrinə) SMS-lə göndərilməsi;";

2.3. 6.1.15-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz və aşağıdakı məzmunda 6.1.16-cı yarımbənd əlavə edilsin:

"6.1.16. icra sənədləri üzrə tələbin borclunun bank və digər kredit təşkilatlarında, elektron pul təşkilatlarında olan pul vəsaitlərinə icra sənədinin icrası üçün lazım olan miqdarda və həcmdə yönəldilməsi barədə icra məmurunun qərarının ötürülməsi, habelə bu qərarın bank və digər kredit təşkilatları, elektron pul təşkilatları tərəfindən qəbulu və icrasının nəticəsi barədə məlumatın ötürülməsi.";

2.4. 11-ci hissə üzrə:

2.4.1. 11.1-ci bəndə "Banklar haqqında" sözlərindən sonra ", Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözləri əlavə edilsin;

2.4.2. 11.3-cü bənd üzrə:

2.4.2.1. 11.3.4-cü və 11.3.5-ci yarımbəndlərdə "borclu şəxslərin" sözləri "borclunun, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin" sözləri ilə əvəz edilsin;

2.4.2.2. 11.3.9-cu yarımbənddə "hüquqi şəxsin" sözləri "borclu hüquqi şəxsin icra orqanının" sözləri ilə əvəz edilsin;

2.4.2.3. 11.3.11-ci yarımbəndə "təşkilatlarında" sözündən sonra ", elektron pul təşkilatlarında" sözləri əlavə edilsin və həmin yarımbənddə "və hesabının" sözləri ", hesabının və vəsaitinin" sözləri ilə əvəz edilsin;

2.4.2.4. 11.3.30-cu yarımbənddə "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə "əmrləri" sözündən sonra "və borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmə qərardadları" sözləri əlavə edilsin;

2.5. aşağıdakı məzmunda 13.3-1-ci bənd əlavə edilsin:

"13.3-1. İnformasiya ehtiyatları və sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) və bələdiyyələr icra sənədlərini informasiya sistemində həmin dövlət orqanları (qurumları) və bələdiyyələr üçün yaradılmış elektron kabinetlərdə yerləşdirməklə icraya yönəldirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin2000-ci il 25 avqust tarixli 387 nömrəliFərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 633 nömrəli Fərmanı) 3-cü hissəsinin üçüncü abzasında "214, 214-1, 214-2, 214-3" rəqəmləri, "214 - 214-4" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2026-cı il*

# İqtisadi Şuranın iclasında turizmin inkişafı ilə bağlı qərarlar qəbul olunub



**Mayın 8-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, iclasın gündəliyində Azərbaycanda turizm sahəsində mövcud vəziyyət, problemlər və inkişaf perspektivləri, turizm bazarının genişləndirilməsi və turizmin inkişafı istiqamətində əsas prioritet tədbirlər, həmçinin cari iqtisadi məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələ üzrə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin təqdimatı dinlənilib. Təqdim edilən məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda turizm sahəsinin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 138** **Bakı şəhəri, 8 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 301 (Cild I); 2024, № 6 (II kitab), maddə 741) ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci hissə üzrə:

1.1. birinci abzasdan ikinci və üçüncü cümlələr çıxarılsın;

1.2. ikinci abzas həmin hissənin birinci abzasının ikinci cümləsi hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləği torpağın bazar dəyərinin Bakı şəhəri üzrə 3 faizinə, ölkənin digər şəhər və rayonları üzrə 2 faizinə bu Əsasnamənin 8 nömrəli əlavəsində göstərilən əmsallar vurulmaqla müəyyən edilir.";

1.3. üçüncü abzas ləğv edilsin.

2. Əsasnaməyə aşağıdakı məzmunda 8 nömrəli əlavə - Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləğinin müəyyən edilməsində tətbiq edilən əmsallar əlavə edilsin:

*8 nömrəli əlavə*

**Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi, habelə dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş dövlət torpaq sahələrinin illik icarə haqqı məbləğinin müəyyən edilməsində tətbiq edilən əmsallar**

| Torpaq sahəsinin ölçüsü | Əmsal |
|---|---|
| 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) | 1,0 |
| 5001–10000 kvadratmetr | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001 kvadratmetrdən yuxarı hissə (5001 kvadratmetr daxil olmaqla) - 0,8 |
| 10001–50000 kvadratmetr | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001–10000 kvadratmetr - 0,8<br>10001 kvadratmetrdən yuxarı hissə (10001 kvadratmetr daxil olmaqla) - 0,7 |
| 50001 kvadratmetrdən yuxarı (50001 kvadratmetr daxil olmaqla) | 5000 kvadratmetrədək (5000 kvadratmetr daxil olmaqla) - 1,0<br>5001–10000 kvadratmetr - 0,8<br>10001–50000 kvadratmetr - 0,7<br>50001 kvadratmetrdən yuxarı hissə (50001 kvadratmetr daxil olmaqla) - 0,5 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Venesiya İncəsənət Biennalesində: "Diqqət" layihəsi qlobal mədəni dialoqun mərkəzində





**Azərbaycan bu il də dünyanın ən nüfuzlu incəsənət platformalarından biri olan Venesiya Biennalesində öz zəngin mədəni kimliyini və müasir bədii düşüncəsini təqdim edir.**



Mayın 7-də Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə Beynəlxalq İncəsənət Sərgisi - Venesiya Biennalesində Azərbaycan pavilyonunun açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan pavilyonu Venesiyada XVI əsrin memarlıq abidələrindən olan Campo della Tanada yerləşir və bu dəfə Əməkdar rəssam Faiq Əhmədin "Diqqət" (The Attention) layihəsi ilə təmsil olunur. "Diqqət" müasir incəsənətin əhəmiyyətli beynəlxalq platformalarından birinə Azərbaycanın töhfəsidir. Pavilyonun mərkəzində rəssamın bədii təcrübəsində əsas və təkrarlanan element olan xalça təqdim edilir.

Pavilyon Azərbaycanın yalnız bədii-estetik dünyasını deyil, həm də onun fəlsəfi düşüncə ənənəsini, mədəni yaddaşını və müasir texnoloji baxışını qlobal auditoriyaya təqdim edir.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov bildirib ki, Azərbaycanın artıq 19 ildir Venesiya Biennalesində uğurla təmsil olunması ölkəmizin beynəlxalq mədəniyyət siyasətinin mühüm nailiyyətlərindən biridir. O vurğulayıb ki, bu uğurun əsasında Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü fəaliyyət dayanır. "Venesiya Biennalesi kimi prestijli platformada iştirak ölkəmizin zəngin mədəni irsini və müasir incəsənət potensialını beynəlxalq auditoriyaya çatdırmaq üçün nadir fürsətdir", - deyə Anar Ələkbərov qeyd edib.

Venesiya Biennalesinin prezidenti Pyetrancelo Buttafuoko çıxışında Azərbaycan pavilyonunun yalnız incəsənət hadisəsi deyil, həm də dərin mənəvi-estetik təcrübə olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan xalçalarında əks olunan rənglər və işarələr vasitəsilə sənətin universal dili insanı daxili aləminə doğru yönəldir. P.Buttafuokonun sözlərinə görə, sənət insanlığın ortaq mənəvi ehtiyacıdır və bu gözəllik sərhədləri, dilləri və nəsilləri aşaraq xalqları birləşdirmək gücünə malikdir. O, Azərbaycanı Venesiya Biennalesinin ayrılmaz və mühüm tərəfdaşlarından biri kimi qiymətləndirib.

Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov vurğulayıb ki, milli pavilyon yalnız sənət nümunələrinin sərgiləndiyi məkan deyil, həm də Azərbaycanın ruhunu, tarixini və mədəni kimliyini dünyaya təqdim edən mühüm platformadır. Səfir bu layihənin beynəlxalq mədəni əməkdaşlıq və sivilizasiyalararası dialoq baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Azərbaycanın 61-ci Venesiya Biennalesindəki milli pavilyonunun kuratoru Qvendolin Kollaço bu işdə əməyi olan hər kəsə təşəkkür edib və təqdim olunan layihədən danışıb.

"Diqqət" layihəsinin müəllifi, Əməkdar rəssam Faiq Əhməd müasir incəsənətdə özünəməxsus vizual dili ilə seçilən sənətkarlardandır. Onun yaradıcılığında əsas element kimi çıxış edən xalça bu dəfə də layihənin mərkəzi fəlsəfi rəmzinə çevrilib. Ənənəvi Azərbaycan xalça sənəti burada yalnız dekorativ element deyil, kollektiv yaddaşın, zamanın və insan şüurunun metaforası kimi təqdim olunur.

Layihənin konseptual əsasını böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin fəlsəfi irsi təşkil edir. Hürufi düşüncə sistemindən ilhamlanan ekspozisiya immersiv və multimodal məkan həlli vasitəsilə tamaşaçını daxili düşüncə səyahətinə dəvət edir. Burada hərf, işarə və simvollar kainatın gizli kodları kimi təqdim olunur.

"Diqqət" layihəsinin ən diqqətçəkən xüsusiyyətlərindən biri isə ənənəvi incəsənətlə qabaqcıl texnologiyaların sintezidir. Ekspozisiyada kvant əsaslı sistemlər, neyroreaktiv və dataəsaslı texnologiyalar inteqrasiya olunaraq, yeni estetik və fəlsəfi təcrübə yaradılıb. Layihədə hürufi fəlsəfəsi ilə müasir kvant fizikası arasında paralellər qurulur: hər iki yanaşmada reallıq dəyişməz deyil, diqqət, qarşılıqlı təsir və interpretasiya vasitəsilə formalaşır.

Beləliklə, "Diqqət" yalnız bir sərgi deyil, həm də insan şüuru, informasiya, yaddaş və reallıq haqqında çağdaş fəlsəfi düşüncənin bədii manifestinə çevrilir. Müasir dünyanın informasiya yüklənməsi, xaos və qeyri-müəyyənliklə xarakterizə olunan reallığında layihə insanı yenidən daxili harmoniya və mənəvi bağlantı axtarışına səsləyir.

Azərbaycan pavilyonunun builki təqdimatı bir daha nümayiş etdirir ki, ölkəmiz qlobal mədəni proseslərin fəal iştirakçısı olmaqla yanaşı, Şərq və Qərb arasında mənəvi-estetik körpü rolunu uğurla davam etdirir.

1895-ci ildən keçirilən Venesiya Biennalesi dünya incəsənətinin təqdim olunduğu nəhəng bir platformadır.

İki ildən bir keçirilən Venesiya İncəsənət Biennalesində ölkəmiz 2007-ci ildən iştirak edir. 2025-ci ildə isə Azərbaycan ilk dəfə Venesiya Arxitektura Biennalesində təmsil olunub.

Azərbaycan Venesiya İncəsənət Biennalesində hər dəfə fərqli ekspozisiyalarla tamaşaçıların marağına səbəb olur. Ötən illərdə Azərbaycan pavilyonu həm də iştirakçı ölkələr arasında ilk beşlikdə yer alaraq möhtəşəm pavilyonlar sırasına daxil edilib. Bu beynəlxalq incəsənət platformasında ölkəmizin hər dəfə müxtəlif rəssam və heykəltaraşlarımızın əsərləri ilə çıxış etməsi Azərbaycan incəsənəti və müasir rəssamların dünyada tanıdılmasında, mədəni mübadilədə xüsusi rol oynayır.

Mayın 9-dan ziyarətçiləri qəbul edəcək 61-ci Venesiya İncəsənət Biennalesi noyabrın 22-dək davam edəcək.

# Heydər Əliyev Fondu Çində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xeyriyyə tədbiri təşkil edib

**Heydər Əliyev Fondu və Azərbaycanın Çindəki səfirliyi Pekin Uşaq Rifah İnstitutunda müalicə alan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xeyriyyə aksiyası keçirib.**



AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində fiziki və zehni cəhətdən qüsurlu uşaqların tədrisinə dəstək məqsədilə süni intellekt əsasında hazırlanmış xüsusi tədris avadanlıqları hədiyə olunub.

Tədbirdə Heydər Əliyev Fondunun öz fəaliyyətini Ümummilli Liderin sadiq olduğu humanizm prinsipləri əsasında qurduğu, fondun prezidenti Mehriban Əliyevanın xeyriyyəçilik təşəbbüslərinin təkcə Azərbaycanı deyil, dünyanın bir çox ölkəsini əhatə etdiyi bildirilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində təşkil olunan tədbirdə çıxış edən Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb. Bildirib ki, 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan onu itirmək təhlükəsi qarşısında idi. Azərbaycan xalqı ağır şəraitdən çıxmağın yeganə nicat yolunu Heydər Əliyevdə gördü. Xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev Azərbaycan Respublikasını, Azərbaycan xalqını, müstəqilliyimizin bərpası kimi tarixi nailiyyəti məhv olmaqdan xilas etdi.

Ümummilli Liderin müdrikliyi, qətiyyəti, siyasi bacarığı və çoxillik idarəçilik səriştəsi ilə Azərbaycanda bütün sahələrdə əsaslı dönüş başladığını bildirən diplomat əlavə edib ki, dahi rəhbər ölkəmizin beynəlxalq aləmdə nüfuzunun güclənməsi, iqtisadi yüksəlişi üçün tədbirlər görməyə başlayıb. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə xidmətləri ilə reallığa çevrilən qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi qlobal layihələr müstəqilliyimizi sarsılmaz və əbədi edib.

Səfir Bünyad Hüseynov diqqətə çatdırıb ki, Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də özünü əvəz edə biləcək siyasi varis yetişdirməsi idi. Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü praqmatik və uzaqgörən siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub, ölkəmizin dünyada nüfuzu xeyli yüksəlib. Həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına böyük diqqət yetirdiklərini vurğulayan diplomat əlavə edib ki, məhz həmin yanaşmanın nəticəsində Azərbaycan-Çin münasibətləri hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

# İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı müzakirə olunub



**Mayın 8-də Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı müzakirəyə çıxarılıb.**

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc iclası açaraq, bu müzakirələrin müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə təsadüf etdiyini bildirib. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız Qələbənin, uğurla həyata keçirilən Böyük qayıdışın ölkənin coğrafi, siyasi və mənəvi gücünü bərpa etdiyini vurğulayıb. Dövlətimiz tərəfindən vətəndaşların hüquq və təhlükəsizliyinin təminatı sahəsində genişmiqyaslı fəaliyyətin davam etdirildiyini söyləyib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ilə bağlı fikirlərini açıqlayan komitə sədri respublikamızda insan alverinə qarşı mübarizənin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edib. Bildirilib ki, təqdim olunan məlumata əsasən, bu sahədə aparılan fəaliyyət kompleks, çoxsəviyyəli və koordinasiyalı olub. İlk növbədə institusional mexanizmlərin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Hesabat ilində qanunvericilik bazası daha da təkmilləşdirilib, eyni zamanda kompleks və strateji xarakter daşımaqla əhatəli məqsəd və hədəflərə malik "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026-2030-cu illər üçün Milli Fəaliyyət Planı" hazırlanıb.

Nəzərə çatdırılıb ki, hesabata əsasən, son 20 il ərzində Azərbaycanda insan alveri cinayətlərinin dinamikasında ümumi azalma tendensiyası müşahidə olunur. O, bu istiqamətdə daxili işlər orqanlarının digər hakimiyyət institutları ilə birlikdə həyata keçirdiyi tədbirlərin əhəmiyyətindən danışıb. Komitə sədri insan alveri cinayətlərinin strukturu, insan alveri qurbanlarının demoqrafik göstəriciləri, insan alveri qurbanlarının coğrafiyası barədə illik məlumatda ehtiva olunan göstəricilərə dair fikirlərini açıqlayıb. Eyni zamanda bu sahədə həyata keçirilən effektiv hüquq-mühafizə tədbirləri barədə söhbət açılaraq qeyd olunub ki, 2025-ci ildə insan alveri cinayətlərinin 97 faizinin üstü açılıb, 2 mütəşəkkil cinayətkar qrup zərərsizləşdirilib. Habelə, "152" qaynar xəttinə daxil olan müraciətlər vətəndaşların məlumatlılıq səviyyəsinin yüksəldiyini göstərir.

Zahid Oruc Daxili İşlər Nazirliyinin Milli Məclislə səmərəli əməkdaşlığının qurulduğunu, insan alveri ilə bağlı deputat sorğularına və müraciətlərinə həssas münasibət göstərildiyini qeyd edib. O, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupu - GRETA tərəfindən Azərbaycanla bağlı monitorinqlərdə mühüm irəliləyişlərin əldə olunduğunu, xüsusilə qanunvericiliyin təkmilləşdirilməsi, maarifləndirmə fəaliyyətləri və qurbanlara yardım mexanizmlərinin inkişafı sahəsində tədbirlərin müsbət qiymətləndirildiyini nəzərə çatdırıb.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək insan alverinə qarşı mübarizənin yalnız hüquq-mühafizə orqanlarının vəzifəsi deyil, eyni zamanda iqtisadi və sosial problemlərin həlli ilə bağlı məsələ olduğunu deyib. O, insan alverinin qarşısının alınması üçün Daxili İşlər Nazirliyi, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator tərəfindən zəruri addımların atıldığını söyləyib. Bu sahədə müvafiq dövlət orqanları, o cümlədən vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlığın həyata keçirildiyini və 2025-ci ildə müsbət nəticələrin əldə edildiyini - statistikaya əsasən ötən il insan alveri qurbanlarının sayının azaldığını bildirib. Komitə sədri Azərbaycan hüquq-mühafizə orqanlarının bu qəbildən olan cinayətlərə qarşı barışmaz mövqe nümayiş etdirdiyini vurğulayıb.

Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Rüfət Allazov İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatını təqdim edib. Bildirilib ki, Milli Koordinatorun illik məlumatında insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər, beynəlxalq əməkdaşlıq, məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər, cinayət təqibi və qurbanlarla iş, qarşıda duran vəzifələr kimi istiqamətlər öz əksini tapıb.

Diqqətə çatdırılıb ki, ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində fəaliyyəti tənzimləyən qanunvericilik bazası müasir dövrün tələbləri, beynəlxalq qurumların tövsiyələri nəzərə alınmaqla 2025-ci ildə də təkmilləşdirilib. Eyni zamanda insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış "İnsan alverinə qarşı mübarizəyə dair 2026-2030-cu illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi 34 dövlət qurumu ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim edilib.

Qeyd olunub ki, hesabat ili ərzində dövlət qurumlarının və tərəfdaş təşkilatların birgə fəaliyyəti nəticəsində bu sahədə maarifləndirmə və profilaktik işlər genişləndirilərək müxtəlif hədəf qruplarını əhatə edib. Təhsil, səhiyyə, sosial müdafiə, hüquq-mühafizə və media sahələrində təşkil olunan çoxsaylı tədbirlər, təlimlər və informasiya kampaniyaları vasitəsilə minlərlə insan məlumatlandırılıb, mütəxəssislərin peşə bacarıqları artırılıb. Sosial xidmətlər genişləndirilib, həssas əhali qruplarına dəstək daha da gücləndirilib.

Rüfət Allazov insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə bütövlükdə 198, o cümlədən 152 insan alveri, 1 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərə görə 45 cinayət faktının qeydə alındığını söyləyib. Bildirib ki, məcburi əmək cinayətlərinin hamısı, insan alveri cinayətlərinin isə 97 faizi açılıb, 6 şəxs ətrafında keçirilmiş əməliyyat tədbirləri nəticəsində onların üzv olduqları 2 cinayətkar qrupun fəaliyyəti ifşa olunub, həmin qrup üzvlərinin məsuliyyətə cəlb olunması üçün sübutların toplanması tədbirləri davam etdirilir. Hesabat ilində həmin hüquqazidd əməllərlə əlaqədar 10 cinayət işi başlanılıb, 8 cinayət işi üzrə 10 şəxs təqsirləndirilən qismində cəlb olunub, 12 şəxs məhkəmə məsuliyyətinə verilib. Məhkəmələr tərəfindən 12 hökmlə 14 insan alverçisi azadlıqdan məhrum etmə cəzasına məhkum edilib. Bununla yanaşı, informasiya texnologiyalarının tətbiqi ilə törədilmiş 57 fakt aşkarlanaraq Cinayət Məcəlləsinin 144-1 və 243-cü maddələri ilə 6 cinayət işi başlanılıb.

Qeyd olunub ki, ötən il zərərçəkmişlərin reabilitasiyası və reinteqrasiyası istiqamətində də zəruri tədbirlər həyata keçirilib. İnsan alveri qurbanlarının Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilərək onların tibbi, sosial, psixoloji, hüquqi yardımlarla təmin edildiyi, habelə onların peşə kurslarına yönəldilməsi, şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi, tibb müəssisələrində müalicəsi, ünvanlı sosial yardım alması, ailələrinə qayıtması sahəsində kömək göstərildiyi, Qeyri-Hökumət Təşkilatlarına istiqamətləndirilmiş insan alveri qurbanlarının lazımi sosial xidmətlərlə təmin edildiyi diqqətə çatdırılıb.

Məsələ ətrafında müzakirələrdə komitə sədrlərinin müavinləri Arzuxan Əli-zadə, Elşən Musayev, hər iki komitənin üzvləri Mübariz Qurbanlı, Azər Allahverənov, Razi Nurullayev, Elman Nəsirov, Naqif Həmzəyev, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək öz fikirlərini bölüşüblər, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Fikir mübadiləsi zamanı insan alveri ilə mübarizə sahəsində aparılan əməliyyat-axtarış tədbirlərinin önəmindən söhbət açılıb, bu barədə hesabatda geniş məlumatların, statistik rəqəmlərin verildiyi qeyd olunub. Habelə insan alveri qurbanlarının müdafiəsi və reabilitasiyası sahəsində atılan addımlar, həyata keçirilən profilaktik tədbirlər, o cümlədən maarifləndirmə ilə bağlı görülən işlər təqdirəlayiq hesab edilib. Qurbanların müəyyən edilməsi və dəstəklənməsində QHT-lər və ictimaiyyət nümayəndələrinin fəal iştirakının mühüm rol oynadığı vurğulanıb.

Sonra parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim olunan məlumatın ətraflı müzakirə edildiyini, səsləndirilən fikirlərin əhəmiyyətli olduğunu söyləyib. O, insan alverinin yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin daha da gücləndirilməsinin vacibliyindən, bu sahədə qarşıda duran vəzifələrdən danışıb.

İclasın sonunda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Ağdam və Xocavənd şəhərlərində ailələrə mənzillərin açarları təqdim olunub

**Ağdam**

Dünən növbəti köç karvanı ilə Ağdam şəhərinə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, 41 ailə olmaqla 156 nəfər Ağdam sakini doğma yurduna qovuşub. Ağdama köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdışın sevincini yaşayan Ağdam şəhər sakinləri açarları təhvil alıb, yeni mənzillərində məskunlaşıblar.





**Xocavənd**

Dünən növbəti köç karvanı ilə Xocavənd şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 57 ailə olmaqla, 206 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

1923 Azərbaycanın özü qədər əbədi 2026

# Azərbaycanın qürur salnaməsi



**Dövlətin siyasi idarəetməsi qədər xalqların təşkilatlanması da olduqca vacib məsələdir. Çünki insan sivilizasiyalarının yaranması ilə liderlik qabiliyyəti də önə çıxan amildir. Qədim dövrlərdən bəri insanlar öz icmaları üçün sabitlik, təhlükəsizlik və rifahı təmin etmək qədər, həm də onları irəliyə doğru aparacaq liderə böyük ehtiyac duymuşlar. Tarix boyu siyasi liderlər müxtəlif rol və funksiyalara malik olublar. Bu insanlar dövlətin idarə olunmasını təmin etmək üçün əhali arasından seçilir və yaxud təyin olunurlar.**

Zaman keçdikcə siyasi liderlik anlayışı siyasi, sosial və iqtisadi dəyişikliklərə cavab olaraq inkişaf etmiş və təkamül tapmışdır. Bu gün siyasi liderlik dedikdə, bu, klassik mənada başa düşdüyümüz anlamlardan daha fərqli çalarları özündə ehtiva edir. Liderin əsas qayəsi siyasi təşkilat daxilində bir qrup insana rəhbərlik etmək, onları idarə etmək, ortaq bir vizyon yaratmaq, sadəcə yaşadığı dövrün deyil, özündən sonra da gələcək nəsillərin taleyi baxımından vacib qərarlar qəbul etmək bacarığı olmalıdır. Siyasi liderlik son dərəcə mükəmməl ünsiyyəti, natiqlik qabiliyyətinə malik olmağı, qərar qəbul etmə bacarıqları, habelə dürüstlüyü, xarizması, insanları ruhlandırmağı və səfərbər etməyi nəzərdə tutur. Liderliyin tarixilik və fəlsəfə baxımından da dərin mənaları var. Siyasi liderlərin mənşəyi və liderlik anlayışı ilə bağlı bir çox nəzəriyyə və perspektivlər mövzu olsa da, tarix boyu bu məsələ daim təşəkkül tapmışdır. Liderlər ətrafındakı insanlarla danışıqlara, sövdələşmələrə diqqət yetirməyi bacaran şəxslər olur. Liderlik həm də transformasiya xarakterini özündə ehtiva edir. Belə ki, ortaq vizyon yaratmaq, onu başqaları ilə bölüşmək, insanları motivasiya etmək və ortaq məqsədlərə kökləmək məsuliyyətini öz üzərinə götürmək mühüm keyfiyyətlərdir. Xarizmatik liderlər dünyada olduqca azdır, çünki onlar həm motivasiya etmək, həm də transformativ dəyişikliklərə nail olmaq üçün xüsusi şəxsi vizyona sahib olmalıdırlar. Liderin xarizması qədər zəkası və qətiyyəti olmalıdır. O, özündən sonra ənənəvi məktəb və davranış məktəbi yaratmağı bacarmalıdır. Ulu Öndərimiz məhz belə lider olub. Azərbaycanın müstəqillik tarixi Heydər Əliyevin adı ilə bağlıdır. O tarix ki, olduqca keşməkeşli yollardan keçib. Çünki xalqımızın tarixinə dövlət yaratmaq və qurmaq qədər, faciələrə və soyqırımlara məruz qalmaq da yazılıb. 1918-ci ilin 28 mayında Şərqdə ilk demokratik respublikanı yaradan Azərbaycan xalqı böyük xalq olduğunu tarix boyu dəfələrlə sübut edib. Lakin zaman-zaman bu xalqın taleyini dəyişməyə çalışıldığı da məlumdur.

1991-ci ildə müstəqilliyi yenidən əldə etsək də, dövlətimiz və cəmiyyətimiz xaos və anarxiyaya qərq olmuşdu. Ölkədə hakimiyyət özbaşınalığı və siyasi hərc-mərclik ən üst səviyyəyə çatmışdı. Belə bir ağır zamanda xalqı bu vəziyyətdən çıxaracaq liderə zərurət yaranmışdı. Xalq heç şübhə etmədən gözünü məhz Heydər Əliyevə dikdi və təkidli tələblə onu Bakıya dəvət etdi.

Məhz bu dövrdən başlayaraq, Azərbaycan tarixində Heydər Əliyevin idarəçiliyinin yeni və parlaq səhifəsi açıldı. Məhz Heydər Əliyevin 1993-cü ilin 15 iyunundan - Qayıdış Günündən başlayaraq, Azərbaycanın inkişafa doğru aparılmasının təməli qoyuldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və yeni neft strategiyasının təməli qoyuldu. Xarici investorların Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə qoymasına şərait yaradıldı. 1996-cı il 16 iyulda "Torpaq islahatı haqqında" qanun qəbul edildi, torpaqlar kəndlilərin mülkiyyətinə verildi. Neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillər üçün təminat yaradılması məqsədilə Dövlət Neft Fondu yaradıldı. Bakı-Tbilisi-Ərzurum və Qars kəmərlərinin təməli qoyuldu.

Heydər Əliyev bildirirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Onun 1995-2003-cü illəri əhatə edən islahatları Azərbaycanın yeni inkişaf modelini yaratdı. Bank, vergi, sənaye və kənd təsərrüfatı sahələrində ciddi irəliləyişlər əldə olundu.

Hazırda Ulu Öndər Heydər Əliyevin müstəqil inkişaf strategiyası cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Lider Heydər Əliyev bizə elə bir miras qoyub ki, bu miras xalq-iqtidar birliyi üzərində daha da möhkəmlənir. Bu, bizim həmrəyliyimizdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqını "Azərbaycançılıq" məfkurəsi altında elə sıx birləşdirdi ki, 44 günlük Vətən müharibəsinin simvolu olan "dəmir yumruq" sayəsində bütün dünyanın qarşısında məğrur dayanmağı bacardıq.

Vətən müharibəsi nəticəsində əldə etdiyimiz şanlı Zəfərimiz gələcək nəsillər üçün qürur mənbəyidir. Azərbaycan 30 illik erməni işğalına son qoydu, ərazi bütövlüyünü, suverenliyini, həm də milli ləyaqətini bərpa etdi.

Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən mötəbər, güclü orduları ilə bərabər addımlayır. Azərbaycanın müdafiə sənayesi müasirləşdirilir, yeni silahlarla, texnika ilə təchiz edilir. Xüsusi təyinatlı qüvvələrin say tərkibində əhəmiyyətli artım var, yeni yaradılmış komando qüvvələrinin təcrübəsi dünya tərəfindən öyrənilir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. İnsanlar öz yurd-yuvalarına geri dönürlər. Bununla da Azərbaycan Cənubi Qafqazda dayanıqlı sülh yaradır. Beynəlxalq təşkilatlarla münasibətlər dərinləşdirilir.

Azərbaycan Orta Asiya ölkələrinin Məşvərət Şurasına yekdilliklə tam hüquqlu üzv seçildi. Ölkəmiz elə bir xarici siyasət yürüdür ki, atdığı addımlarla sadəcə dövlət olaraq özünü deyil, bütöv bir regionu beynəlxalq münasibətlər sisteminə, dünya siyasətinin mərkəzinə daşıyır.

Azərbaycanın iqtisadi potensialı, enerji siyasəti, nəqliyyat imkanları və logistika infrastrukturu gündən-günə inkişaf edir. Məhz bütün bu amillər heç bir tərəfə imkan vermir ki, hansısa aktor bizə öz iradəsini diktə etsin. Azərbaycanın valyuta ehtiyatları tarixi rekord həddə - 90 milyard dollara yaxın məbləğə çatıb. Xarici borcumuz ümumi daxili məhsulun (ÜDM) cəmi 6,3 faizini təşkil edir. Müqayisə üçün bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz və ya daha artıqdır. Valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir. Məhz bunun nəticəsidir ki, dünyanın mötəbər reytinq agentlikləri Azərbaycanın kredit və investisiya reytinqlərini müsbət səviyyəyə qaldırıblar. Geriyə dönüb baxdıqca bugünkü Azərbaycan üçün həqiqətən də Ümummilli Lider Heydər Əliyevə minnətdar oluruq. Ulu Öndər Heydər Əliyevin doğum günü yaxınlaşdıqca onun Azərbaycanın dövlətçilik tarixindəki müstəsna rolu bir daha xüsusi ehtiramla xatırlanır.

Azərbaycan və Ulu Öndərin adı bir-biri ilə sıx bağlıdır və bu iki anlayışı bir-birindən ayırmaq mümkün deyil. Çünki müasir Azərbaycan dövlətinin əldə etdiyi uğurların təməlində məhz onun siyasi iradəsi, uzaqgörənliyi və məqsədyönlü fəaliyyəti dayanır. Ulu Öndər iki dəfə Azərbaycana rəhbərlik edib və hər iki dövr ölkənin ən mürəkkəb və taleyüklü mərhələlərinə təsadüf edib. 1969-cu ildə rəhbərliyə gəldiyi zaman respublikanın iqtisadiyyatı durğunluq içində idi. Sənaye artımı zəifləmiş, kənd təsərrüfatında məhsuldarlıq aşağı düşmüş, infrastruktur və sosial obyektlərin inkişafı məhdud səviyyədə qalmışdı. Lakin 1969-1982-ci illər ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan iqtisadiyyatında ciddi dönüş baş verdi. Sənaye istehsalı 2,5-3 dəfə artdı, orta illik iqtisadi artım tempi 7-8 faiz təşkil etdi. 600-dən çox iri sənaye müəssisəsi və sosial obyekt istifadəyə verildi. Kənd təsərrüfatı məhsulu təxminən 2 dəfə artdı.

Şəhərlərin genişləndirilməsi və yeni yaşayış massivlərinin salınması nəticəsində mənzil fondu 2 dəfədən çox artdı. Təhsil sahəsində də mühüm nailiyyətlər əldə olundu. Belə ki, ali təhsil müəssisələrinin sayı 2 dəfədən çox artdı, minlərlə gənc ittifaqın aparıcı ali məktəblərinə təhsil almağa göndərildi. Səhiyyə sahəsində xəstəxanaların və həkimlərin sayı 1,5-2 dəfə artdı, uşaq ölümü göstəricilərində ciddi azalma müşahidə olundu. Orta aylıq əməkhaqqı isə təxminən 1,5 dəfə yüksəldi. Nəticədə Azərbaycan ittifaq daxilində dotasiya alan respublikadan büdcəyə töhfə verən qabaqcıl respublikalardan birinə çevrildi. 1990-1993-cü illər isə ölkə üçün son dərəcə ağır və təlatümlü dövr kimi yadda qalıb. Bu illərdə dərin iqtisadi böhran, investisiya çatışmazlığı və texnoloji gerilik hökm sürürdü. ÜDM təxminən 60 faiz azalmış, sənaye istehsalı iki dəfədən çox geriləmişdi. İnflyasiya 1000 faizi keçmiş, dövlət büdcəsində ciddi kəsir yaranmışdı. Siyasi qeyri-sabitlik və idarəetmə böhranı ölkəni dərin tənəzzülə sürükləmişdi. Belə bir mürəkkəb şəraitdə hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə sabitliyin bərpasına nail oldu və ölkənin inkişaf strategiyasını müəyyənləşdirdi. 1995-2003-cü illərdə həyata keçirilən iqtisadi siyasət nəticəsində Azərbaycan tənəzzüldən çıxaraq davamlı inkişaf mərhələsinə qədəm qoydu. ÜDM 2 dəfədən çox artdı, orta aylıq əməkhaqqı 6-7 dəfə, pensiyalar isə 5-6 dəfə yüksəldi. İnflyasiya səviyyəsi kəskin şəkildə azaldıldı və əhalinin real gəlirlərində artım müşahidə olundu. Bu dövrdə 200-dən çox yeni məktəb tikildi və ya əsaslı təmir edildi, onlarla xəstəxana və poliklinika yenidən qurulmağa başlandı. Qarabağ münaqişəsi nəticəsində məcburi köçkünlər üçün 100-dən çox yaşayış məntəqəsinin inşasına başlanıldı. Yoxsulluq səviyyəsi tədricən azaldıldı, özəl sektorda məşğulluq genişləndi, sosial müdafiə sistemi gücləndirildi. Ulu Öndərin həyata keçirdiyi iqtisadi strategiyanın əsasını isə neft siyasəti təşkil edirdi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın gələcək iqtisadi inkişafının təməlini qoydu. Bu müqavilə nəticəsində ölkəyə 20 milyard ABŞ dollarından çox xarici investisiya cəlb olundu. Neft istehsalı 1995-ci ildəki 9 milyon tondan 2003-cü ildə 15 milyon tona yüksəldi, xarici ticarət dövriyyəsi 3 dəfə artdı. Azərbaycan beynəlxalq maliyyə institutları, o cümlədən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə əməkdaşlığa başladı. Enerji resurslarının dünya bazarlarına çıxarılması üçün Bakı-Supsa kəməri istifadəyə verildi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əsası qoyuldu. 1996-cı ildə həyata keçirilən torpaq islahatı nəticəsində torpaqların 90 faizi özəl mülkiyyətə verildi. Özəlləşdirmə proqramı çərçivəsində 2000-dən çox dövlət müəssisəsi özəl sektora ötürüldü ki, bu da sahibkarlığın inkişafına və yeni iş yerlərinin açılmasına təkan verdi. Beləliklə, 1993-2003-cü illər Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi, iqtisadi əsaslarının qurulması və uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsi dövrü kimi xarakterizə olunur. Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı siyasi və iqtisadi kurs sonrakı illərdə Azərbaycanın davamlı inkişafının əsasını təşkil edərək ölkəni regionun aparıcı dövlətlərindən birinə çevirdi. Azərbaycanın iqtisadi tənəzzüldən çıxarılması, böhranların effektiv idarə olunması, eləcə də ölkəmizin adının dünya siyasətinə inteqrasiya edilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Yaşadığı dövrün çətinliklərinə baxmayaraq, çağırışlara adekvat cavab vermək, bu cavab tədbirlərini əlaqələndirmək və ictimaiyyətlə effektiv ünsiyyət qurmaq bacarığı Ulu Öndəri son dərəcə güclü lider kimi səciyyələndirir. Əsas vacib məqam onda idi ki, Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafını prioritet hesab edirdi. Davamlılıq, funksional təşkilatlanma və bu təşkilatlanmanı qoruyaraq dəyişən şəraitə uyğunlaşmaq bacarığı Heydər Əliyevin idarəçilik fəlsəfəsinin əsas xüsusiyyətlərindəndir.

Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın memarlıq üslubunun qorunmasına böyük həssaslıqla yanaşmışdır. Ulu Öndərin ilk ixtisasının memar olması onun şəhərsalmanın planlaşdırılmasında və daha effektiv qurulmasında əhəmiyyətli rol oynamışdır. Bu baxımdan, Azərbaycanın müasir şəhərsalma tarixində Heydər Əliyev dövrü xüsusi mərhələ kimi yadda qalır. Onun rəhbərliyi illərində həyata keçirilən genişmiqyaslı quruculuq işləri həm paytaxt Bakının, həm də regionların simasını əsaslı şəkildə dəyişdirdi.

Sovet dövründə başlanılan şəhərsalma siyasəti çərçivəsində yeni yaşayış massivləri salındı, sənaye zonaları inkişaf etdirildi və müasir infrastrukturun təməli qoyuldu. Paytaxtda inşa edilən Respublika Sarayı və Gülüstan Sarayı kimi memarlıq nümunələri yalnız funksional obyektlər deyil, həm də dövrün estetik baxışını əks etdirən mühüm mədəniyyət ocaqları oldu. Eyni zamanda Bakı Metropoliteni şəbəkəsinin genişləndirilməsi şəhər həyatının dinamikliyini artırdı.

Müstəqillik illərində isə bu siyasət daha da dərinləşdirildi. Bakı Bulvarı yenidən qurularaq paytaxtın ən gözəl istirahət məkanlarından birinə çevrildi, Şəhidlər Xiyabanı və Fəxri Xiyaban kimi ərazilər abadlaşdırılaraq milli yaddaşın mühüm simvolları kimi formalaşdırıldı. Heydər Əliyev seyrangahların salınmasına da xüsusi həssaslıqla yanaşırdı. Bu addımların hər biri Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin göstəricisidir. Eyni zamanda regionlarımızın inkişaf strategiyasının təməlinin qoyulması da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ildən başlayaraq, şəhərsalma sahəsində sistemli islahatlar həyata keçirilməyə başlanıldı. Həmin dövrdə Bakının baş planı yenidən işləndi, paytaxtımızın infrastrukturunun müasirləşdirilməsi baxımından mühüm addımlar atıldı. Yeni yaşayış massivlərinin salınması, çoxmərtəbəli binaların inşası, geniş prospekt və yolların çəkilməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Milli üslubla müasir elementlərin uzlaşdırılması Heydər Əliyevin xüsusi diqqət etdiyi məsələ idi. Ulu Öndər sovet ideologiyasının ziddinə gedərək milli ornamentlərin memarlıq nümunələrinə salınması üçün göstəriş verirdi. Bu, son dərəcə cəsarətli addım idi. Bu, tarixə hörmət, soykökə bağlılıq idi. Bütün bu layihələr Heydər Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasətin nəticəsi olaraq Azərbaycanın şəhər mühitində müasirlik, funksionallıq və estetik harmoniyanın vəhdətini təmin etdi. Bu gün həmin memarlıq nümunələri ölkənin inkişaf yolunun canlı şahidi kimi öz əhəmiyyətini qoruyub saxlayır. İstər paytaxtımız Bakı şəhərinin, istərsə də regionların hərtərəfli inkişafı Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla icra edən cənab Prezident İlham Əliyevin də fəaliyyətinin əsas istiqamətlərindən biridir. Bu gün yeni reallığımız da var. Bu reallığımız Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsidir. Bölgə yeni inkişaf mərhələsinə qədəm qoyur, müasir yaşayış məntəqələri qurulur. Həmin ərazilər sürətlə dirçəlir və inkişaf edir. Hazırda Qarabağ və Şərqi Zəngəzur beynəlxalq diqqət mərkəzindədir. Azərbaycanın paytaxtı Bakı şəhərinin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi etməsi bunun bariz nümunəsidir. Bu tədbir ölkənin davamlı inkişaf sahəsində əldə etdiyi nailiyyətləri beynəlxalq ictimaiyyətə nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Dünya Şəhərsalma Forumu Cənubi Qafqazda keçiriləcək ən böyük tədbirlərdən biri olacaq. Dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət rəsmiləri, QHT nümayəndələri, mütəxəssislər və ekspertlər, ictimai xadimlər Azərbaycana səfər edərək təcrübə mübadiləsi aparacaqlar. Mühüm məqamlardan biri odur ki, tədbirə qədər təxminən 140 min keçmiş məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıtması planlaşdırılır. Bu, olduqca əhəmiyyətli göstəricidir. Bu, dayanıqlı inkişaf məqsədlərinə, habelə dayanıqlı sülhə töhfədir. Hazırda bölgə dünya standartlarına uyğun şəkildə yenidən qurulur. Xüsusi qeyd edilməlidir ki, Azərbaycan bütün bu işləri öz daxili imkanları və resursları hesabına həyata keçirir.

WUF 2001-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən müasir dövrdə dünyanın üz-üzə qaldığı aktual problemlərdən biri olan sürətli şəhərləşməni və bu problemin insanlara, şəhərlərə, ayrı-ayrı iqtisadiyyatlara, iqlim dəyişikliyinə, habelə bu istiqamətdə yürüdülən siyasətlərə təsirini araşdırmaq məqsədilə yaradılmışdır. İlk WUF 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilmişdir. O vaxtdan bu yana sözügedən tədbir dünyanın hər yerində keçirilir. Sayca on üçüncü olan WUF Azərbaycanın paytaxtı olan, son zamanlarda ölkəmizin qazandığı nüfuz səbəbilə isə özünə bütün dünyanı cəlb edən Bakı şəhərində keçiriləcək. Azərbaycan yerli prioritetləri qlobal səylərlə uzlaşdırmağın unikal modelini ortaya qoyur. Atılan addımlar davamlı şəhərsalma, dayanıqlı inkişafı təşviq etmək amallarına töhfədir.

Azərbaycan artıq beynəlxalq münasibətlər sistemində əhəmiyyətli rola malik ölkədir. Regionla bağlı baş verən hadisələr göstərir ki, cənab İlham Əliyevin yürütdüyü siyasət, sərgilədiyi yanaşma, atdığı addımlar, verdiyi qərarlar dəqiq və əhəmiyyətlidir. Necə ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan ittifaq respublikaları arasında öncül sırada dayanırdı, bu gün də cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət həmin xəttin üzərindədir.

Azərbaycan Lideri elə bir reallıq yaradıb ki, ölkəmiz yalnız beynəlxalq münasibətlər sisteminin mərkəzində dayanmır, dövlət başçımız yürütdüyü siyasətlə Cənubi Qafqazı dünya siyasətinin mərkəzinə daşımağı bacarır. Bu gün artıq elə bir reallıq yaranıb ki, bu reallıqda uduzan tərəf olmayacaq. Regional layihələr, bağlantılar, nəqliyyat və logistika qovşaqları Azərbaycanı dünya iqtisadiyyatının mərkəzinə aparır. Dünyanın mötəbər dövlətləri, aparıcı təşkilatları Azərbaycanla əməkdaşlıq etmək üçün təşəbbüskarlıq göstərirlər.

Cənab Prezident İlham Əliyev beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, həm də nüfuzunu qaldırıb. Bu gün Azərbaycan xalqına məğrur xalq kimi dünyada hörmət olunur.

Azərbaycanın evsahibliyi etdiyi qlobal forumlar, Qarabağın artıq diplomatiya mərkəzinə çevrilməsi, daxili və xarici siyasətdə atılan ardıcıl addımlar ondan xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin siyasi irsi layiqincə davam etdirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın cənab Prezident İlham Əliyevin yürütdüyü siyasətə yaxından dəstək verməsi, Heydər Əliyev Fondunun Azərbaycanda və Azərbaycanın hüdudlarından kənarda icra etdiyi layihələr xalqımızın mədəni obrazının dünyaya tanıdılması deməkdir.

*Cənab Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən xalqının ümidlərini doğruldacağını bildirmişdi. Ümummilli Lider Heydər Əliyevin "Ona özüm qədər inanır, gələcəyinə böyük ümidlər bəsləyirəm" fikri bu gün özünü tam mənası ilə doğruldur.*

***Azər BADAMOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

# Vətənə və xalqa həsr olunan ömür

**Hər bir xalqın və dövlətin taleyində lider amili müstəsna rol olnayır. Məhz cəsarətli, uzaqgörən və təəssübkeş liderlərin sayəsində ayrı-ayrı xalqlar çətinliklərdən qurtularaq nicat tapıblar. Bu mənada Heydər Əliyev Azərbaycan və xalqımız üçün kimdir sualının cavabı çox genişdir. Ümumiləşmiş olaraq, Ulu Öndərimizin həyatını bütünlüklə xalqa, dövlətə, Vətənə həsr olunan ömür kimi səciyyələndirə bilərik. Bu gün ümummilli səviyyədə dərk olunur ki, Heydər Əliyev Azərbaycan üçün bütün zamanların ölməz Lideri olaraq yaşayacaq. Bu parlaq şəxsiyyət-Liderin yeri və rolu, qoyduğu silinməz izlər respublika həyatının bütün sahələrində real olaraq aydın görünür.**



Ulu Öndər Heydər Əliyev uzaqgörən olduğu qədər də milli təəssübkeş idi, bu Vətənin, xalqın oğlu olduğuna görə sonsuz qürur duyurdu. Heydər Əliyev Azərbaycana bir-birindən fərqli qütblərdə dayanan iki ideoloji formasiyada rəhbərlik edib. Lakin şərait, ideoloji tələblər müxtəlif olsa da, Heydər Əliyevin milli ruhu və uzaqgörənliyi onun Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə - istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində respublikamızın böyük uğurlar əldə etməsinə yol açıb. Keçmiş sovet dövrü milli respublikalar, o cümlədən də Azərbaycan üçün bir sıra qadağalarla səciyyələnirdi. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Ulu Öndər Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar region çərçivəsindən çıxardaraq yüksəktexnologiyalı sənaye inkişafına istiqamətləndirdi. Eyni zamanda milli-mədəni irsin xalqın özünüdərk hissinin yüksəlməsində rolunu yüksək qiymətləndirən Heydər Əliyev ənənələrin qorunub saxlanılmasını, Bakıda ədəbiyyat və incəsənət xadimlərinə abidələrin ucaldılmasını, klassik şair və yazıçıların əsərlərinin nəşrini daim diqqət mərkəzində saxlayırdı ki, bütün bunlar da insanlarda milli mənsubiyyətə görə sonsuz qürur yaradırdı. Milli ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Heydər Əliyevin azərbaycanlı gəncləri keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərməsi uzaqgörənliyin və milli təəssübkeşliyin zirvə nöqtəsi sayıla bilər. Ümumilikdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 17-18 minədək yüksəkixtisaslı azərbaycanlı mütəxəssis hazırlandı. Həmin mütəxəssislər sonradan müxtəlif sahələrdə çalışmaqla müstəqil dövlət quruculuğuna öz töhfələrini verdilər.

Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən bütün dünya azərbaycanlılarının ümummilli ideologiya ətrafında birləşdirilməsi, xalqın milli-mənəvi vəhdətinə nail olunması qırmızı xətt kimi keçirdi. 1982-ci ildə keçmiş ittifaq dövlətinin rəhbərliyinə irəli çəkilən Heydər Əliyev doğma vətəndən kənarda yaşasa da, Azərbaycanın inkişafını və problemlərini diqqət mərkəzində saxlayırdı. 1987-ci ildə isə keçmiş SSRİ rəhbərliyində tutduğu vəzifələrdən getməsinə baxmayaraq, Heydər Əliyevin qəlbi yenə də Azərbaycanla döyünürdü. 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıda törədilən qanlı faciəni xatırlayaq. 20 Yanvar qətliamı imperiya qüvvələri tərəfindən törədilmişdi. Belə vəziyyətdə Heydər Əliyev heç nədən çəkinməyərək, özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, Bakıda törədilən qırğını qətiyyətlə pislədi.

Tale elə gətirdi ki, həmişə Azərbaycanın müstəqilliyini arzulayan, bütün şüurlu fəaliyyətini bu istiqamətdə quran Ulu Öndər Heydər Əliyev respublikamızın müstəqilliyini qorumaq missiyasını da elə özü yerinə yetirdi. Heydər Əliyevin Azərbaycanın real müstəqilliyinə nail olmaq üçün açıq müstəvidə mücadiləsi onun həyatının Naxçıvan dövründən başladı. Xatırlayaq ki, muxtar respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra 17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Onun çağırışı ilə Naxçıvanın 1991-ci il martın 17-də keçmiş sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı, insanlarda qarşısıalınmaz mübarizə əzmi yaratdı.

Sonrakı mərhələdə - 1993-cü ilin yayından etibarən Ümummilli Liderimiz Azərbaycan naminə fəaliyyətini Bakıda davam etdirdi. O dövrün mənzərəsini göz önündə canlandıraq. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdəki sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyin itirilməsi təhlükəsi də real idi.

Respublikanın gələcəyi üçün həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb edirdi. Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev şəxsi həyatı üçün təhlükələrə baxmayaraq, bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və bu gəliş respublikamızın qurtuluş tarixinin başlanğıcı oldu. Az sonra ölkə prezidenti seçilən Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Ölkə sabitliyə, inkişafa və sosial rifaha istiqamətləndi.

Ulu Öndər Heydər Əliyevin ən böyük amalı Azərbaycanın müstəqilliyinin qorunması və ərazi bütövlüyümüzün təmin olunması idi. Onun qəlbində Ermənistanın işğalına son qoyulacağına, ərazi bütövlüyümüzün gec-tez bərpa olunacağına, xalqımızın Şuşaya, Kəlbəcərə, Laçına, Ağdama və digər yurd yerlərimizə qayıdacağına böyük inam var idi. Heydər Əliyevin səyləri və diplomatik məharəti sayəsində 1994-cü ilin mayında atəşkəsə nail olunması, eləcə də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycana öz gücünü səfərbər etmək, iqtisadiyyatını gücləndirmək və yüksək döyüş qabiliyyətinə malik ordu qurmaq üçün imkanlar açdı.

2003-cü il 15 oktyabr tarixində ilk dəfə Azərbaycan Prezidenti seçilən İlham Əliyev Ulu Öndərimizin siyasətini davam etdirərək ötən dövrdə bu imkanlardan səmərəli istifadə etməklə respublikamızı yeni inkişaf mərhələsinə yüksəltdi. Respublikamızda müasir ordu formalaşdırıldı. Ölkəmiz ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına da məhz yaradılan potensial sayəsində öz gücünə nail oldu.

Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin varisliyini yüksək səviyyədə təmin etməklə güclü Azərbaycan formalaşdırmağa nail olub. Hazırda respublikamız dünyaya nümunəvi inkişaf modeli təqdim edir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ölkədə aparılan siyasətin mərkəzində vətəndaşların maraqları dayanır.

*Ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edən Azərbaycan yenə də kənardan dəstək almadan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirir. Göz önündə yeni, daha abad, daha müasir Qarabağ və Şərqi Zəngəzur formalaşır. Bütün bunlar isə o anlama gəlir ki, Azərbaycanda Heydər Əliyev ideyaları yaşayır və bundan sonra da yaşayacaq!*

***Samir VƏLİYEV,***
***Milli Məclisin deputatı***

# Xilaskarlığın Naxçıvandan başlanan missiyası

**XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür.**

## Naxçıvanın dönüş mərhələsi

Ulu Öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, ictimai-siyasi xadimlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi əvəzolunmaz şəxsiyyətdir. Ulu Öndər həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulduğu Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ulu Öndərimiz yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı unutmayıb, qədim diyarı daim diqqət mərkəzində saxlayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü dəyərləndirərək deyirdi: "Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı".

Dahi şəxsiyyət 1970-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə oldu. Reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edildi, gələcək perspektivə hesablanmış addımlar atıldı.

Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Sirr deyil ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş ittifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb vəziyyət cərəyan etməkdə idi. Belə zamanda Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durum Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi.

Ölkənin çətin bir dövründə Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu Öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında muxtar respublikaya qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda fəaliyyət özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması zamanın dahisi Heydər Əliyevin güclü siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. 1990-cı il noyabrın 17-də Ulu Öndərin sədrliyi ilə keçirilən tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən Ulu Öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etdi.

## Əbədi və yenilməz müstəqilliyə doğru...

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu Ulu Öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər. Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin Ulu Öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında eyni zamanda başlanmışdı. Bu istiqamətdə ilk dövrlərdə olan kortəbii, dağınıq fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı Ümummilli Liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə Ulu Öndəri daha çətin, eyni zamanda şərəfli bir missiya gözləyirdi...

1993-cü il iyun ayının 9-da xalqın təkidli tələbi ilə Bakıya qayıdan Heydər Əliyev təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

## Müasir Naxçıvanın yol xəritəsi

Ulu Öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdandan sonra Naxçıvanla bağlı gerçəkləşdirdiyi kompleks layihələr blokada şəraitində də inkişaf etməyin, tarixi nailiyyətlər qazanmağın örnəyini dünyaya sərgilədi.

Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də davam etdirilərək özünün ən yüksək mərhələsinə çatdı. Naxçıvan dövlət başçısının ötən müddətdə imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında daim əhatə olunmuşdur. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Prezident sərəncamı imzalanmış, nəhayət, muxtar respublika sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinin və onun müxtəlif rayonlarının inkişafı ilə bağlı sənədlər qəbul edilmişdir. Bütün bunlar Naxçıvanın hərtərəfli tərəqqisini təmin etmiş, yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirmişdir.

Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Xartiyada təsbit edilmiş quru və hava nəqliyyatı infrastrukturunun inkişafı, ticarət və tranzitin asanlaşdırılması, gömrük nəzarəti və sərhəd keçidi, beynəlxalq multimodal logistika kimi müddəalar əlbəttə ki, daha çox Naxçıvan məzmunludur. Regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi olacaq Zəngəzur dəhlizi Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantısını təmin edəcək. Ən əsası isə Naxçıvanın Avrasiyanın mühüm qovşağına çevrilməklə bağlı cənab Prezidentin strateji hədəfinin gerçəkləşməsinə əsaslı şərait yaradacaq.

Dövlət başçımızın qarşıya qoyduğu hədəflər, müəyyənləşdirdiyi vəzifələr və bütün bunların məsuliyyəti Naxçıvanda düzgün, aydın, birmənalı dərk edilir. Onların yerinə yetirilməsi Naxçıvanda prioritet vəzifə kimi qəbul olunur, nəticə etibarilə bu iqtisadi region möhtərəm Prezidentimizin müəyyən etdiyi istiqamətdə uğurla irəliləyir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bunu yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşiblər.

*Ötən illərə baxdıqca bir daha əmin oluruq ki, ölkəmizdə dahi lider Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Onun çəkdiyi yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur.*

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026




# Zəfər ordusunun təməlini Heydər Əliyev qoymuşdur

**Yaşanmış və artıq daşlaşmış tarixi təcrübə göstərir ki, dövlətin qüdrətini, gücünü göstərən zəruri amillərin sırasında iqtisadi yüksəlişlə ordu yanaşı dayanır. Deməli, ordu dövlətin əsas dayağı və müstəqilliyinin, təhlükəsizliyinin etibarlı təminatçısıdır. Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Buna görə də bütün dövrlərdə dövlətlər ordu quruculuğu məsələsinə böyük diqqət ayırır.**

Ölkəmizdə də ordu quruculuğuna xüsusi diqqət göstərilir. Böyük Zəfəri ilə fəxr etdiyimiz Azərbaycan Ordusu müstəqil dövlətimizin ən etibarlı dayağı, xalqımızın güvənc yeri və qürur mənbəyidir. Amma yaxın tariximizdən məlumdur ki, Azərbaycanda ordu quruculuğu heç də hamar yolla getməmiş, olduqca çətin, mürəkkəb mərhələlərdən keçməli olmuşdur.

Məlum olduğu kimi, Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olmuşdur. Lakin həmin dövr vahid komandanlığa tabe olan nizami və mütəşəkkil, yenicə qazanılmış müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı bir təhlükənin qarşısını almağa qadir ordunun yaradılması obyektiv və subyektiv səbəblər üzündən mümkün olmamışdır. Bu mühüm iş yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Heydər Əliyevin bu sahədəki misilsiz fəaliyyəti xalqın orduya inamını daha da artırdı. Bundan sonra Azərbaycan xalqı Ulu Öndərin ətrafında sıx birləşərək ordumuzun yaradılmasına dəstək verdi. Vətən qeyrəti çəkən vətənpərvər oğullar qısa müddətdə erməni təcavüzünə qarşı mübarizəyə səfərbər oldular.

Ümumiyyətlə, Azərbaycan Ordusunun yaranma tarixi bütün ömrünü xalqının işıqlı gələcəyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Qətiyyətli siyasi iradəyə, yüksək sərkərdəlik qabiliyyətinə malik olan Heydər Əliyev hələ ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq Azərbaycanın gələcəkdə nizami ordusunun yaradılması və formalaşdırılması haqqında düşünmüşdü. Məlumdur ki, keçmiş ittifaq illərində milli ordudan danışmaq heç də asan deyildi. Amma həmin dövrlər azərbaycanlı gənclərin orduya, hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması mümkün idi. Ulu Öndər bu məqsədlə ötən əsrin 70-ci illərində böyük çətinliklə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail oldu.

Artıq tarixə qovuşmuş o illərdə bu addımı atmaq, belə bir qərarı vermək böyük cəsarət və qətiyyət tələb edirdi. Çoxlarının bacarmadığı bu addımı Ulu Öndər Heydər Əliyev atdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra C.Naxçıvanski adına Hərbi Lisey ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Ümummilli Lider Heydər Əliyev çıxışında həmin günlərdən söz açaraq demişdir: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

Ulu Öndər Heydər Əliyevin bu sahəyə böyük diqqət və qayğısı sayəsində 1971-ci ildə respublikamızda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin açılmasını azərbaycanlı gənclər sevinclə qarşıladılar. Məktəbi uğurla başa vuran gənclər hərbi biliklərini Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində, eləcə də keçmiş ittifaqın başqa şəhərlərindəki hərbi məktəblərdə davam etdirdilər. Onlar ölkə ərazisindəki müxtəlif hərbi hissələrdə ixtisaslı hərbçi kadrlar kimi qulluq edirdilər.

Bu gün Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur. Artıq Azərbaycanın peşəkar, ixtisaslı hərbçi kadrlardan ibarət, müasir maddi-texniki bazaya sahib olan nizami ordusu var. Amma bu, birdən-birə mümkün olmayıb.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra başqa sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda nizami ordu quruculuğu prosesi başladı. Ulu Öndər ordu quruculuğu sahəsini şəxsi nəzarətinə götürdü. Çox keçmədi ki, yeni təyinatlı hərbi hissə birləşmələri yaradıldı, müasir tələblərə cavab verən struktur dəyişiklikləri aparıldı. Heydər Əliyev 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I Forumunda bu barədə belə demişdir: "Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik... Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".

Ulu Öndərin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası da yaradıldı. "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edildi.

Ordu quruculuğu, onun döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması heç də bəzilərinin düşündüyü kimi, az bir zamanın işi deyil. Bu, sistemli davam edən uzun bir prosesdir. Döyüş hazırlığı məsələlərinə ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu hazırda istər quruda, istər havada, istərsə də dənizdə hər hansı döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirmək gücünə malikdir. Məlumdur ki, hər bir ordunun gücü, qüdrəti onun döyüş qabiliyyəti ilə mənəvi gücü arasında vəhdət təşkil edir. Bu gün cəmiyyətimizdə, eləcə də orduda Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanmış və dəfələrlə zamanın sınağından çıxmış hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. Həmin konsepsiyanın əsasında istər sülh, istərsə də müharibə dövründə zabit və əsgərlərdə Vətənə, xalqa, dövlətə, dövlətçiliyə sədaqət və məhəbbət hissi dayanır.

Azərbaycan Silahlı Qüvvələrinin daha da gücləndirilməsi üçün quruculuq işləri bir gün də olsun dayanmır. Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu istiqamətində bünövrəsini qoyub başlatdığı işlər Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, zaman keçdikcə Silahlı Qüvvələrimiz daha da modernləşir, ən müasir hərbi texnologiya və silahlarla təchiz olunur.

2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə keçirilmiş hərbi paradda Prezident İlham Əliyev xalqa müraciət edərək demişdir: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". 10 dekabr 2020-ci ildə Bakıda keçirilən Zəfər paradında biz dövlətimizin başçısının xalqa verdiyi bu sözə əməl etdiyini gördük. Zəfər bayrağı Azadlıq meydanına gətirildi, hərbi qənimət kimi ələ keçirilən erməni hərbi texnikaları qalib Azərbaycan xalqına, onun dostlarına, düşmənlərinə əyani surətdə göstərildi.

Azərbaycan Ordusu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə hərb tariximizin şanlı salnaməsini yazdı. Zabit və əsgərlərimizin göstərdikləri misilsiz qəhrəmanlıq sayəsində düşmən məğlub edildi, ərazi bütövlüyümüz bərpa olundu, 30 il davam edən erməni işğalına son qoyuldu, ədalət öz yerini tapdı. 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı Zəfərin şöhrəti bütün dünyaya yayıldı. İkinci Qarabağ müharibəsində bu cür ürəkaçan uğurların, zəfərlərin qazanılmasının nəticəsidir ki, Azərbaycan Ordusu bu gün dünyanın güclü orduları sırasındadır. Ali Baş Komandanın sözləridir: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı tədbir keçirilib

**Mayın 8-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.**




Əvvəlcə Baş Prokurorluğun inzibati binasında Ulu Öndərin büstü önünə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Baş Prokurorluğun rəhbərliyi tərəfindən gül dəstələri qoyularaq dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman əsgər və zabitlərin, eləcə də vətəndaşlarımızın xatirəsi birdəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsi müasir Azərbaycan dövlətçiliyinin əsas ideoloji dayaqlarından biri olmaqla ölkənin inkişaf strategiyasını müəyyən edən fundamental prinsipləri özündə ehtiva edir. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində ölkədə sabitlik, qanunçuluq və milli maraqlara əsaslanan idarəetmə sistemi formalaşıb, iqtisadi, sosial və mədəni inkişafın möhkəm təməli yaradılıb.

Qeyd edilib ki, Ümummilli Liderin rəhbərliyi dövründə həyata keçirilən şəhərsalma və quruculuq siyasəti Azərbaycanın kompleks inkişaf modelinin formalaşmasında mühüm rol oynayıb. Şəhərlərin planlı inkişafı, yeni yaşayış massivlərinin salınması, nəqliyyat və sosial infrastrukturun genişləndirilməsi, Bakı şəhərinin baş planının hazırlanması, yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi, sənaye müəssisələrinin, təhsil və mədəniyyət obyektlərinin inşası həmin dövrün strateji inkişaf yanaşmasının mühüm tərkib hissəsi kimi dəyərləndirilib.

Bildirilib ki, bu siyasət yalnız urbanizasiya prosesinin idarə olunmasına deyil, eyni zamanda regionların sosial-iqtisadi inkişafına, əhalinin rifah halının yüksəldilməsinə, milli memarlıq ənənələrinin və tarixi-mədəni irsin qorunmasına xidmət edib. Bu kontekstdə qədim memarlıq abidələrinin bərpası və mühafizəsi istiqamətində həyata keçirilən tədbirlərin Azərbaycanın milli-mədəni irsinin gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

Baş prokuror qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyası bu gün uğurla davam etdirilir, xüsusilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri icra olunur.

Vurğulanıb ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma prosesi yalnız infrastrukturun bərpasını deyil, həm də həmin ərazilərin tarixi-mədəni simasının, ekoloji tarazlığının və sosial həyatının yenidən formalaşdırılmasını nəzərdə tutan kompleks dövlət siyasətini əks etdirir.

Həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq siyasətinin ardıcıl və strateji xarakter daşıdığını bir daha təsdiqləyir, bu istiqamətdə milli memarlıq irsinin qorunması, müasir şəhərsalma prinsiplərinin tətbiqi və qanunçuluğun təmin olunması məsələlərinin xüsusi aktuallıq kəsb etdiyini nümayiş etdirir.

Sonra tədbirdə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun böyük köməkçisi Vüsal Əliyev Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə tikinti, şəhərsalma və memarlıq sahələrində həyata keçirilmiş genişmiqyaslı quruculuq işləri, ölkənin sosial və infrastruktur inkişafına xidmət edən layihələr, həmçinin Azərbaycanın memarlıq simasının formalaşdırılması istiqamətində görülmüş tədbirlər barədə ətraflı məlumat verib.

Sonda Azərbaycan Televiziyası (AZTV) tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə, eləcə də onun müəyyən etdiyi quruculuq və şəhərsalma siyasətinə həsr olunan "Qurulan gələcək" sənədli filmi nümayiş etdirilib.

***"Azərbaycan"***

# Milli Kitabxanada Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb



**Mayın 8-də Milli Kitabxanada Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birgə "Tarixdə iz, xatirələrdə işıq" mövzusunda tədbir keçirilib.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, əvvəlcə Dövlət himni səsləndirilib, daha sonra isə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov Ümummilli Liderin şərəfli ömür yolundan, Vətən və Azərbaycan xalqı qarşısında əvəzolunmaz xidmətlərindən və Azərbaycana layiqincə rəhbərlik etməsindən danışıb.

Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyat siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə qeyd edib ki, Ulu Öndər öz ömrünü dövlətin bütövləşməsi, xalqın suverenliyi və azadlığı yolunda qurban verib.

Milli Məclisin deputatları Asif Əsgərov, Elnarə Akimova, Aydın Mirzəzadə, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli çıxış edərək Ulu Öndərin müstəqil Azərbaycanın memarı olduğunu vurğulayaraq, ədəbiyyatla, mədəniyyətlə bağlı gördüyü işlərdən danışıblar.

Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Ümummilli Lider Heydər Əliyev" adlı Elektron məlumat bazası təqdim edilib və sonra iştirakçılar ənənəvi kitab sərgisi ilə tanış olublar.

# CAR mətbuatında Ulu Öndər Heydər Əliyevə həsr olunan məqalə dərc edilib

**Mayın 8-də Cənubi Afrika Respublikasının (CAR) nüfuzlu və böyük oxucu auditoriyasına malik "Pretoria news" qəzetində baş redaktor Mazvi Xabanın müəllifliyi ilə "Azərbaycan milli liderinin anadan olmasının 103-cü ildönümünü qeyd edir" adlı məqalə dərc olunub.**




Azərbaycanın CAR-dakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, məqalədə xüsusilə qeyd olunur ki, müasir Azərbaycan dövlətinin qurucusu və memarı, Vətəninə və xalqına dərin sədaqətlə bağlı dünyaca görkəmli siyasi xadim Heydər Əliyev Azərbaycanın müasir tarixində görkəmli yer tutur.

Vurğulanıb ki, Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində millətə müstəsna xidmətlər göstərib, milli inkişafın strateji kursunu formalaşdırıb. O, Azərbaycana tarixinin iki mühüm dövründə rəhbərlik edib: Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 1969-cu ildən 1982-ci ilə qədər və müstəqilliyin bərpasından sonra, 1993-cü ildən 2003-cü ilə qədər.

Onun rəhbərliyinin ilk dövründə ardıcıl sosial, iqtisadi və mədəni islahatlar nəticəsində Azərbaycan SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrilib.

Vurğulanır ki, müstəqilliyin ilk illərində iqtisadiyyatı dərin böhran keçirən Azərbaycan həm daxili siyasi qeyri-sabitlik, həm də xarici təcavüz qarşısında ciddi çətinliklərlə üzləşmişdi. 1993-cü il oktyabrın 3-də Prezident seçilən Ümummilli Lider Heydər Əliyev ölkədə uzun müddətdir davam edən siyasi-iqtisadi böhranı dəf etdi və davamlı inkişafın möhkəm təməli qoyuldu. Qısa müddət ərzində ölkədə sabitlik bərpa edildi, dövlətin gələcək inkişafı və xalqın tərəqqisi üçün əlverişli şərait yaradıldı. Yeni Konstitusiya qəbul edildi və beləliklə, demokratik idarəetmə, insan hüquqlarının qorunması və genişmiqyaslı iqtisadi islahatların həyata keçirilməsi üçün hüquqi təməl atıldı.

Qeyd olunur ki, Ümummilli Lider Heydər Əliyevin siyasi irsi milli birliyin möhkəmləndirilməsinin, eləcə də Azərbaycanın sabit, davamlı və dayanıqlı inkişafının təməli kimi bu gün də xidmət etməyə davam edir.

Məqalənin daha geniş hissəsi "The Star", "Cape Times", "Cape Argus" və "The Mercury" daxil olmaqla CAR-da 20-dən çox tanınmış qəzetin portfelinə sahib, böyük çoxplatformalı məzmun şirkəti sayılan "Independent Online"da (IOL) işıq üzü görüb.

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

# Heydər Əliyev: zaman, şəxsiyyət və əbədiyyət

**Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevi hər zaman böyük ehtiramla yad edir, Ulu Öndərin əziz xatirəsini daim uca tutur. 23 ildir ki, cismən aramızda olmasa da, Ulu Öndərin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir.**

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dönə-dönə vurğulayıb ki, xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır".

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya ölkələri sırasında layiqli yerə çıxarıb.

## Heydər Əliyev epoxası

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik tariximizin Heydər Əliyev epoxası dövrüdür.

Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəlmişdir. Bir vaxtlar sovetlər birliyində ən geridə qalan respublika kimi tanınan Azərbaycan Ulu Öndərin rəhbərliyindən sonra keçmiş SSRİ-də qabaqcıllar sırasına qoşulmuşdu. Sonradan Kremldə fəaliyyət göstərdiyi illərdə - 1982-1987-ci illərdə Siyasi Büronun üzvü olmaqla SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə yüksələndə də qəlbi daim xalqımızla birgə döyünmüşdür. O dövrdə ölkənin ən mühüm sahələrinə rəhbərlik məhz Ulu Öndərə etibar edilmişdir. Həmin dövrdə də Azərbaycanın inkişafını, əlaqələrinin möhkəmləndirilməsini, ərazi bütövlüyünün təmin olunmasını, milli kadrların yetişdirilməsini daim diqqət mərkəzində saxlamışdır.

Ulu Öndər təkcə həmin dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün yaddaşlarda əbədiyaşarlıq qazanıb. O, hələ sağlığında hər bir azərbaycanlının qəlbində əbədi heykəlini qoymuşdu. Məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə xalqımız tarixin ən sərt və çətin sınaqlarından alnıaçıq, üzüağ çıxıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb. 1987-ci il oktyabr plenumunda Heydər Əliyev SSRİ-nin ovaxtkı rəhbəri Mixail Qorbaçovun millətlər arasında ədavət toxumu səpməsinə, ayrı-seçkilik etməsinə, ümumiyyətlə, siyasi xəttinə etiraz əlaməti olaraq Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən istefa verdi. Bundan istifadə edən ermənilər öz havadarlarının köməyi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa və ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə həyata keçirməyə başladılar. "Torpaqdan pay olmaz" deyərək ayağa qalxan və kükrəyən xalqımızın haqq səsi Kremli silkələdi. Əlləri digər xalqların qanına batmış keçmiş SSRİ-nin sabiq rəhbəri Mixail Qorbaçov xalqın azadlıq, suverenlik arzusunu təpədən-dırnağa qədər silahlanmış qanlı ordu ilə susdurmağa çalışdı. Ancaq buna nail ola bilmədi. Sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciəni törətdiyi ən ağır vaxtda Moskvada yaşayan Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq, qanlı faciəsinin baş verdiyi günün ertəsi - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək siyasi bəyanatla çıxış etdi. Ulu Öndər 20 Yanvar faciəsinə etirazını bildirməklə sovet rəhbərliyinin cinayətkar əməllərini ifşa etdi. Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində Ulu Öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici toplumunu arxasınca apara bilmişdir.

## Böyük xilaskarlıq missiyası

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa çətinlik çəkən şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı. 1993-cü ildən 2003-cü ilədək ömrünü müstəqilliyimizin əbədiliyinə, öz xalqının və Vətəninin inkişafına sərf edən Ulu Öndər Azərbaycanı dünyaya tanıtdırdı. Xalqımızın xoşbəxt, firavan gələcəyi üçün etibarlı bünövrə yaradaraq, dövlət idarəçilik mexanizmini formalaşdırdı. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamaqla dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrildi. Müasir müstəqil Azərbaycan dövlətinin tərəqqisi Heydər Əliyev ideyalarının təntənəsidir.

## Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasət və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdir. Onun ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədin imzalanması olmuşdur. Ölkədə cənab İlham Əliyev tərəfindən aparılan islahatlar və quruculuq işləri, xüsusilə də son 23 ildə həyata keçirilən güclü dövlət, güclü ordu strategiyası, çox vektorlu siyasi münasibətlər, regional və beynəlxalq əhəmiyyətli layihələr torpaqlarımızın işğaldan azad olmasının səbəbidir.

Cənab İlham Əliyev Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli Lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı, Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu "dəmir yumruq" onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Bəli, ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev qətiyyətli siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə qələbə qazanmışıq və bu qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyevdir. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şölələridir!

***Zərifə QULİYEVA,***
***YAP Veteranlar Şurasının üzvü,***
***"Modern inkişaf və ailə"***
***İctimai Birliyinin sədri***



# Tarix yazan Lider

**Tarixin yaddaşında elə şəxsiyyətlər var ki, onlar yalnız yaşadıqları dövrün siyasi siması deyil, bütöv bir xalqın taleyinə, dövlətin gələcəyinə, millətin özünüdərk prosesinə çevrilirlər. Belə insanlar zamanın fövqünə yüksəlir, milli yaddaşın ayrılmaz parçasına çevrilir və tarixdə yaşayırlar. Azərbaycan xalqının XX əsrdə və müstəqillik tarixində yetişdirdiyi belə nadir və əzəmətli şəxsiyyətlərdən biri də Heydər Əliyevdir.**

Ulu Öndər təkcə dövlət başçısı deyildi, eyni zamanda Azərbaycan ideyasının siyasi təcəssümü, dövlətçilik düşüncəsinin memarı, milli özünüdərkin daşıyıcısı idi. Ümummilli Liderin həyatı, fəaliyyəti, mübarizəsi və siyasi irsi Azərbaycan tarixinin bütöv bir mərhələsini təşkil edir. Bəzən bir xalqın yüzilliklər boyu axtardığı lideri tarix ona bir dəfə bəxş edir. Azərbaycan xalqının taleyinə düşən bu böyük tarixi missiya məhz Heydər Əliyevin şəxsiyyətində öz təcəssümünü tapdı. Ulu Öndərin siyasi fəlsəfəsinin əsasını xalqa xidmət təşkil edirdi. "Mən ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm". Bu sözlər sadəcə siyasi bəyanat deyildi, həm də onun həyatının, mübarizəsinin və seçdiyi yolun mənəvi manifesti idi. Çünki Heydər Əliyev hakimiyyəti məqsəd yox, xalqa xidmət vasitəsi hesab edirdi.

Ulu Öndərin siyasi yüksəlişi təkcə Azərbaycan miqyasında deyil, keçmiş sovet məkanında da mühüm hadisə idi. 1969-cu ildə ölkəmizə rəhbər seçilən Heydər Əliyev qısa müddətdə respublikanın iqtisadi, sosial və mədəni həyatında əsaslı dönüş yaratdı - sənayeləşmə sürətləndi, elm və təhsil inkişaf etdi, milli kadr potensialı formalaşdı.

1982-ci ildə Ulu Öndər keçmiş Sovet İttifaqının ali siyasi rəhbərliyinə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə irəli çəkildi. Bu, təkcə şəxsi siyasi nailiyyət deyildi, eyni zamanda Azərbaycan xalqının Kremlin siyasi dairələrində daha yaxından tanınması idi. Heydər Əliyev sonralar bu barədə böyük qürurla deyirdi: "Mən Moskvada 10 il yaşadım, işlədim. Azərbaycan xalqını Kreml səviyyəsinə qaldırdım və bununla fəxr edirəm".

Moskva dövründə onun dünya siyasətinin aparıcı fiqurları ilə təmasları, beynəlxalq diplomatiya sahəsində qazandığı təcrübə sonradan müstəqil Azərbaycanın xarici siyasətinin formalaşmasında mühüm rol oynadı.

1990-cı illərin əvvəllərində Azərbaycan müstəqillik qazansa da, ölkədə siyasi böhran, iqtisadi tənəzzül, vətəndaş qarşıdurması və xarici təhdidlər dövlətçiliyin gələcəyini sual altında qoymuşdu. Məhz belə bir tarixi məqamda xalq öz xilaskarına üz tutdu. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu.

Ümummilli Lider, ilk növbədə, daxili sabitliyi təmin etdi, dövlət institutlarını formalaşdırdı, ordu quruculuğuna başladı. Məhz həmin illərdə ölkəmizin gələcək inkişaf strategiyası müəyyənləşdi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" müasir Azərbaycan tarixinin mühüm iqtisadi və geosiyasi hadisələrindən biri oldu. Dünyanın aparıcı enerji şirkətləri ilə bağlanan bu müqavilə Azərbaycanın enerji resurslarını dünya bazarına çıxardı və ölkənin iqtisadi müstəqilliyinin təməlini qoydu. Bu müqavilə sadəcə neft sazişi deyildi, Azərbaycanın gələcək siyasi müstəqilliyinin, iqtisadi gücünün və beynəlxalq nüfuzunun təminatı idi. Bu gün ölkəmizin güclü iqtisadiyyatı, regional enerji təhlükəsizliyindəki rolu və dünya bazarlarındakı mövqeyi məhz bu uzaqgörən neft strategiyasının nəticəsidir.

Heydər Əliyev xarici siyasətdə balanslı və milli maraqlara əsaslanan kurs həyata keçirdi. Ulu Öndər ABŞ, Rusiya, Türkiyə, Çin və Avropa ölkələrinin rəhbərləri ilə keçirdiyi görüşlərdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıtdı. Dahi rəhbərin uzaqgörən siyasəti, diplomatik məharəti nəticəsində Azərbaycan regionda söz sahibi olan dövlətə çevrildi. Dünyanın bir sıra siyasi liderləri Heydər Əliyevin siyasi uzaqgörənliyini, güclü dövlətçilik iradəsini və strateji təfəkkürünü yüksək qiymətləndirirdilər. Çünki o, yalnız Azərbaycanın deyil, bütöv regionun siyasi gələcəyini görməyi bacaran lider idi.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin mühüm istiqamətlərindən biri Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yerini təmin etmək idi. Ulu Öndər yaxşı anlayırdı ki, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan yalnız güclü iqtisadiyyat və milli ordu ilə deyil, eyni zamanda düşünülmüş, tarazlaşdırılmış və uzaqgörən xarici siyasət vasitəsilə öz mövqeyini möhkəmləndirə bilər. Məhz buna görə Ulu Öndərin formalaşdırdığı xarici siyasət kursu bu gün də Azərbaycanın beynəlxalq uğurlarının əsas sütunlarından biri hesab olunur.

Amerika Birləşmiş Ştatları ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Heydər Əliyevin xarici siyasətində xüsusi yer tuturdu. Ulu Öndər ABŞ-ni təkcə böyük siyasi güc kimi deyil, həm də qabaqcıl texnologiya, demokratiya və iqtisadi inkişaf modeli kimi qiymətləndirərək bildirmişdir: "Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələrinin əhəmiyyəti ondan ibarətdir ki, Qərb demokratiyasını, mədəniyyətini, iqtisadi və siyasi sahədə əldə olunmuş nailiyyətləri öyrənmək, onlardan bəhrələnmək Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir..."

1997-ci ilin iyul-avqust aylarında Heydər Əliyevin Prezident Bill Klintonun dəvəti ilə Amerikaya etdiyi rəsmi səfər Azərbaycan-ABŞ münasibətlərində yeni strateji mərhələnin başlanğıcı oldu. 1 avqust 1997-ci ildə Ağ Evdə keçirilən görüş zamanı iki ölkə arasında tərəfdaşlığın genişləndirilməsinə dair Birgə Bəyanat və investisiyaların qarşılıqlı qorunması haqqında mühüm sənədlər imzalandı. Görüş zamanı ABŞ Prezidenti Bill Klinton Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstəyini açıq şəkildə ifadə etmişdi.

Səfər zamanı Heydər Əliyevin Vaşinqton, Nyu York, Hyuston və Çikaqoda keçirdiyi çoxsaylı görüşlər Azərbaycanı dünya enerji və geosiyasi xəritəsində etibarlı tərəfdaş kimi təqdim etdi. Ağ Evdə neft müqavilələrinin imzalanması isə Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisinə çevrildi. Bu gün də Azərbaycan-ABŞ münasibətlərinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi strateji xətt dayanır.

Ulu Öndər Heydər Əliyevin xarici siyasətində qardaş Türkiyə ilə münasibətlər xüsusi və müqəddəs məna daşıyırdı. Onun tarixə çevrilmiş "Bir millət, iki dövlət" ifadəsi təkcə diplomatik tezis deyildi, ortaq tarixə, dilə, mədəniyyətə, qardaşlığa söykənən siyasi manifest idi.

Məhz Ulu Öndərin siyasi iradəsi nəticəsində Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Enerji layihələri, xüsusən Bakı-Tbilisi-Ceyhan marşrutu, regional təhlükəsizlik və siyasi əməkdaşlıq iki qardaş ölkəni beynəlxalq platformalarda bir-birinə daha da yaxınlaşdırdı. Sözsüz ki, bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində formalaşan yeni geosiyasi əməkdaşlıq platformasının ideoloji və siyasi əsasları da məhz Ulu Öndərin dövründə qoyulmuşdu. Orta Asiya türk respublikaları ilə münasibətlərin sistemli şəkildə qurulması, ortaq türk dünyası ideyasının siyasi məzmun qazanması da Heydər Əliyevin strateji baxışının nəticəsi idi.

Pakistan İslam Respublikası ilə münasibətlər də Heydər Əliyevin xarici siyasətinin uğurlu istiqamətlərindən idi. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmaqla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin haqq mövqeyini qətiyyətlə dəstəkləyən ölkələrdən oldu. Ulu Öndər bu münasibətləri təkcə siyasi deyil, həm də mənəvi və strateji müttəfiqlik səviyyəsinə yüksəltdi. Bu gün Bakı-İslamabad xəttində mövcud olan yüksək etimad, müdafiə və iqtisadi əməkdaşlıq məhz onun qoyduğu siyasi bünövrənin davamıdır.

Çin Xalq Respublikası ilə münasibətlərin inkişafı Heydər Əliyevin uzaqgörən xarici siyasətinin mühüm tərkib hissəsi idi. Ümummilli Liderin Çinə rəsmi səfəri zamanı iqtisadi əməkdaşlıq, investisiyalar, sənaye və ticarət sahələrində bir sıra mühüm sənədlər imzalanmışdı. Bu, Azərbaycanın Asiya bazarlarına inteqrasiyası və yeni iqtisadi tərəfdaşlıqlar qurması baxımından mühüm addım idi. Bu gün Azərbaycanın Şərqlə Qərbi birləşdirən nəqliyyat və logistika mərkəzinə çevrilməsi, Orta dəhlizdə artan rolu Ulu Öndərin illər öncə müəyyən etdiyi strateji xəttin uğurlu nəticəsidir.

Beləliklə, Azərbaycanın ABŞ ilə strateji dialoq aparması, Türkiyə ilə sarsılmaz müttəfiqliyi, Pakistanla qardaşlıq münasibətləri, Çinlə genişlənən iqtisadi əməkdaşlığı və türk dünyasında aparıcı mövqeyə sahib olması təsadüfi deyil. Bunların hər biri Ulu Öndər Heydər Əliyevin siyasi dühasının, diplomatik məharətinin və gələcəyi görən dövlətçilik düşüncəsinin canlı təzahürüdür. Qürurla deyə bilərik ki, bu gün qalib və suveren Azərbaycan, əslində, Ulu Öndərin dünya siyasətində ölkəmiz üçün açdığı yolun davamıdır.

İftixarla deyə bilərik ki, Azərbaycan qalib, suveren, azad və güclü dövlətdir. Güclü orduya, sabit iqtisadiyyata, müstəqil xarici siyasətə və beynəlxalq nüfuza sahib olan müasir Azərbaycan, əslində, Heydər Əliyevin qurduğu dövlətçilik məktəbinin nəticəsidir. Ümumiyyətlə, Azərbaycan regionun lider dövlətidir. Onun sözü beynəlxalq tribunlarda eşidilir, maraqları nəzərə alınır, mövqeyi qəbul edilir. Bütün bunların arxasında illər öncə uzaqgörənliklə müəyyən edilmiş siyasi kurs dayanır.

Dahi liderin ideyaları, siyasi irsi, dövlətçilik fəlsəfəsi yaşayır və yaşayacaq. Azərbaycanın bugünkü qüdrəti, zəfəri, suverenliyi və gələcəyə inamla addımlaması Ulu Öndərin arzularının gerçəkləşməsi, onun əbədiyaşarlığının ən parlaq təcəssümüdür. Çünki dahilər tarix yazmaqla bərabər, özləri də tarixə çevrilirlər. Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Azərbaycana etimad və maraq çox yüksəkdir

## Prezident İlham Əliyevin uzaqgörən siyasi kursu ölkəmizi yeni dünya nizamının önəmli mərkəzlərindən birinə çevirib

Beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş statusunu qazanmaq heç də asan deyil. Xüsusən indiki çoxsaylı münaqişələr, hərbi-siyasi qarşıdurmalar fonunda bir ölkənin sabit mövqedə qalması, fərqli qütblərin etimad göstərdiyi mərkəz halına gəlməsi, demək olar ki, qeyri-mümkündür. Lakin Azərbaycan öz prinsipial mövqeyi, müstəqil siyasəti, iqtisadi gücü və daxili sabitliyi ilə bu etimadı qazanmağı bacaran nadir ölkələr sırasındadır.

Dünyada baş verən əsaslı geostrateji dəyişikliklər və yeni çağırışlar fonunda Azərbaycanın həyata keçirdiyi balanslı siyasət və unikal mövqe mütərəqqi bir nümunə təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən xarici siyasi kurs Azərbaycanı qlobal qərarların qəbulunda söz sahibi olan strateji mərkəzə çevirib. Milli maraqlara söykənən müstəqil və balanslaşdırılmış siyasət nəticəsində rəsmi Bakı müxtəlif siyasi platformalar arasında etibarlı körpü rolunu uğurla icra edir.

Son həftələrdə Avropanın bir sıra dövlət və hökumət rəhbərlərinin ölkəmizə intensiv səfərləri Azərbaycanın yüksək geosiyasi statusunun və artan nüfuzunun bariz göstəricisidir. Bu diplomatik fəallıq rəsmi Bakının qlobalmiqyaslı proseslərdə həlledici dövlət statusunu təsdiqləyir. Dünya siyasətinin mühüm aktorlarının Azərbaycana artan marağı dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursunun məntiqi nəticəsidir. Avropanın aparıcı dövlətlərinin rəhbərləri tərəfindən Bakının strateji əhəmiyyətinin vurğulanması da Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsinin təzahürüdür. Səfərlər çərçivəsində imzalanan sazişlər isə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallığın beynəlxalq müstəvidə tam şəkildə rəsmiləşdirilməsidir.

Azərbaycanın geosiyasi statusunu gücləndirən ən mühüm amillərdən biri ölkəmizin Avropanın enerji arxitekturasında oynadığı roldur. Şərqi Avropada davam edən münaqişə fonunda Avropa İttifaqının enerji çətinliyinin qarşısının alınmasında Azərbaycanın operativ və etibarlı addımları Bakını "qoca qitə"nin strateji müttəfiqinə çevirib. Hazırda ölkəmizin mavi yanacaq ixrac etdiyi 16 dövlətdən 10-u məhz Aİ üzvüdür.

Ölkəmizin qlobal enerji təhlükəsizliyində oynadığı önəmli rola Prezident İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən diqqət çəkib. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğulayıb. Bu xüsusda Prezident İlham Əliyev qeyd edib ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Avropa İttifaqının siyasi dairələri tərəfindən də Azərbaycanın potensialı çox yüksək qiymətləndirilir. Aİ-nin xarici siyasət rəhbəri Kaya Kallasın qeyd etdiyi kimi, Azərbaycanın ən etibarlı strateji müttəfiq qismində qəbul edilməsi təsadüfi deyil, bu, qitənin enerji təhlükəsizliyinin təmin olunmasında zəruri bir seçimdir: "Azərbaycan Avropa İttifaqı üçün dəyərli və etibarlı enerji tərəfdaşıdır. Xüsusilə ticarət, nəqliyyat və rəqəmsal texnologiyalar sahələrində əməkdaşlığımızın dərinləşdirilməsi üçün aşkar potensial var".

Statistik məlumatlar da bu istiqamətdə artan dinamikanı təsdiqləyir. 2025-ci ildə ixrac edilən 25 milyard kubmetr qazın 13 milyard kubmetri birbaşa Avropa bazarlarına yönəldilib ki, bu da 2021-ci illə müqayisədə təxminən 60 faizlik artım deməkdir. "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr Avropanın enerji xəritəsini yenidən cızmaqla yanaşı, tərəflər arasında siyasi dialoqun canlanmasına da münbit şərait yaradır.

Azərbaycanın geoiqtisadi əhəmiyyəti təkcə enerji resursları ilə məhdudlaşmır. Ölkəmizin beynəlxalq miqyasda artan nüfuzu həm də nəqliyyat-logistika imkanları ilə bağlıdır. Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm mərkəzə çevrilib. Xüsusən Yaxın Şərqdəki qeyri-sabitlik və Rusiya-Ukrayna müharibəsi fonunda ənənəvi təchizat zəncirlərinin qırılması Azərbaycanın təqdim etdiyi marşrutların aktuallığını daha da artırıb. Ölkəmizin önəmli mərkəz statusuna aprelin 27-də Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumunda dövlətimizin başçısı tərəfindən də diqqət yönəldilib: "Bu gün biz Şərq-Qərb nəqliyyat dəhlizinə geniş sərmayə yatırırıq və bu gün ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlərə görə bu dəhlizə heç vaxt olmadığı kimi ehtiyac var. Beləliklə, Azərbaycan Şərqdən Qərbə və əks istiqamətdə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edir. Biz hər iki dəhlizin kəsişməsində yerləşirik və son illərdə infrastruktura geniş investisiyalar ilə biz bir çox ölkələrə lazım olan bu böyük aktivi artıq yaratmışıq".

Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) həm Avropa, həm də Çin üçün ən qısa və təhlükəsiz yol hesab olunur. Çin özünün "Bir Kəmər, Bir Yol" layihəsi çərçivəsində Azərbaycanın logistik imkanlarına, o cümlədən Ələt Azad İqtisadi Zonasına böyük maraq göstərir. Hazırda Çindən Avropaya yük axını ölkəmiz vasitəsilə 15-20 gün ərzində reallaşır. Gələcəkdə Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi bu marşrutun rəqabət qabiliyyətliliyini zirvəyə daşıyacaq və Çin, Qazaxıstan, Azərbaycan, Türkiyə və Şərqi Avropanı vahid, çevik logistik şəbəkədə birləşdirəcək. Təbii ki, strateji uzaqgörənliklə inkişaf etdirilən bu layihələr Asiyadan Avropaya yük axınını sürətləndirməklə yanaşı, Azərbaycanın qlobal ticarət yollarının konfiqurasiyasında mərkəzi yerini daha da möhkəmləndirir.

Azərbaycanın təşəbbüskarı olduğu regional inteqrasiya layihələri Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasına da xidmət göstərir. Regionda dayanıqlı inkişaf üçün beynəlxalq hüquq normalarına riayət və konstruktiv əməkdaşlıq əsas şərtdir. Avropa dövlətlərinin Bakını dialoq məkanı kimi seçməsi Azərbaycanın sülh təşəbbüslərindəki aktivliyindən qaynaqlanır. Bakı, sadəcə, öz təhlükəsizliyini təmin etmir, eyni zamanda qonşu regionlarda sabitliyin bərqərar olmasına da töhfə verir, beynəlxalq hüququn müdafiəçisi kimi çıxış edir.

Bakının qlobal miqyasda dialoq və əməkdaşlıq məkanına çevrilməsi, mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməsi də Azərbaycanın xarici siyasətindəki strateji uğurlardan biridir. Azərbaycan öz humanizmi, coğrafi və mədəni mövqeyi ilə dünyada tolerantlıq, multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə mütəmadi keçirilən forumlar müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrini bir araya gətirərək qlobal həmrəyliyə töhfə verir. Bakı çətin siyasi dövrlərdə dünyanın ən böyük güclərinin müzakirə apardığı neytral və etibarlı məkandır. Əlbəttə, ölkəmizin dialoq mərkəzi statusu qazanmasının arxasında bir neçə fundamental səbəb dayanır. Azərbaycanın daxili sabitliyi, heç bir hərbi-siyasi bloka daxil olmaması və bütün tərəflərlə bərabərhüquqlu münasibətləri ölkəmizi beynəlxalq tədbirlər üçün təhlükəsiz məkana çevirir.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində Prezident İlham Əliyevin müasir dünya nizamını dərindən təhlil etmək zəkası və milli maraqlara söykənən siyasi kursu dayanır. Dövlət başçısının siyasi iradəsi ilə həyata keçirilən layihələr bu gün qlobal böhranlar dövründə Avropanın xilas yoluna çevrilib. Məhz Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycan Avropa üçün etibarlı mərkəz, Asiya üçün isə dünyaya açılan strateji qapıdır. Bütün bu nailiyyətlər dövlətimizin başçısının müəllifi olduğu "güclü dövlət - müstəqil siyasət" formulunun praktiki təntənəsidir. Bu siyasi kurs ölkəmizin davamlı inkişafının və dünya nizamında artan çəkisinin ən böyük təminatıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# BNF-yə Azərbaycanın rəhbərliyi dövrü başa çatdı

## Bir il gələcəyin nəqliyyat sisteminin qurulmasında mühüm mərhələ oldu

**Bəri başdan deyək ki, Beynəlxalq Nəqliyyat Forumu (BNF) qlobal əməkdaşlığın, təcrübə mübadiləsinin və innovativ strategiyaların müzakirə olunduğu platformadır. Tədbir ölkələr arasında nəqliyyat siyasətinin koordinasiyasını gücləndirir, təhlükəsiz, davamlı və səmərəli nəqliyyat sistemlərinin yaradılmasına yol açır. Bundan başqa, statistik məlumatları toplayır və təhlil edir, eləcə də ölkələr arasında təcrübə mübadiləsinə imkan verir.**




Məlumat üçün onu da bildirək ki, BNF 2006-cı ildə yaradılıb və Baş qərargahı Parisdədir. Forumun fəaliyyəti əsasən 70-dən çox üzv dövlətin nəqliyyat sahəsindəki siyasətlərini əlaqələndirmək və təkmilləşdirmək üzərində qurulub. Hər il təşkil olunan konfrans və toplantılar fikir mübadiləsi və strateji qərarların formalaşmasına zəmin yaradır. Forumun iş prinsipləri hərtərəfli və davamlıdır. Avtomobil, dəmir yolu, hava və su nəqliyyatı sahələrində hazırlanan tövsiyələr ictimaiyyət və dövlət qurumları üçün yol göstərən bir mənbədir. BNF hər il keçirilir və ən böyük tədbiri "İllik forum" adlanır. Bu forum adətən mayın sonunda və ya iyunun əvvəlində təşkil olunur. Bir neçə gün davam edən tədbirin gündəmində əsasən qlobal nəqliyyat siyasəti, təhlükəsizlik, ekoloji davamlılıq və texnoloji inkişaf mövzuları yer alır.

Forum bu il Azərbaycanın prezidentliyi ilə mayın 6-8-də Almaniyanın Leypsiq şəhərində keçirilib. Azərbaycanın prestijli bir tədbirə rəhbərlik etməsi ölkəmizin regional və beynəlxalq nəqliyyat sahəsində strateji mövqeyini gücləndirir. Leypsiqdə toplaşan nazir və ekspertlər qlobal miqyasda əhəmiyyətli qərarlar və tövsiyələr üzərində fikir mübadiləsi apararaq, gələcəyin nəqliyyat siyasətinin əsas istiqamətlərini müəyyənləşdiriblər. Tədbir "Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi" mövzusunda keçirilən sammitlə yekunlaşıb. Qeyd edək ki, ötənilki sammitdə 2025 - 2026-cı illər üzrə BNF-yə prezidentlik Çilidən Azərbaycana ötürülüb. Azərbaycan bu vəzifəyə 2023-cü ildə üzv dövlətlərin yekdil qərarı ilə seçilib və prezidentlik missiyasını üzərinə götürüb.

Azərbaycanın rəhbərliyi dövründə qazanılan uğurlar forum iştirakçılarının diqqət mərkəzində olub. Nəqliyyat Nazirləri Şurasının 18-ci iclasında isə iki əsas siyasət tövsiyəsi qəbul edilib: beynəlxalq yükdaşımaların rəqəmsallaşdırılması və şəhər nəqliyyatının inkişafı. Bu təşəbbüslər beynəlxalq nəqliyyatın sürətli, şəffaf və dayanıqlı olması, eləcə də inklüziv və davamlı şəhərlərin formalaşmasına xidmət edir. "İnkişafın sütunları - idarəetmə, innovasiya və əməkdaşlıq" mövzusunda keçirilən açıq görüş də səmərəli olub. Ölkəmizin təşəbbüsü ilə ilk dəfə təşkil olunan prezidentliyin brifinqində Azərbaycan nümayəndə heyəti həyata keçirilən işlər barədə beynəlxalq mediaya məlumat verib. Unutmadan onu da deyək ki, Qana, Panama və Peru təşkilata yeni üzv kimi qoşulublar.

BNF-yə prezidentlik dövrü başa çatan ölkəmiz həmin mərhələni yüksək nəticələrlə yekunlaşdırıb. Azərbaycanın bu etimada layiq görülməsi, əlbəttə ki, təsadüfi deyil. Onun beynəlxalq əməkdaşlıqda fəal rolunun, nəqliyyat sahəsində artan nüfuzunun və etibarlı tərəfdaş kimi qəbul olunmasının təbii nəticəsidir. Rəhbərlik dövründə Azərbaycanın təşəbbüsü ilə bir sıra mühüm beynəlxalq tədbirlər təşkil edilib və qlobal nəqliyyata fayda verən strategiyalar irəli sürülüb. Özəlliklə də "Beynəlxalq yükdaşımaların rəqəmsallaşdırılması" və "Şəhər nəqliyyatının təkmilləşdirilməsi" kimi siyasət tövsiyələri üzv dövlətlər tərəfindən məmnunluqla qəbul edilib. Eyni zamanda ölkəmizin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərində həyata keçirdiyi strateji layihələr və islahatlar yüksək qiymətləndirilib, Azərbaycanın bu dəhlizlərdə açar ölkə rolu vurğulanıb.

Prezidentlik dövründə Azərbaycan rəqəmsallaşma, dayanıqlı və "ağıllı nəqliyyat" sistemlərinin tətbiqini, eləcə də geniş coğrafiyada əməkdaşlıq və investisiya imkanlarını artırıb, ölkəmizin Avrasiyada strateji mövqeyini bir qədər də möhkəmləndirib. Forum çərçivəsində müəyyən edilmiş beş əsas prioritet ön planda yer alıb: beynəlxalq nəqliyyat əlaqələrinin rəqəmsallaşdırılması, şəhər nəqliyyatının optimallaşdırılması, yeni üzvlərin cəlb olunması, beynəlxalq yükdaşımalar üçün icazələrin genişləndirilməsi və bilik mübadiləsi.

Bütün bunlar göstərir ki, Azərbaycanın BNF-yə uğurlu rəhbərliyi onu qlobal nəqliyyat sahəsində daha fəal və nüfuzlu mövqeyə çıxarıb. Qlobal miqyasda səmərəli, təhlükəsiz və ekoloji cəhətdən davamlı nəqliyyat sistemlərinin yaradılmasına yönəlmiş strateji missiyasını uğurla həyata keçirib. Bu da ona dəlalət edir ki, topladığı təcrübə gələcəkdə Azərbaycanın beynəlxalq platformalarda yeni təşəbbüslərlə çıxış etməsinə zəmin yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# *Anaklaudia ROSBAX:* "Azərbaycan WUF13-də həm regionun tərəfdaşlarını bir araya gətirir, həm də öz təcrübəsini ortaya qoyur"

**BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rosbax Azərbaycanın Ümumdünya Şərhərsalma Forumunun (WUF13) 13-cü Sessiyasına evsahibliyi etməsi ilə əlaqədar AZƏRTAC-a müsahibə verib.**
**Müsahibəni təqdim edirik.**

*- Sizin fikrinizcə, hazırda dünyada şəhərlərin və icmaların üzləşdiyi ən təxirəsalınmaz qlobal problemlər hansılardır? Xüsusilə mənzil təminatı, şəhərsalma, iqlim dəyişikliyi və sosial bərabərsizlik sahələrində hansı əsas çağırışlar mövcuddur?*

- Düşünürəm ki, bütün bunları insanların yaşayış şəraiti ilə bağlı olan əsas çağırış altında birləşdirmək olar. Qlobal mənzil böhranına baxsaq, hazırda 300 milyon insan evsiz şəraitdə yaşayır, üç milyard insan qeyri-adekvat mənzil şəraitindədir və bir milyard insan qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır. Mənzil məsələsi hazırda qarşılaşdığımız şəhərsalma problemlərinin mərkəzində dayanır, eyni zamanda iqlim böhranı ilə sıx şəkildə əlaqəlidir. İqlim hadisələrini düşünün, yanğınlar, torpaq sürüşmələri, daşqınlar. Bu hadisələrin təsirini, ilk növbədə, təhlükəli və qeyri-sabit yaşayış şəraiti olan insanlar hiss edirlər. Hətta şəhərlərdə baş verən istilik dalğaları kimi iqlim dəyişikliklərinin təsirləri də ən çox və ilk olaraq həssas vəziyyətdə yaşayan insanlara təsir göstərir. Digər tərəfdən, yeni mənzillərə olan ehtiyac və yeni evlərin tikilməsi məsələsi şəhərlər üçün ciddi çağırışdır. Çünki tikinti üsulundan asılı olaraq həm təbii resurslara, həm də karbon emissiyalarına təsir göstərir.

Bu səbəbdən hesab edirəm ki, mənzil və adekvat yaşayış şəraiti hazırda dünyanın üzləşdiyi şəhərsalma problemlərinin əsas mərkəzində dayanır.

*- Hökumətlər, beynəlxalq təşkilatlar və yerli icmalar artan bu qlobal problemlərin həlli istiqamətində hansı konkret addımları atırlar və hansı istiqamətlərdə hələ də ciddi boşluqlar qalmaqdadır?*




- Burada bir neçə fəaliyyət istiqaməti var. Birinci istiqamət maarifləndirmədir - məlumatların yayılması, kommunikasiya və cəmiyyət daxilində müzakirələrin təşviqi.

İkinci istiqamət normativ fəaliyyətlərdir. Yəni bu problemlərin həlli üçün siyasət tövsiyələri üzərində razılığa gəlməkdir. Bu baxımdan UN-Habitat mənzil məsələləri üzrə Açıq Tərkibli İşçi Qrupunun fəaliyyətini dəstəkləyir və əlaqələndirir.

Digər mühüm istiqamət isə texniki yardım və bilik mübadiləsidir. Biz dərhal yerində fəaliyyət göstərməliyik, artıq daha çox gözləmək mümkün deyil. Yerlərdə həyata keçirilən layihələr insanların həyatını qorumağa, icmaların dayanıqlılığını artırmağa xidmət etməlidir. Bununla yanaşı, uzunmüddətli planların, sistemli siyasət dəyişikliklərinin, müvafiq qanunvericiliyin və yerli səviyyədə düzgün planlaşdırma sistemlərinin hazırlanması da vacibdir. Ən əsası isə hamının ortaq siyasət tövsiyələri istiqamətində razılığa gəlməsidir.

*- Ümumdünya Şəhərsalma Forumu qlobal problemlərin həlli, dayanıqlı şəhər inkişafının təşviqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından hansı rolu oynayır?*

- Qeyd etdiyim bütün məsələlər Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (World Urban Forum - WUF) müzakirə olunacaq. WUF13 qlobal mənzil böhranı və şəhərsalma problemləri ilə mübarizə üçün məlumatlandırma, kommunikasiya, maarifləndirmə və qlobal koalisiyanın qurulması baxımından əsas platforma olacaq.

Forum çərçivəsində normativ məsələlər və siyasət tövsiyələri də müzakirə ediləcək. Dediyim kimi, mənzil məsələləri üzrə Açıq Tərkibli İşçi Qrupuna WUF13-ün ev sahibi olan Azərbaycan və Somali birlikdə həmsədrlik edir. WUF13 zamanı iqlimə davamlı mənzillərlə bağlı siyasət tövsiyələri ilə bağlı da müzakirələr aparılacaq. İlk dəfə olaraq Mənzil Təcrübələri Mərkəzi yaradılacaq. Bu təşəbbüs Açıq Tərkibli İşçi Qrupunun fəaliyyəti ilə bağlıdır. Gözlənilən nəticələrdən biri mənzil təcrübələri və uğurlu nümunələr platformasının yaradılmasıdır. Bu platforma WUF13 çərçivəsində təqdim ediləcək. Biz həmçinin universitetlər və tərəfdaşlar ilə birlikdə təlim və potensialın inkişafı mərkəzi üzərində işləyəcəyik ki, dövlət, özəl və sosial sektorlarda mənzil böhranının həlli üçün lazım olan bacarıqlar inkişaf etdirilsin.

Bundan əlavə, nazirlər səviyyəsində də müzakirələr keçiriləcək. İlk dəfə olaraq Azərbaycan Ümumdünya Şəhərsalma Forumuna liderləri cəlb edir.

Beləliklə, WUF13 həm də siyasi səviyyədə mənzil və şəhər məsələlərinin inkişaf gündəliyinin mərkəzinə gətirilməsi üçün vacib platforma olacaq. Ümumilikdə isə bu forum insanların görüşdükləri, təcrübə və bilik mübadiləsi apardıqları, yeni tərəfdaşlıqlar qurduqları açıq məkana çevriləcək. Bu, həm UN-Habitat üçün inkişaf platforması, həm də qlobal urbanizasiya ictimaiyyəti üçün imkan yaradan bir mühitdir.

*- Azərbaycanın Ümumdünya Şəhərsalma Forumuna evsahibliyini necə qiymətləndirirsiniz və bunun regional və qlobal dayanıqlı şəhər inkişafı baxımından əhəmiyyəti nədən ibarətdir?*

- Azərbaycan burada, həqiqətən, mühüm rol oynayır. İlk növbədə Azərbaycan həm regional, həm də qlobal tərəfdaşları bir araya gətirir. Qeyd etdiyim kimi, ilk dəfə olaraq Bakıda Liderlər Sammiti keçiriləcək və burada yüksəksəviyyəli iştirakın təmin olunması bizim üçün strateji əhəmiyyət daşıyır. Biz yaxın zamanda Şərqi Avropaya və Mərkəzi Asiyaya həsr olunmuş yeni UN-Habitat ofisi açmışıq və bu ofis İstanbulda yerləşir. Buna görə də regiondakı tərəfdaşlıqlarımızın gücləndirilməsi bizim üçün strateji baxımdan vacibdir. Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun hazırlıq prosesində çox yaxşı həmsədr və tərəfdaş olub. Eyni zamanda forumun Bakıda keçirilməsi və iştirakçıların Azərbaycanın gözəl paytaxtında qəbul olunması bu mühüm konfransa xüsusi dəyər qatır.

*- Ümumdünya Şəhərsalma Forumu çərçivəsində Azərbaycanda hansı əsas istiqamətlərin və prioritetlərin müzakirə olunması gözlənilir? Azərbaycanın qlobal şəhərsalma problemlərinin həlli ilə bağlı təqdim etdiyi gündəliyi necə qiymətləndirirsiniz?*

Düşünürəm ki, Azərbaycan həmsədr kimi həm regionun tərəfdaşlarını bir araya gətirir, həm də öz təcrübəsini ortaya qoyur. Bakının özündə, xüsusilə Ağ Şəhər layihəsində şəhər transformasiyası sahəsində böyük təcrübə mövcuddur. Bu layihə iqlim və şəhərsalma gündəliklərinin kəsişdiyi nümunələrdən biridir. Azərbaycan eyni zamanda COP29-a evsahibliyi edib, bu da ölkənin iqlim və dayanıqlılıq perspektivini daha da gücləndirir. Bu baxımdan Azərbaycan UN-Habitat müzakirələrinə iqlim dayanıqlılığı, yenidənqurma və bərpa sahələrində mühüm təcrübə gətirir. Bunlar Azərbaycanın öz təcrübəsinə əsaslanaraq gündəliyə təqdim etdiyi əsas mövzular və yanaşmalardır.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

**Dünyanın bir sıra ölkələrində baş verən müharibələr, qarşıdurmalar, aclıq, səfalət zəminində Azərbaycandakı ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi, inkişaf, sülh, əmin-amanlıq, təhlükəsizlik uğrunda atılan addımlar nədənsə bəzi Qərb dairələrini, Avropa strukturlarını narahat edir və onlar dövlətimizə qarşı özlərinin qərəzli mövqelərindən çəkilmək istəmirlər. Erməni təcavüzkarları üzərində tarixi qələbədən, separatçıların ayaqlarının torpaqlarımızdan kəsilməsindən sonra Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşdığı, sülhə doğru inamlı addımların atıldığı bir zamanda Avropa Parlamentinin və Avropa Şurası Parlament Assambleyasının ölkəmiz əleyhinə qəbul etdiyi qətnamələr, səsləndirdiyi bəyanatlar bunu təsdiq edir.**



## Avropa Parlamentinin riyakar mövqeyi şəxsi ambisiyalara xidmət edir

Milli Məclisin komitə sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, bu qurumlar Cənubi Qafqazda təhlükəsizliyin, Ermənistanla Azərbaycan arasında sülhün təmin edilməsinin tərəfdarıdırlarsa, qərəzli mövqedə olmamalı, saxta ittihamlar irəli sürməməli, yanlış yoldan çəkinməlidirlər. Bu gün hər iki dövlət sülh şəraitində yaşayır, çətinlikləri dəyərləndirir, mübahisəli halların aradan qaldırılmasında eyni mövqedən çıxış edirlər. "Azərbaycan öz ərazisindən tranzit yolla Ermənistana müxtəlif yüklərin daşınmasına icazə verir, sərhədlərin müəyyənləşdirilməsi istiqamətində səmərəli görüşlər keçirilir, dövlət rəsmiləri qarşılıqlı səfərlər edir, qeyri-hökumət təşkilatlarının nümayəndələri bir araya gəlir. Dövlət rəhbərləri isə öz bəyanatları, təklifləri, qarşılıqlı münasibətləri ilə sülhü anbaan yaxınlaşdırırlar. Artıq xeyli müddətdir ki, sərhəddə sakitlikdir, güllə səsləri eşidilmir, insan tələfatı yoxdur. Azərbaycan Prezidenti İlham Əliyev sülh yolunda atılan addımları, təşəbbüsləri yüksək qiymətləndirir. Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən üçtərəfli görüş, imzalanan Birgə Bəyannamə regionda sabitliyin yaradılması üçün təməl əsaslar yaratdı. Bunun müqabilində bəs Avropa Parlamenti nə edir, sülhün bərqərar olması üçün necə təşəbbüs göstərir, hansı məsələləri qabartmağı lazım bilir? Azərbaycana münasibətdə, əlbəttə ki, özünə aid olmayan işlərə baş soxmağı, ölkəmizin suverenliyinə, müstəqilliyinə kölgə salmağı, daxili işlərimizə qarışmağı bu qurum demək olar ki, fəaliyyətinin əsas istiqamətlərindən birinə çevirib. Dövlətimizin əleyhinə ən çirkin vasitələrdən istifadə edir, iftira dolu bəyanatlar yayır, əsası olmayan qətnamələr qəbul edir", - deyə deputat əlavə edib.

T.Rzayev qeyd edib ki, Avropa Parlamenti Avropa ölkələri daxilindəki hadisələrə, problemlərə diqqət ayırmalı olduğu halda Azərbaycanın əleyhinə mütəmadi olaraq yığıncaqlar keçirməklə, sənədlər toplamaqla fəaliyyətsizliyini ört-basdır etmək, diqqəti problemlərdən yayındırmaq fikrindədir. Azərbaycan Prezidenti "Avropa Siyasi Birliyi"nin Zirvə görüşündəki çıxışında haqlı olaraq bildirib ki, "Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət məhkəməsinə cəlb edib".

Parlamenti və onun başbilənləri bunu dərk etmirlər, əksinə, öz çirkin əməllərinə haqq qazandırmağa çalışırlar. Ölkə rəhbərinin çıxışı yatmış vicdanları çox bərk silkələdi. Avropa Parlamenti rəsmiləri səhvlərinə düzəliş etmək, reallıqları qiymətləndirmək əvəzinə, əksinə, özlərinə bəraət qazandırmaq, doğru yolda olduqlarını sübut etmək üçün həqiqətlərin üstündən xətt çəkməyə çalışdılar. İlk əks-səda

Bu, kəskin cavabdır və reallığın ifadəsidir. Həqiqətən də bu gün Avropa ölkələrinin əksəriyyəti ciddi problemlər içərisindədir. İqlim dəyişiklikləri, enerji çatışmazlığı, müharibələr, qarşıdurmalar, milli-dini ayrı-seçkilik, su, ərzaq qıtlığı bu ölkələri sınağa çəkir. Belə köklü problemləri Avropa Parlamenti, dönük, rüşvətxor siyasətçilər isə görmək istəmir, başlarını aldıqları pulun hesabına yalan bəyanatlarla, qətnamələrlə qatmağa çalışırlar. Bu, sözsüz ki, demokratiyaya, bəşəri dəyərlərə, insanlığa hörmət və sədaqət deyil, təcavüzə, qarşıdurmaya, şantaja, yeni müharibələrə rəvac vermək, beynəlxalq hüquq normalarına sayğısızlıq, siyasi oyunbazlıqdır.

Komitə sədri xatırladıb ki, Prezident İlham Əliyev Zirvə toplantısındakı çıxışında Avropa Parlamentinin və AŞPA-nın Azərbaycana qarşı münasibətlərdə ciddi səhvlərə yol verdiyini, yanlış mövqedə olduğunu tutarlı faktlarla tənqid edərək, bu hərəkətlərin sülhə maneə olduğunu göstərdi. Dövlət başçısı 2021-ci ilin mayından 2026-cı il aprelin 30-na qədər Avropa Parlamentinin Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul etdiyini diqqətə çatdırdı. "Əlbəttə, bu, çox böyük siyasi riyakarlıq, dövlətlərin suverenliyinə hörmətsizlikdir. Təəssüflər olsun ki, Avropa Parlamentinin sədri Roberta Metsolidən gəldi. O bildirir ki, Avropa Parlamenti birbaşa seçilmiş nümayəndələrdən ibarət demokratik bir qurumdur. Onun qətnamələri səs çoxluğu ilə qəbul edilir və bunun nəticələri bəlkə də çoxları üçün narahatlıq yaradır, lakin onlar tutduqları yolu heç vaxt dəyişməyəcək və qəbul etdikləri mövqelərini müdafiə edəcəklər. Əmr, zorakılıq ruhunda olan bu ifadələr Avropa Parlamentinin kimlərdən ibarət olduğunu, rüşvətə, zora arxalandığını, haqqa, ədalətə kölgə salanlara malik olduğunu bir daha sübut edir", - deyə T.Rzayev bildirib.

Deputat vurğulayıb ki, otuz il torpaqları işğal altında olan, şəhər və kəndləri, tarixi, dini, mədəni abidələri talan edilən, yer üzündən silinən, bir milyon sakini uzun illər əzab-əziyyətlər içində yaşayan, on minlərlə vətəndaşı qətlə yetirilən, soyqırımına məruz qalan Azərbaycanın haqq səsini eşitməyən, özünün hər hansı bir sənədində əks etdirib təcavüzkarları günahlandırmayan Avropa Parlamentinin, onun riyakar sədrinin bu gün demokratiyadan, sülhdən, beynəlxalq hüquq normalarından, insanlıqdan danışmağa haqqı yoxdur. Əli Azərbaycan xalqının qanına batmış, kütləvi insan qətlləri törətmiş, Gəncəni, Bərdəni, Tərtəri və digər yaşayış məntəqələrini raket atəşinə tutaraq yüzlərlə insanın həyatına son qoyan və bunu etiraf edən qatilləri "girov", "əsir", "siyasi məhbus" kimi qələmə vermək və cinayətkarların müdafiəsinə qalxmaq nə insanlığa, nə də demokratiyaya xas deyil. Bu, cəmiyyətə və insanlığa xəyanətdir, qatilin, cinayətkarın yanında olmaqdır, ona dəstək vermək, bəşəriyyəti ələ salmaq, aldatmaqdır.

Komitə sədri deyib ki, AP sədri hələ də başa düşmək istəmir ki, Azərbaycan öz torpaqlarını düşməndən azad edib, ərazi bütövlüyünü təmin edib, Ermənistanın bir qarış torpağına da toxunmayıb: "Erməni təcavüzkarları 250 mindən çox azərbaycanlını öz ata-baba torpaqlarından - indiki Ermənistandan zorla, ölümlə-qanla, Qarabağdan 700 min insanı ağır bəlalara, soyqırımlarına məruz qoyaraq çıxardıqları halda ermənilər Qarabağı könüllü, heç bir təsir olmadan gülə-gülə tərk etdilər. Axı əldə canlı faktlar, təkzibolunmaz sübutlar var. Belə olan halda Avropa Parlamentinin ermənilərin öz evlərindən zorla çıxarılması barədə söyləndikləri, qətnamələrdə əksini tapan ifadələr siyasi əxlaqsızlıqdan başqa bir şey deyil. Parlament sədrinin "biz tutduğumuz yolu heç vaxt dəyişməyəcəyik və qəbul etdiyimiz mövqeləri müdafiə edəcəyik" ifadəsi tamamilə başadüşüləndir: əlbəttə, xanım Metsola və əqidəsini satan həmkarları öz yollarını dəyişə bilməzlər. Çünki onlar bu yolu erməni lobbisinin, ermənilərə havadarlıq edən digər qüvvələrin maliyyə vəsaiti, bəxşişi hesabına seçiblər, onların dəstəyi ilə seçiliblər, sözsüz ki, onların da mövqeyini müdafiə etməlidirlər. Hər ay, hər həftə Azərbaycan əleyhinə qəbul edilən qətnamələrə imza atan, səs verən məxluqlar əqidədən, insanlıqdan, sağlam düşüncədən, mənəvi saflıqdan uzaq olanlardır. Onları Avropa ölkələrinin, xalqlarının taleyi, xoşbəxt həyatı yox, öz cibləri, toplayacaqları böyük sərvətlər düşündürür".

T.Rzayev qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında sağlam münasibətlərin yarandığı və möhkəmləndiyi, ittifaqa daxil olan ölkələrin rəsmi Bakı ilə əməkdaşlığa böyük önəm verdikləri, dövlət rəhbərlərinin intensiv qarşılıqlı səfərlər etdikləri, çox ciddi və əhəmiyyətli sənədlərə imza atıldığı, respublikamızın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynadığı bir zamanda AP-nin riyakar mövqeyi şəxsi məqsədlərə, ambisiyalara xidmət edir.

Deputat vurğulayıb ki, Azərbaycan Prezidentinin səyləri sayəsində ölkəmizin iştirakı ilə formalaşan enerji və nəqliyyat dəhlizləri Avropanın gələcək strateji arxitekturasına fayda verəcəyi halda Avropa Parlamentinin xəyanətkar mövqeyi əməkdaşlığa, xalqının taleyinə, gələcək inkişafa bir xəyanət kimi qiymətləndirilməlidir: "Qəbul olunan qətnamələrdə Azərbaycanın "hibrid təhlükə" kimi təqdim edilməsi, ermənilərin öz torpaqlarından "qovulması", müharibə cinayətkarlarının, insan qatillərinin "girov" kimi adlandırılması və onların tezliklə azad olunmasının gündəmə gətirilməsi siyasi məsuliyyətsizliyin, düşüncəsizliyin açıq təzahürüdür. Avropa Parlamentinin qərəzli, reallığa əsaslanmayan, böhtan xarakterli faktorlara don geydirib onu tirajlaması, qətnamələr, bəyanatlar halında yayması onun nüfuzuna çox böyük zərbədir".

Komitə sədri bildirib ki, Milli Məclisin bu qurumla əməkdaşlığı dayandırmaq qərarı çirkin əməllərə, hərəkətlərə verilən cavabın ifadəsidir. Azərbaycan haqq, ədalət yolundadır, beynəlxalq hüquq normalarına hörmətlə yanaşır, dövlətlərlə əməkdaşlığa böyük önəm verir, sülhə sadiqliyini daim nümayiş etdirir. "Ermənistan rəhbərlərinin son açıqlamaları, münasibətlərin yaxşılaşdırılmasına göstərilən təşəbbüslər dövlətimizin mövqeyi ilə üst-üstə düşür, milli maraqlarımıza, gələcək inkişafımıza xidmət edir. Rəsmi Bakı Azərbaycan-Ermənistan münasibətlərində heç bir vasitəçiyə ehtiyac duymur. Çünki Cənubi Qafqazın gələcək taleyi, inkişafı, təhlükəsizliyi kənar qüvvələrdən, vasitəçilərdən asılı deyil, region dövlətlərinin əməkdaşlığında, birliyində, hadisələrə real qiymət vermələrindən keçir. Belə olan halda Avropa Parlamentinin qətnamələri, bəzi siyasi institutların bəyanatları, çağırışları regionda sülhün bərqərar olunmasına heç cür təsir göstərə bilməz. Azərbaycan da belə qətnamələri əhəmiyyətsiz bir kağız parçası hesab edir və bundan sonra da qərəzli mövqelərin tutarlı cavabını verəcək. İqtisadiyyatımızın inkişafı, xalqımızın birliyi, beynəlxalq aləmdə yüksələn nüfuzumuz, sözümüzün tutarlı, yolumuzun ədalətli, məqsədimizin aydın, istəklərimizin bəşəri olması buna imkan verir və Azərbaycanı dünyaya sivil, demokratik, azad bir dövlət kimi təqdim edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanla əməkdaşlıq Avropanın gələcək enerji hədəflərinə uyğundur

**Avropa liderlərinin Azərbaycana intensivləşən səfərləri və artan marağı təsadüfi deyil. Təbii ki, bu dinamika Azərbaycanın həm regional, həm də qlobal miqyasda yürütdüyü uğurlu siyasətin nəticəsidir.**



Milli Məclisin deputatı Vüqar İskəndərov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanla əlaqələrdə enerji təhlükəsizliyi və bu sahədə etibarlı əməkdaşlıq əsas yer tutur, ölkəmiz artıq Avropa üçün alternativ deyil, strateji və etibarlı enerji təminatçısı rolundadır: "Azərbaycanın Avropaya təbii qaz ixracının həcmi artmaqdadır. Bu sahədə ölkəmizin potensialı böyükdür. Burada "yaşıl enerji"dən də danışmaq mümkündür".

Azərbaycanla əməkdaşlığın Avropanın gələcək enerji hədəfləri ilə üst-üstə düşdüyünü deyən V.İskəndərov qeyd edib ki, ölkəmizin Avropa İttifaqı ilə bu sahədə müqaviləsi də mövcuddur. Digər mühüm məqam hazırki vəziyyətdə Orta dəhlizə (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) olan marağın artmasıdır. Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın ənənəvi şimal yollarının riskli olması Azərbaycan üzərindən keçən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini artırıb. "Azərbaycan Orta dəhliz vasitəsilə Çin və Mərkəzi Asiyadan gələn yüklərin təhlükəsiz və sürətli daşınması üçün vacib ünvana çevrilib. Bu da ölkəmizin daha da cəlbedici olmasına gətirib çıxarıb. Bundan başqa, digər sahələrdə də əməkdaşlıq mümkündür", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Avropa rəsmilərinin son səfərləri zamanı, xüsusən İtaliya və Çexiya rəsmiləri ilə görüşlərdə diqqətçəkən məqamlardan biri də müdafiə sənayesi sahəsində aparılan müzakirələrdir ki, bu da perspektiv planlarda vacib faktor kimi qeyd edilməlidir.

V.İskəndərov vurğulayıb ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra regionda yaratdığı yeni reallıq müəyyən Qərb dairələrini hələ də narahat etsə də, ümumilikdə ölkəmizin gücü, artan nüfuzu artıq Avropa qitəsi tərəfindən qəbul edilir: "Rəsmi Bakı Cənubi Qafqazda sabitliyin əsas təminatçısıdır. Azərbaycan dünyada müstəqil xarici siyasət yürüdən ölkə kimi tanınır. Əsasən də Avropa rəhbərləri bu regionun lider ölkəsi olan Azərbaycanı strateji tərəfdaş kimi qəbul edir, onunla qarşılıqlı faydalı əməkdaşlıq etməkdə maraqlı olduqlarını açıq bəyan edirlər. Bunu Avropa liderlərinin intensivləşən səfərlərindən də aydın görmək mümkündür. Zamanla bu münasibətlər ən yüksək səviyyəyə çatacaq".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Seçim erməni xalqınındır:* barış, yoxsa savaş

**Ermənistanda parlament seçkiləri ərəfəsində siyasi mübarizə daha da kəskinləşib. Hakimiyyətlə müxalif revanşist qüvvələr arasında artan qarşıdurma ölkədə həm daxili sabitliyi, həm də gələcək siyasi kursu müəyyənləşdirən əsas amilə çevrilib. Bir tərəf sülh və sabitlik vədləri ilə seçicilərin dəstəyini qazanmağa çalışırsa, digər tərəf keçmişin işğalçı və radikal ideyalarını yenidən gündəmə gətirməklə hakimiyyətə qayıtmaq niyyətini nümayiş etdirir.**



Ölkənin Baş naziri Nikol Paşinyan hökumətin mayın 7-də keçirilən yekun iclasında bildirib: "Sabahdan parlament seçkiləri kampaniyası başlayır. Mən və hökumət üzvlərinin əksəriyyəti seçki kampaniyasında iştirak etmək üçün tətildə olacağıq". Nikol Paşinyan onlar üçün prioritet seçkiləri beynəlxalq demokratik standartlar ruhunda keçirmək, Ermənistan xalqının iradəsinin sərbəst ifadəsini təmin etmək və seçicilərin iradəsinə hər hansı qanunsuz təsirin qarşısını almaq olacağını qeyd edib.

Bildiyimiz kimi, Ermənistanda növbəti parlament seçkilərinin bu il iyunun 7-nə keçirilməsi nəzərdə tutulub. Mərkəzi Seçki Komissiyasına seçkilərdə iştirak etmək üçün 19 siyasi güc - 17 partiya və 2 partiya bloku ərizə ilə müraciət edib. Seçkidə iştirak edəcəklərin siyahısında Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası, eləcə də Ermənistanın sabiq Prezidenti Robert Köçəryanın "Ermənistan" ("Hayastan"), Narek Karapetyanın "Güclü Ermənistan" blokları da var. Rusiyalı iş adamı Samvel Karapetyanın təsis etdiyi "Güclü Ermənistan" blokuna eyniadlı partiya, "Yeni Dövr" və "Birləşmiş Ermənilər" partiyaları daxildir.

Seçkilər ərəfəsində Ermənistanın daxili siyasi mənzərəsi daha aydın üzə çıxır. Vəziyyətin gərginləşməsi deməyə əsas verir ki, parlament seçkilərində iştirak edən müxaliflərin və onların tərəfdarlarının bir çoxu öz ölkəsinin müqəddəratını və soydaşlarının mənafeyini düşünmür. Onları maraqlandıran yalnız öz şəxsi məqsədləri və siyasi iddialarıdır. Seçkilərdə üstünlük qazanmağa çalışan revanşist qüvvələr müxtəlif populist vədlərlə cəmiyyəti öz tərəflərinə çəkməyə çalışırlar. İrəvanda baş verən son hadisələr deməyə əsas verir ki, onların çağırışlarına inanan və dəstək verən müəyyən qüvvələr hələ də mövcuddur. Həmin qüvvələrin əksəriyyəti bilərəkdən, yaxud da aldanaraq "böyük Ermənistan" xülyasından ayılmamışlar.

Məlumdur ki, ötən əsrdə "başbilənlər"inin qəddarlığı, qərəzi, kini, özlərinin belə inanmadıqları "böyük Ermənistan" kimi boş xülyaları erməniləri bataqlığa sürüklədi. Belələri çox da uzaq olmayan keçmişdə onlara ərazilərində yaşamaq üçün yer vermiş Azərbaycan xalqına qarşı dönə-dönə qırğınlar, qətliamlar, soyqırımları törətdilər, torpaqlarını işğal etdilər. Həmin faktlardan birini xatırlayaq: XX yüzilliyin sonlarında ermənilərin Qarabağda və Şərqi Zəngəzurda törətdikləri qanlı hadisələr Azərbaycan xalqının faciələri olduğu kimi, ermənilər üçün də tarix boyu xatırlanacaq qınaqdır.

Azərbaycan dövləti XX əsrin sonuncu onilliyində Ermənistanın işğal etdiyi ərazilərini artıq azad edib. Azərbaycan sülh təşəbbüsləri ilə sülhpərvər mövqeyini bir daha nümayiş etdirib. İndi rəsmi İrəvanın bu təşəbbüsə qoşulması Ermənistanın gələcək rifahı üçün gərəklidir. Ölkənin daxilində bunun əksini iddia edənlər, xaricindən şirnikləndirici təkliflərlə çıxış edənlər ermənilərin dincliyini, rahat yaşamalarını istəməyənlərdir.

Onu da diqqətə çatdıraq ki, revanşist düşərgənin əsas simaları Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyandır. "Qarabağ klanı" adı ilə tanınan bu siyasi tandem yenidən hakimiyyətə qayıtmaq və əvvəlki işğalçı siyasəti dirçəltmək üçün fəaliyyətini gücləndirərək seçicilərin dəstəyini qazanmağa çalışır. Lakin müşahidəçilərin fikrincə, onların seçkilərdə uğur qazanmaq ehtimalı zəif görünür. Çünki əhalinin əksər hissəsi ölkədə sabitlik və sülh tərəfdarı olan Nikol Paşinyanın siyasi komandasını dəstəkləməyə meyillidir.

Bir də ki, Ermənistan daxilində revanşist qüvvələr özlərini nə qədər odaközə vursalar da, Azərbaycanın mövcud hərbi-siyasi üstünlüyü fonunda sonları yalnız məğlubiyyətdir. Odur ki, hər hansı yeni müharibədə uğur qazanmaları reallıqdan tamamilə uzaqdır.

Bütün bunlar göstərir ki, Ermənistanda keçiriləcək parlament seçkiləri həm də ölkənin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ermənistan cəmiyyəti ya regionda sülh, əməkdaşlıq və sabitlik istiqamətində irəliləməyi, ya da revanşist çağırışların təsiri altında yenidən qarşıdurma və qeyri-müəyyənlik mühitinə sürüklənməyi seçməli olacaq. Mövcud reallıq isə göstərir ki, bölgədə davamlı təhlükəsizlik və rifah yalnız konstruktiv siyasət və qarşılıqlı əməkdaşlıq yolu ilə mümkündür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Xəritə manipulyasiyaları reallıqları dəyişmək gücündə deyil

**Azərbaycanın öz suverenliyini bütün ölkə ərazisində bərpa etməsi bəzi dairələri hələ də narahat etməkdədir. Ölkəmizin Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqları həzm etməkdə çətinlik çəkən həmin qüvvələr, eləcə də onların nəzarətində olan media resursları köhnə ambisiyalarından əl çəkmirlər.**

Münaqişə səhifəsinin qapanmasına, Azərbaycan-Ermənistan sülh prosesində əhəmiyyətli məsafə qət edilməsinə baxmayaraq, müəyyən mərkəzlər tərəfindən qondarma terminlərin və separatizmi təşviq edən ifadələrin gündəmə daşınmasını müşahidə edirik. Belə qərəzli yanaşmalar bəzən diplomatik bəyanatlarda, bəzən isə kütləvi informasiya vasitələrində özünü büruzə verir. Bunun ən son nümunəsi Rusiyanın dövlət mediasında qeydə alınıb. Mayın 6-da Rusiya dövlət televiziyası olan "1-ci" kanalın "Zaman göstərər" ("Vremya pokajet") verilişində Azərbaycan Respublikasının təhrif olunmuş xəritəsi nümayiş etdirilib. Xəritədə qondarma "Dağlıq Qarabağ" adlandırılan ərazi yerləşdirilib.

Rəsmi Bakı təxribata sərt etirazını bildirib. Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə deyib ki, Rusiyanın dövlət kanalında təhrif olunmuş xəritənin nümayiş etdirilməsi, mövcud olmayan qondarma "Dağlıq Qarabağ" ifadəsinin yer alması ciddi təxribat və qəbuledilməz siyasi manipulyasiyadır. XİN rəsmisinin sözlərinə görə, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa olunub və bu reallıq Rusiya Federasiyası daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Həmçinin qeyd olunub ki, bu cür saxta və separatizmi təşviq edən elementlərin tirajlanması Azərbaycan-Rusiya münasibətlərini də zədələyir: "Dövlətə məxsus media resurslarının məsuliyyətsiz və qərəzli yanaşması yolverilməzdir və qarşı tərəfdən bu məsələyə aydın izah verilməsi, eləcə də belə halların təkrarlanmaması üçün zəruri tədbirlərin görülməsi gözlənilir".

Xarici İşlər Nazirliyinin məsələyə kəskin reaksiyası rəsmi Bakının suverenlik məsələsində "qırmızı xətləri"nin dəyişməz olduğunu göstərir. Azərbaycan bu cür halların "səhvən" edildiyinə dair bəhanələri artıq qəbul etmir və bunu birbaşa siyasi manipulyasiya kimi görür. Təbii ki, Rusiyanın dövlət kanalında Azərbaycanın təhrif olunmuş xəritəsinin nümayişi sıradan bir jurnalist səhlənkarlığı kimi qiymətləndirilə bilməz. Rusiya Federasiyası rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan etsə də, dövlət büdcəsindən maliyyələşən bir kanalda qondarma ifadənin yer alması ikili standartın nümunəsidir. Azərbaycanın rəsmi olaraq ləğv etdiyi bir inzibati vahidin adını çəkmək ölkəmizin daxili qanunvericiliyinə hörmətsizlikdir. Dövlət kanalının bu addımı 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin ruhuna da ziddir.

Rusiyanın dövlət televiziyası və digər dairələr "məsələ hələ bitməyib" mesajını verməyə çalışsalar da, Qarabağ məsələsi çoxdan qapadılıb və artıq gündəmdə belə bir mövzu yoxdur. Çünki Azərbaycan bu məsələni hərbi, siyasi və hüquqi müstəvidə birdəfəlik həll edib. Moskva daxil olmaqla, BMT və digər beynəlxalq təşkilatlar hər zaman Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Ermənistan rəhbərliyi də müxtəlif beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan edib. Belə olan halda, kənar dairələrin xəritə manipulyasiyası xülyaların "reallıq" kimi qələmə verilməsi, revanşist qrupları ovundurmaq cəhdidir. Bu məkrli əməlin Ermənistanda keçiriləcək parlament seçkiləri ərəfəsində ortaya çıxması da təsadüfi sayılmamalıdır.

Qərəzli dairələr həqiqəti qəbul etməlidir. Bu cür manipulyasiyalar nə regiondakı hərbi-siyasi balansı dəyişmək, nə də Azərbaycanın mütləq suverenliyinə kölgə salmaq gücündədir. Reallıq hansısa televiziyada çəkilən xəritələrdə yox, Xankəndi, Şuşa və Xocalıda dalğalanan üçrəngli bayrağımızda, regionda aparılan nəhəng quruculuq işlərində öz təsdiqini tapıb.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## 9 May Faşizm Üzərində Qələbə Günüdür

# Tarixin silinməz yaddaşı

**1945-ci il mayın 8-də Berlində feldmarşal Vilhelm Keytel Almaniyanın müttəfiq dövlətləri qarşısında qeyd-şərtsiz kapitulyasiya aktını imzaladı və bununla Avropada İkinci dünya müharibəsi başa çatdı. Bu xəbər SSRİ ərazisində mayın 9-da elan edildi və həmin gün SSRİ-də və keçmiş sosialist bloku ölkələrində faşizm üzərində qələbə günü kimi qeyd olunmağa başladı. Faşizm üzərində qazanılan bu möhtəşəm qələbə, yalnız hərbi zəfər deyildi, eyni zamanda insanlığın, ədalətin qaranlıq qüvvələr üzərində qələbəsi idi.**



Bu il bəşəriyyətin faşizm bəlasından xilas olmasından 81 il ötür. Həmin amansız, qanlı savaşda 50 milyondan çox adam həlak oldu, 100 milyondan çox insan yaralandı və şikəst qaldı. Təkcə sovetlər birliyi müharibədə 30 milyon nəfərədək itki verdi. 61 dövlətin, dünya əhalisinin 1 milyard 700 milyon nəfərinin və ya dörddə üçünün iştirak etdiyi İkinci Dünya müharibəsi 40 ölkənin ərazisini əhatə etdi, 110 milyon adam hərbi səfərbərliyə alındı.

Azərbaycan xalqı da İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə şücaət və əzmkarlıq göstərdi. 600 mindən artıq soydaşımız müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşdu. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçdi. Müharibənin ilk günlərində təqribən 40 min nəfər könüllü surətdə cəbhəyə getmək üçün hərbi komissarlıqlara müraciət etdi. 1941-ci ilin sonunda "xalq qoşunu" adlanan dəstələrdə Azərbaycandan getmiş 200 min döyüşçü vardı. Onlardan 15 min nəfərdən çoxu qadın idi.

Ağır müharibə illərində azərbaycanlı əsgər və zabitlər od-alov püskürən döyüş meydanlarında misilsiz şücaət göstərirdilər. Cəbhənin elə bir istiqaməti yox idi ki, həmvətənlərimiz orada döyüşməmiş olsun. Azərbaycanlılardan ibarət 414-cü, 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və başqa milli diviziyaların əsgərləri və zabit heyəti Simferopolda, Odessada və digər şəhərlərdə vuruşdular. 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad edilməsində xüsusi igidlik göstərdi. 416-cı diviziya Qafqazdan Berlinədək qəhrəmanlıq yolu keçdi. Bəşəriyyətin yaddaşına ən dağıdıcı savaş kimi yazılmış bu amansız müharibə dünyanın faşizmdən qurtulması uğrunda aparılırdı.

Azərbaycanı təmsil edən döyüşçülərdən 170 min nəfəri keçmiş SSRİ-nin orden və medalları ilə təltif olundu. 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Hər orden və medalın arxasında isə hünər və rəşadət dayanırdı, yüzlərin, minlərin arasında seçilənlərin qəhrəmanlığı əks olunurdu. Odlu müharibə yollarında, qanlı döyüş meydanlarında dəfələrlə yaralananlar da az olmadı. Hospitallara düşdülər, cəbhəyə dönmək əzmi ilə sağalıb yenidən döyüşə qatıldılar. Növbəti yaraları almaqdan heç də qorxmadılar, qələbə əzmi ilə döyüşdülər.

### "Qırmızı Bayraq"lı və II dərəcəli "Suvorov" ordenli 416-cı diviziya

Bu diviziya 1942-ci ilin mart-sentyabr aylarında yaradılmışdır. Müxtəlif vaxtlarda komandanları S.Starojilov, V.Maslov, T.Əliyarbəyov, D.Sızqanov, qərargah rəisi və siyasi rəhbərləri H.Zeynalov, P.Ryabov, R.Məcidov və başqaları olmuşlar. Onun tərkibində 2 atıcı polk, topçu polku, minamyot və tank vuran qırıcı diviziyonu, topçu və qərargah batareyası, tibb-sanitar batalyonu vardı.

416-cı milli diviziya cəbhədə 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Berlinə qədər minlərlə kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 23 mindən çox canlı qüvvəsini, 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, külli miqdarda qənimət ələ keçirmişdi.

Diviziyanın 1368-ci atıcı alayı "Qırmızı Bayraq", 1054-cü topçu alayı "Suvorov", 444-cü əlahiddə topçu diviziyonu "Boqdan Xmelnitski", 348-ci əlahiddə sanitar batalyonu "Qırmızı Bayraq" ordenləri ilə təltif edilmişlər. Diviziyanın 14396 əsgər və komandiri də keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşlar. 1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində həmyerlilərimiz xüsusilə fərqlənmişdilər. Taqanroq ətrafında vuruşmalar zamanı düşmənin 10000 nəfərədək əsgər və zabiti məhv edilmiş, ərzaqla dolu 150 maşın ələ keçirilmişdi. 416-cı diviziyanın döyüşçülərindən Ağasirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, İslam Səfərli üçüncü dərəcəli "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdu. 416-cı diviziyanın döyüşçülərindən 8 nəfər 1943-cü ilin oktyabrında Melitopol şəhəri yaxınlığındakı döyüşlərdə göstərdiyi igidliyə görə noyabr ayının 1-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Bütün bunlara görə diviziyaya "Taqanroq" adı verilmişdir.

### Odlu yollardan keçən ömürlər

Onların hər birinin taleyi ayrıca bir qəhrəmanlıq dastanıdır. Kimisi 18 yaşında partizan dəstələrinə qoşulub, kimisi Berlinə qədər piyada yol gedib, kimisi isə arxa cəbhədə gecə-gündüz çalışaraq qələbəni yaxınlaşdırıb. Onlar aclığa, soyuğa və ölümün gözünə dik baxaraq, gələcək nəsillərin firavan yaşamaları üçün canlarından keçib, gəncliklərini qurban veriblər.

Bu diviziyanın qəhrəman döyüşçülərindən Bəhyəddin Mirzəyev 1936-cı ildə ordu sıralarına çağırılmışdı. 1938-ci ilədək Bakı zenit topçu alay məktəbində oxumuş, 1939-cu ildə Tbilisidə hərbi məktəbi bitirmiş, 416-cı diviziyanın tərkibində Mozdokdan



Berlinədək döyüş yolu keçmiş, taqım, batareya, divizion komandiri kimi Şimali Qafqaz, Ukrayna və Moldovanın azad edilməsində iştirak etmiş, Visla-Oder əməliyyatında rəşadət göstərmişdir. B.Mirzəyev 1943-cü ildə Melitopol ətrafında vuruşan diviziyanın 4-cü batareyasına komandir təyin edilmiş, Melitopol əməliyyatında göstərdiyi igidliyə görə I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuş, baş leytenant rütbəsi almışdır. Dnepr çayı sahilində Bolşaya Belozorka rayonu ətrafındakı vuruşmalarda göstərdiyi şücaətə görə isə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur.

1943-cü ilin iyun ayında B.Mirzəyev Moskvaya 3 aylıq zabitlər kursuna göndərilir. Kursu bitirdikdən sonra 7-ci batalyona komandir təyin olunur. Döyüşlərdə təcrübə toplayan igid azərbaycanlı kapitan rütbəsinədək yüksəlir. Dnestr çayının qərb sahillərində almanlarla döyüşdəki igidliyinə görə "Qırmızı Ulduz" və I dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olunur.

B.Mirzəyev Oder çayı sahilində şiddətli döyüşlərdə iştirak edir. Almanlar 30-a qədər təyyarə və 20-yə yaxın tankla əks-hücuma keçirlər. Onun batareyası - topçu komandirlər Qasım Qasımov, Mövsüm Qasımov, Rasim İbrahimov düşmənin bir alay qüvvəsini məhv edir, 4 tankı yandırır. 1945-ci il martın 24-də B.Mirzəyevə Sovet İttifaqı Qəhrəmanı adı verilir.

416-cı diviziyanın komandanı olmuş Tərlan Əliyarbəyov həm Birinci, həm də İkinci Dünya müharibələrində iştirak etmiş görkəmli Azərbaycan hərb xadimi idi. O, 1932-ci ildə Azərbaycan Neft İnstitutunda hərbi-pedaqoji fəaliyyət göstərmişdir. O, M.V.Frunze adına Ali Hərbi Akademiyanı bitirəndə müharibə başlamışdı. Cəbhəyə səfərbər olunan polkovnik Tərlan bəy Əliyarbəyov 1942-ci il oktyabrın 15-də azərbaycanlılardan ibarət 416-cı, sonra 402-ci diviziyalarının komandiri, 79,



88-ci alayın komandiri və 58-ci diviziya komandirinin müavini təyin edilmişdir. Müharibə illərində Tərlan bəy Əliyarbəyovun döyüş xidmətləri yüksək qiymətləndirilərək 1944-cü il fevralın 9-da ona general-mayor rütbəsi verilmişdir. O, Lenin, "Qırmızı Bayraq", "Qırmızı Ulduz" ordenləri, müxtəlif medallar, "Müqəddəs Stanislav", "Müqəddəs Anna", "Müqəddəs Georgi" ordenləri ilə təltif edilmişdir.

Polkovnik Rəşid Əsəd oğlu Məcidov da bu müharibədə şücaətlər göstərərək hərb salnaməsində xüsusi yeri olan Azərbaycan övladlarından biridir. 1945-ci il mayın 2-də Berlinin alınması zamanı Brandenburq qapısı üzərində sovet bayrağının qaldırılması məhz bu igid zabitin başçılığı ilə həyata keçirilib. Onun göstərdiyi igidlik nəsillərə hünər və mərdlik məktəbidir.

R.Məcidov 1908-ci ildə Bakıda hərbçi ailəsində anadan olmuş, 1927-ci ildə Bakı Sənaye və İqtisadiyyat Texnikumunu bitirmişdir. 1933-cü ildə Azərbaycan komsomolu Mərkəzi Komitəsinin birinci katibi olmuşdur. Moskvada Ali Partiya Məktəbində təhsilini davam etdirən R.Məcidov sonradan Qaradağ Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmışdır. Böyük Vətən müharibəsi dövründə o, 416-cı atıcı diviziyasının siyasi şöbəsinin rəhbəri olmuşdur.

1945-ci ilin mayında Berlinin alınması zamanı 416-cı diviziya yenə də öndə idi. Almanlar Berlini asanlıqla təhvil vermək istəmirdilər. Əsas maneə Brandernburq qapılarının arxasındakı döyüşən artilleriya idi. Bir neçə zərbədən sonra qapıların yanında yerləşən üçmərtəbəli məktəb çökür. Rəşid Məcidov bu an əsgərlərinə Azərbaycan dilində "irəli" əmrini verir. O, qarşıda SSRİ-nin Berlindəki səfirliyinin də yerləşdiyi Reyxstaqın binasını tanıyır. Polkovnikin tapşırığı və düzgün planı ilə bina zərər görmədən ələ keçirilir. Bunun sayəsində səfirlikdə yerləşən minlərlə məxfi sənəd qorunub saxlanılır. Diviziya bir neçə gün ərzində Berlin Universitetini, Daxili İşlər, Maliyyə nazirliklərini və bir neçə strateji yeri tutur. Mayın 2-də Berlinin alınması zamanı polkovnik Rəşid Məcidovun rəhbərliyi altında 416-cı diviziyanın əsgərləri Brandenburq qapısı üzərində sovet bayrağını dalğalandırırlar. Bayrağı sancan azərbaycanlı Ələkbər Məcidov olur. Həmin günlər Brandenburq qapıları önündə keçirilmiş mitinqdə general V.P.Züvanov çıxış edərək deyir: "Berlin uğrunda tarixi döyüşdə sonuncu güllə məhz burada - Brandenburq qapıları önündə atıldı. Bu sonuncu gülləni də məhz qəhrəman Azərbaycan xalqının övladları atdı".

İkinci Dünya müharibəsində əsgərləri ilə ən təhlükəli əməliyyatlara qatılan Rəşid Məcidov bütün döyüşlərdən uğurla çıxmışdır. Polkovnik haqqında olan yazılarda bir məqam da diqqətimizi cəlb etdi. İllər sonra Rusiyada ermənilər onunla bağlı faktları saxtalaşdırmağa çalışırlar. Onlar iddia edirlər ki, guya Berlinin azad olunmasında yalnız erməni atıcı diviziyası iştirak edib. Lakin arxiv materialları, sənədlər, generalların, böyük sərkərdələrin çıxışları, xatirələri bu iddiaların yalan olduğunu üzə çıxarmışdır. Polkovnik Rəşid Məcidov "Qırmızı Ulduz", iki dəfə "Qırmızı Bayraq", I və II dərəcəli Vətən Müharibəsi ordenləri ilə təltif olunmuşdur.



Vətən savaşından sonra azərbaycanlı zabit Bakıda Milli Diviziyanın siyasi şöbəsinin rəhbəri oldu. Bakı şəhəri Oktyabr Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işlədi, bir neçə ildən sonra isə Azərbaycan KP MK-nın inzibati orqanlar şöbəsinin müdiri təyin edildi və ömrünün sonuna qədər bu vəzifədə çalışdı. O, rəhbər işlərdə çalışdığı illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş və müxtəlif ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. 1967-ci ildə Xankəndidə ermənilər azərbaycanlılara qarşı təxribat törətmək istəyəndə Rəşid Məcidov həmin təxribatın qarşısının alınmasında iştirak etmişdir. 1970-ci il iyulun 2-də vəfat edən R.Məcidov I Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycan dövləti İkinci Dünya müharibəsi iştirakçılarının xatirəsini hər zaman uca tutur. Prezident İlham Əliyevin sərəncamı ilə hər il müharibə iştirakçılarına, həlak olmuş döyüşçülərin dul arvadlarına və arxa cəbhə fədailərinə birdəfəlik maddi yardımlar təyin olunur. Bu, veteranlarımıza göstərilən dövlət qayğısının və xalqın minnətdarlıq hissinin nümunəsidir.

Vaxt amansızdır, veteranlarımızın sırası ildən-ilə seyrəlir. Bu gün bizim üzərimizə düşən ən böyük vəzifə sağ olan qəhrəmanlarımızı sevgi ilə əhatə etmək, dünyasını dəyişənlərin xatirəsini əbədi yaşatmaqdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qüdrətli yol

**Zəngilanın dağlarla əhatələnmiş Qaragöl kəndinin gözəlliyini sözlə ifadə etmək mümkün deyil. Bu torpaq həm də qəhrəmanların ruhunun rişələndiyi yerdir. Burada göylərə ucalan ağacların görkəmi də göz doydurur, könül açır. İllah da palıd ağacları...**
**Onu tanıyanlar belə deyir: Qüdrət təbiətin bir parçasıdır. 1921-ci ilin yazında, təbiət oyanarkən bu kənddə gəlib dünyaya. Ad insanın xarakterini müəyyənləşdirir. Qüdrət qüdrət xarakteri ilə ayları il, illəri ömür edib. Bu adı şərəflə daşıya-daşıya yaşayıb. Bu adın yükünü həm döyüşdə, həm zəhmətdə ləyaqətlə çəkib. Qüdrət Bəndəliyev bir kənddə doğulsa da, bir elin qəhrəmanı ola bildi. Hələ məktəbdə oxuyarkən təhsilini yarımçıq qoyub kolxozun ağır işlərinə getmişdi. Sonra Şayıflı kənd orta məktəbində natamam təhsil almışdı.**



Xatırlayıram, 1985-ci ildə 1941-1945-ci illər müharibəsində qələbənin 40 illiyi münasibətilə "Kənd həyatı" qəzetinin "Şöhrət" ordenli həmyerlilərimiz" rubrikası üçün qəzetin əməkdaşı yaxın dostum Lətif Babayevə (Şüküroğluna) və mənə (1981-ci ildən 1989-cu ilədək "Kənd həyatı"nın ştatdankənar müxbiri kimi fəaliyyət göstərmişəm) birlikdə Qüdrət Bəndəliyev haqqında yazı hazırlamaq tapşırılmışdı. Mən Zəngilan rayon partiya komitəsi tərəfindən bu təsərrüfata təhkim olunduğuma görə sovxozun ərazisinə yaxşı bələd idim, işçilərini adbaad tanıyırdım. Qüdrət Bəndəliyev briqadir olduğuna görə təsərrüfat işlərinə yekun vurulanda hər dəfə onunla da görüşüb yaxından söhbət etmək imkanım olurdu.

1985-ci il aprelin 29-da səhər tezdən Bakı-Qafan qatarı ilə Şayıflıya gəldik. Sovxozda təsərrüfat briqadiri işləyən qəhrəmanımız haqqında lazımi məlumatları əldə etdik. Sonra briqadanın iş yerində olduq. Hərtərəfli tanımağa imkan yarandı.

Qüdrət Bəndəliyevlə söhbətlərimizdən yaddaşımda çox hadisələr qalıb: Gəncliyinin ən gözəl çağında müharibəyə çağırılıb. 1941-ci ilin dekabrında döyüşlərə gedib. Kimsədən fərqlənmək istəməsə də, fərqlənib, cəsur, igid əsgər kimi tanınıb. 1943-cü ilin fevralınadək Uzaq Şərqdə xidmət edib. Qarlı, qaranlıq sərhədlərdə xidmət edən Qüdrət düşmənin üzünü görmədən hər an döyüşə hazır vəziyyətdə dayanıb. Həmin illər onun xarakterini formalaşdıran, ruhunu polad kimi möhkəmlədən dövr olub.

O vaxtlar SSRİ-nin başqa yerlərində - qan içində boğulan ərazilərində onun kimi on minlərlə döyüşçüyə ehtiyacı vardı. Qüdrət də 1943-cü ilin fevralında tarixin ən qanlı döyüş ünvanlarından birinə - Stalinqrad cəbhəsinə göndərildi. Stalinqrad döyüşləri həm də sınaq idi, ölümün, səbrin, dözümün sınağı. Burada Qüdrət təkcə güllə atmağı deyil, ümidlə yaşamağı da öyrəndi.

Stalinqrad döyüşlərində tarixi qələbədən sonra o, bir qrup silah yoldaşları ilə birlikdə Oryol-Kursk istiqamətində gedən döyüşə göndərilir. Bu döyüşlərdə sanki zaman dayanmışdı. Qüdrət bu savaşda təkcə canıyla deyil, ruhuyla da döyüşdü.

Az sonra sovet qoşunlarının zəfər yürüşləri başladı. Bir-birinin ardınca Avropanın onlarca şəhər və kəndi faşist işğalından azad edildi. Buxarest uğrundakı döyüşlərdə fərqləndiyinə və göstərdiyi qorxmazlığa görə Qüdrət "İgidliyə görə" medalı ilə təltif olundu.

Onun döyüş yolu Macarıstandan da keçib. Macarıstan ərazisində döyüşən 6-cı tank diviziyasının kəşfiyyat dəstəsinə xüsusi tapşırıq verilib: Yaxınlıqdakı körpünü düşmənin partlatmasına imkan verməmək. Üç nəfərlik dəstənin rəhbəri çavuş Qüdrət Bəndəliyev təyin edilib. Kəşfiyyatçılar körpünü partlatmaq istəyən iki düşmən zabitini tutub hərbi hissəyə gətiriblər. Qüdrət Bəndəliyev Budapeştin azad edilməsi uğrundakı döyüşlərdə göstərdiyi igidliyə görə 3-cü dərəcəli "Şöhrət" ordeni ilə təltif edilib. Sonra "Qırmızı Ulduz" ordeninə layiq görülüb. Cəsur döyüşçü Almaniya təslim olduqdan sonra Çexoslavakiyaya hücuma keçən hitlerçi diviziyanın zərərsizləşdirilməsində də iştirak edib, Uzaq Şərqdə yapon militaristlərinin darmadağın edilməsində də. Döyüş əməliyyatlarında göstərdiyi igidliyə görə "Yaponiya üzərində qələbə" medalı alıb.

1946-cı ilin sentyabrında tərxis edilib Qaragöl kəndinə qayıdan Qüdrət kolxozda anbardar, kənd sovetinin sədri işləyib. Amma bu vəzifələr ömrünü torpağa verən, sədaqətini torpaqda tapan, torpağın dilini bilən bir el adamının könlünə yatmırdı. O illər "kabinet işi" deyilən bir anlayış vardı. Bu anlayış müəyyən mənada rahat vəzifə demək idi. Bir sevdiyi kəlam var idi Qüdrət kişinin: "Torpaq deyir öldür məni, dirildim səni". Bu kəlamla illər yaşayan Qüdrət kişi el-obanın cavanlarına torpağı, Vətəni sevdirib. Cavanlar Qüdrət kişi ilə söhbətləşəndə elə bilərdilər ki, Vətən haqqında, torpaq haqqında bir əsər dinləyirlər. "Ən rahat kabinet torpaqdı, oğul. Torpağa dirsəklənən şöhrətə dirsəklənir, əli torpağa toxunan elə bilir ki, müqəddəsliyə toxundu. Torpağı əkib-becərənlərə rəncbər deyirlər. Mənə elə gəlir ki, bu söz torpağa ömür verən deməkdi...". Bu kəlamlar indi də yaddaşlardadır.

1964-cü ildən 1993-cü ilin oktyabrınadək sovxozda 1 nömrəli briqadaya rəhbərlik edən Q.Bəndəliyev son nəfəsinə kimi zəhməti ömrün mənası bildi. O, 1970-ci il oktyabrın 12-də "Rəşadətli əməyə görə" medalı, iki dəfə "Sosializm yarışının qalibi", "Kommunist əməyi zərbəçisi" döş nişanları ilə təltif edildi. Lakin onun üçün ən böyük mükafat insanların etimadı, el-oba sevgisi idi.

1995-ci il iyulun 4-də Bakıda dünyasını dəyişən Qüdrət Bəndəliyev, təkcə Qaragöl kəndinin deyil, bütün Zəngilanın yaddaşında əbədi yaşayır. Çünki onun yolu qüdrət, igidlik, zəhmət, sədaqət yolu idi.

***Bayram MƏMMƏDOV,***
***istefada olan polkovnik-leytenant,***
***Əməkdar müəllim***

# Qorxmaz döyüşçü, vətənpərvər müəllim

**Tarixə ölümlə, qanla yazılan 1941-1945-ci il müharibəsindən 81 il ötür. İkinci Dünya müharibəsi adlandırdığımız o savaşda elə bir ailə, elə bir ev olmamışdır ki, öz əzizini itirməsin. Onların fədakarlığı, qəhrəmanlığı Azərbaycanın silinməyən tarixidir.**



Əslən Ağsu rayonundan olan və sonralar həyatını Sumqayıtla bağlayan Rübabə Əzizovanın atası Səfər Şıxəliyev İkinci Dünya müharibəsinin odlu yollarını keçib. O, 1920-ci il noyabrın 20-də Şamaxı qəzasında - Ağsunun Rəhimağalı kəndində doğulub. Boybuxunlu və cüssəli idi. 1942-ci ilin yanvarında cəbhəyə gedib və 1945-ci ilin mart ayınadək döyüşlərdə iştirak edib. Səfər Şıxəliyevin ağır döyüş yolu Kaluqa, Tula, Smolenski, Belarusdan keçib.

1943-cü ilin payızında baş serjant Səfər Şıxəliyevin döyüşdüyü 1320-ci atıcı alayına Belarusdakı Pin bataqlığını düşməndən azad etmək əmri verilmişdi. Hücuma gecəyarı başlandı, avtomatlar işə düşdü. Faşistlərin fişənglərindən ətraf aydın görünürdü. Səfər Ərəbuşağılı kəndindən Əziz və İlxıçılı kəndindən Xankişi ilə bir yerdə döyüşürdü. Həmin döyüşdə düşmənin 5 tankı elə yerindəcə susduruldu.

Sovet qoşunları Qərbi Belarusa tərəf irəliləyirdi. Səfər Şıxəliyevin atıcı alayı Qomel şəhəri yaxınlığındakı çayı düşməndən azad etmək, sahildəki kiçik təpədə istehkam yaratmış düşmənə ağır zərbə endirmək barədə əmr almışdı. Amma 3 gün idi ki, çaya yaxın düşmək mümkün deyildi. Üçüncü gecə səhər üzü alay hücuma keçdi. Gözlənilməz hücumdan qorxuya düşən faşistlər müqavimət göstərsələr də, bunun mənasız olduğunu bilib sahili tərk etdilər. Həmin döyüşdə faşistlərin xeyli döyüş ləvazimatı ələ keçirildi.

Göstərdiyi şücaətə görə həmyerlimiz Səfər Şıxəliyev "İgidliyə görə" medalına layiq görüldü. "Şöhrət" ordeni isə Qərbi Belarus uğrundakı igidliklərinin yadigarıdır. Ona ordeni cəbhə komandanı şəxsən təqdim etmişdi.

Sonralar yaralanan Səfər Ryazandakı hospitalda müalicə olunur. 1945-ci il iyun ayının 5-dək müalicəsini başa vurub vətənə dönmüşdür.

Müharibədən sonra indiki Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alan Səfər Ağsu rayonunun bir neçə kəndində, o cümlədən Çaparlı kənd səkkizillik məktəbində çalışmış, uzun illər məktəb direktoru olmuşdur. Səfər müəllim tarix və coğrafiya fənlərini tədris etməklə yanaşı, yetirmələrinin vətənpərvər ruhda böyümələri üçün səmərəli iş aparmışdır.

O, həm də el ağsaqqalı, tanınmış ziyalı idi. El-obada hamı bir işə başlayanda onunla məsləhətləşərdi, hər hansı bir iş Səfər müəllimin xeyir-duası ilə baş tutardı. Nümunəvi ailə başçısı olan S.Şıxəliyev həm də Ağsudan yeganə döyüşçü olmuşdur ki, "Şöhrət" ordeni ilə təltif edilmişdi. Gənclərə örnək olan Səfər müəllim 1997-ci ildə dünyasını dəyişmişdir.

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin***
***baş redaktoru***

## 9 May Faşizm Üzərində Qələbə Günüdür




# Azərbaycan faşizmə qarşı dözümsüz olduğunu 1941-1945-ci illərdə də sübut etmişdir

**İkinci Dünya müharibəsində faşist Almaniyası üzərində Qələbədə Azərbaycanın rolu tarixin danılmaz, silinməz səhifəsidir. Bakı nefti olmasaydı, SSRİ-nin qələbəsinin mümkün olmayacağı fikrini bir çox görkəmli hərbçilər, yüksək ranqlı dövlət xadimləri, dünyanın tanınmış siyasətçiləri də təsdiqləyiblər. Ümumiyyətlə, 1941-1945-ci illərdə respublika iqtisadiyyatı tam hərbi tələblərə uyğunlaşdırılmışdı. Azərbaycan ön cəbhədə də qəhrəmanlıqla döyüşürdü. Xalqımızın yüzlərlə övladı müharibənin ilk günündən silaha sarılmışdı.**

Müharibə Azərbaycandan uzaqlarda, SSRİ-nin şimal-qərb regionlarında başlansa da, dünya ağalığına can atan Hitlerin əsas məqsədlərindən biri neft Bakısını ələ keçirmək idi. Faşistlər Qafqaza hücuma başlayanda feldmarşal Manşteyn demişdi: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq".

Elə bu böyük iştaha ilə də Hitlerin ad günü üçün bişirilən tortun üstündə Bakı şəhəri və Xəzər dənizi təsvir edilmişdi. Qafqazın işğalı üçün tərtib edilmiş planın (Edelveys planı) həyata keçirilməsi faşistlərin "A" qrupu ordusuna həvalə olunmuşdu. Bu plana əsasən, Qafqaz beş işğal rayonuna bölünməli və bunların sırasında Azərbaycana xüsusi önəm verilməli idi. "Ost" planına görə, Bakının 1941-ci il sentyabr ayının sonuna qədər işğal olunması nəzərdə tutulmuşdu. Faşistlər Bakını işğal edib onun neftini alman şirkətlərinin sərəncamına vermək məqsədini qarşıya qoymuşdular. Onlar hətta əvvəlcədən Azərbaycandakı iri sənaye müəssisələrinə rəhbərlər də təyin etmişdilər. 1941-ci il iyulun 16-da Hitler hökumət üzvlərinin yığıncağında bildirmişdi ki, Bakı alındıqdan sonra hərbi məntəqəyə çevriləcək.

Faşistlər Bakını tuta bilmədilər! Çünki Hitlerin bu mənfur planının puç olması üçün Azərbaycan bütün varlığı ilə çalışdı, vuruşdu, mübarizə apardı - həm ön, həm də arxa cəbhədə. Tanınmış həmyerlimiz Nikolay Baybakovun dediyi kimi: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir". Uzun illər SSRİ neft və qaz sənayesinə başçılıq etmiş N.Baybakov təsdiqləyib ki, SSRİ-nin neft balansında Azərbaycanın iştirakı olmasaydı, Sovetlər İttifaqının faşizm üzərində qələbəsi sual altında qala bilərdi.

1941-1945-ci illər müharibəsi ümumxalq xarakteri daşıyırdı. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı Sovet İttifaqı kimi ucsuz-bucaqsız bir ölkəni başdan-başa bürümüşdü. Azərbaycan da faşizmlə mübarizəyə qalxmışdı. Xalqımızın müharibədə iştirakı təkcə igid oğullarının odlu cəbhələrdə göstərdiyi qəhrəmanlıqla bitmirdi. Azərbaycanın özü də bir cəbhəyə çevrilmişdi - arxa cəbhəyə.

Cəbhəyə göndərilən Bakı neftinin əhəmiyyətinin isə qiyməti, misli-bərabəri yox idi. Marşal Georgi Jukov vurğulayırdı ki, Bakı neftçiləri cəbhəyə və ölkəyə, düşmən üzərində qələbəyə kifayət qədər yüksəkkeyfiyyətli yanacaq vermişlər.

O illərdə respublikamızda fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qədər uzadılmışdı, məzuniyyətlər ləğv edilmişdi. Ərzaq və çoxişlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq olunurdu. Cəbhələrdə döyüşən əsgərlərin yerini istehsalatda qadınlar və yeniyetmələr, hətta qocalar tutmuşdular. Müharibənin ilk ilində təkcə neft sənayesində işləməyə 11 min qadın gəlmişdi.

Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. O zaman SSRİ-nin əsas duru yanacaq - neft bazası olan Bakının rolu xeyli artmışdı. Belə ki, müharibə illərində Bakı ölkə neftinin 70-75 faizini, benzinin 80-90 faizini verirdi. Motorlu hərbi texnika, demək olar ki, Bakının verdiyi yanacaqla işləyirdi. Başqa sözlə, 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Ümumiyyətlə, bu şəhər döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakıda "Katyuşa" raketi, "Şpakin" pulemyotu istehsal edilirdi. "Yak-3" qırıcı təyyarələri yığılırdı. Burada 130-dan çox silah və onların hissələri hazırlanırdı.

Marşal Andrey Qreçko sonralar belə yazmışdı: "Azərbaycandan cəbhəyə tükənməz axınla yüksəkkeyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi".

O dövrdə SSRİ-nin yüksəkoktanlı benzinə böyük ehtiyacı vardı. Bu cür benzin hava döyüşlərində üstünlük əldə etmək üçün vacib amil idi. Çünki belə benzin təyyarənin sürətini artırır, göyə qalxma müddətini azaldırdı. Azərbaycanın məşhur kimyaçı alimi Yusif Məmmədəliyevin tədqiqatları sayəsində qısa müddətdə yüksəkoktanlı benzin alındı. Təsadüfi deyil ki, azərbaycanlı alim SSRİ Dövlət mükafatına layiq görüldü və onun adı döyüş maşınları və mühərrikləri icad edən İlyuşinlə, Yakovlevlə, Lavoçkinlə, Mikulinlə yanaşı çəkildi.

Marşal Konstantin Rokossovski demişdi: "Hər bir təyyarəmizin, tank ekipajının düşmənə zərbəsində Bakı neftçilərinin payı vardır".

Neft mədənləri əsl cəbhəyə çevrilmişdi. Azərbaycan neftçiləri gecə-gündüz işləyirdilər. "Pravda" qəzeti 28 iyul 1941-ci il tarixli nömrəsindəki "Azərbaycan bu gün" adlı məqaləsində Staxanov hərəkatının önündə gedən, iki növbə işləyən neftçilərin, kənd yerində çalışan kolxozçuların, iməciliklər keçirərək cəbhədəki əsgərlərə yardım göstərən insanların fədakarlığından bəhs edirdi.

Azərbaycan neftçiləri təkcə əmək meydanında hünər göstərməklə kifayətlənmirdilər. Onların qəlbi bütün ölkə ilə birlikdə döyünürdü. Məsələn, Leninqrad (indi Sankt-Peterburq) blokadasında qalan insanlara yazırdılar ki, Azərbaycan neftçiləri daim sizinlədir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının müharibə illərindəki fədakarlığını belə dəyərləndirmişdir: "Bugünkü və gələcək tarix İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidmətlərini, rolunu unutmamalıdır. Bir daha təkrar edirəm, bizim mətin insanlarımız, neft sənayesində çalışan və tarixi xidmətlər göstərərək cəbhəni yanacaqla təmin edən neftçilər hər cür şərəfə layiqdirlər".

Digər bir çıxışında isə Ulu Öndər demişdir: "Əgər Bakının nefti olmasaydı, Sovet İttifaqının qələbəsi mümkün deyildi".

Aydındır ki, Azərbaycan neftçiləri çətin şəraitdə işləyirdilər. Bununla belə, neft hasilatını əvvəlki illərə nisbətən qat-qat artırmağa nail olmuşdular. Müharibənin təkcə birinci ilində Bakı ölkəyə 23,5 milyon ton neft və 2,6 milyon kubmetr təbii qaz vermişdi. Bakı mədənlərində ovaxtadək belə göstəricilərə nail olunmamışdı.

Müharibə şəraiti ortaya hər gün yeni-yeni çətinliklər atırdı. 1942-ci ildə Qafqaz ərazisində döyüşlər getdiyindən Bakıda neft quyularının fəaliyyəti müvəqqəti olaraq dayandırıldı. Abşeron yarımadasında yeni yataqlar işə salınmadı. Bundan əlavə, istehsal olunmuş xammalı və neft məhsullarını Şimali Qafqaz və Volqa çayı ilə daşımaq mümkün deyildi. Çünki nəql infrastrukturu hərbi əməliyyatların getdiyi ərazilərdən keçirdi. Lakin tezliklə bu çətinlikdən də çıxış yolu tapıldı. Neft məhsullarını "yer anbarları"na və göllərə (Zığ, Masazır və s.) doldurmağa başladılar. Sonra onları Xəzər dənizi ilə nəql edirdilər. Müharibənin həlledici mərhələsi olan 1942-ci ildə Xəzər dənizi ilə cəbhəyə 505 min ton, Həştərxan vasitəsilə 336 min ton neft məhsulları daşınmışdır.

Prezident İlham Əliyev 11 oktyabr 2019-cu ildə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Azərbaycanın İkinci Dünya müharibəsindəki qələbəyə töhfəsini bir daha vurğulamışdır: "Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı".

O illərdə Azərbaycan kəndi də arxa cəbhənin əsas dayaqlarından biri kimi böyük şücaət göstərirdi. Kişilərin cəbhəyə getməsi ilə kənd təsərrüfatı, əkin-biçin işləri əsasən qadınların, qocaların və yeniyetmələrin çiyinlərinə düşmüşdü. Kəndlər ordunu ərzaqla təmin edirdi. Cəbhəyə taxıl, ət və digər ərzaq məhsulları göndərilirdi. Kişi əməyinin azalması nəticəsində qadınlar traktorçu, kombaynçı və briqadir kimi işlərdə fəaliyyət göstərir, ağır şəraitdə istehsalatı dayanmağa qoymurdular.

1941-1945-ci illərdə Azərbaycan oğullarının döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar xalqımıza böyük şan-şöhrət, əbədi başucalığı gətirdi. Belə ki, o müharibənin odlu, qanlı-qadalı savaşlarında 600 mindən çox (bəzi mənbələrdə 700 minə qədər) azərbaycanlı döyüşüb. Onların yarısı döyüşlərdə həlak olub və ya itkin düşüb. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülənlərin sayı 120-dən çox olub. Tank qoşunları general-mayoru Həzi Aslanov bu adı iki dəfə alıb. 30 nəfər "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görülüb. 170 nəfərdən çox döyüşçü orden və medallarla təltif edilib.

Təsadüfi deyil ki, Hitler faşizmi üzərində Qələbə günü olan 9 May Azərbaycanda hər il qeyd edilir. O acı olaylar da yaddan çıxmır ki, 1990-cı illərin əvvəllərində AXC-Müsavat cütlüyü öz hakimiyyəti dövründə bu bayramı ləğv etmişdi. Yalnız Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu günə yenidən önəm verdi və indi 9 May rəsmi bayramlar sırasında yer alır. Prezident İlham Əliyev hər il 9 May ərəfəsində 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayır. İstər bayram günündə, istərsə digər vaxtlarda faşizm üzərində qələbə üçün Azərbaycanın verdiyi töhfəni yada salır, tarixin o mərhələsində də mərdlik və igidlik göstərmiş ata-babalarımızı anır, onların xatirəsini ehtiramla yad edirik.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Vətən oldu oğullar

# Adını "Şəhid" yazan kəşfiyyatçı




**Son baharın erkən qaranlığı Bakı küçələrinə yenicə çökmüşdü. 2020-ci ilin 28 sentyabr axşamında Sadıqovlar ailəsinin evində zaman sanki dayanmışdı. Otağın ortasında dayanan Səbuhi nə yarımçıq qalan çayından bir qurtum içir, nə də anasının hazırladığı xörəklərə toxunurdu. Onun ruhu artıq çoxdan cəbhədə, atası Rövşənin, anası Yeganənin həsrət qaldığı o barlı-bəhərli Füzuli torpaqlarında idi... Ürəyi quş kimi uçunur, savaşa yox, sanki toya gedirmişcəsinə sevinirdi...**

Vida anı çatmışdı. Anası Yeganə müharibəyə yola saldığı oğlunu bəy otağına çağırıb "Qurani Kərim"i onun başı üzərində üç dəfə dolandırmış, dualarını pıçıldamışdı...

O gün Sadıqovlar ailəsində yaşanan bu yolasalmanın çadır şəhərciyində başlayan bir ömrün, bəy otağından keçib şəhadət zirvəsinə doğru atdığı ilk müqəddəs addım olduğunu heç kəs bilmirdi... Nə Səbuhini yola salan ata-anası, bacısı, nə qohumları, nə də qonşuları... Bu müqəddəs yolçuluğa çıxması təkcə Səbuhinin özünə əyan idi...

Doğmaları ilə görüşüb qapıdan çıxanda "Ana, heç vaxt başını aşağı əymə, gör sənin oğlun hara gedir!", - demişdi.

Bir də 24 yaşlı gənc titrək səslə Yeganə ananın qulağına pıçıldamışdı: "Nişanlıma deyərsən ona haqqımı halal edirəm, ailə qursun, xoşbəxt olsun..."

Bəli, Vətən müharibəsinin qəhrəman şəhidi Səbuhi Rövşən oğlu Sadıqov vətən uğrunda doğmalarından, hətta canından belə keçməyi çoxdan gözünün önünə almışdı...

### Torpağa ürəkdən bağlıydı

Görünür, elə Vətən torpağına bu qədər ürəkdən bağlılığına görə idi ki, Füzuliyə, Ələsgərli, Horadiz kəndlərinə də hər kəsdən əvvəl Səbuhinin ruhu qanadlandı, qanı ilə bu torpağı suvarıb vətənin bağrında al laləyə çevrildi...

9 may 1996-cı ildə Biləsuvar çadır şəhərciyində əslən Füzuli rayonundan olan Rövşən Sadıqovun ailəsində dünyaya gələn Səbuhi cəmi 24 il sürən qısa ömür kitabına özündən sonra doğmalarının, elobasının qürurla anacağı xeyli şərəfli xatirələr yazıb.

Səbuhi Sadıqov Bakı şəhəri Nərimanov rayonu 73 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəbin IX sinfini bitirdikdən sonra Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinə daxil olub. Uşaq yaşlarından idmana böyük həvəsi olan Səbuhi karate, kikboks ilə məşğul olub, 8-9-cu sinfə kimi yüngül klublararası turnirlərdə iştirak edib. Daha sonra sərbəst güləşlə məşğul olmağa başlayan Səbuhi Azərbaycan milli yığmasının üzvü olub. O, respublika daxilində və beynəlxalq yarışlarda dəfələrlə müxtəlif dərəcələrlə təltif olunub, çempion adını qazanıb. MMA (Qaydasız döyüş) növü üzrə professional olaraq məşğul olub.

2015-ci ildə Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrində 1 il 6 ay xidmət edib. 2015-2017-ci illərdə Ultimax Döyüş Növləri Federasiyasının təşkil etdiyi Bakı çempionatında və 2017-ci ildə Respublika çempionatında qalib olub. Gürcüstanda Dünya Çempionatında professional kəmər uğrunda mübarizə aparıb və qara kəmər qazanıb. Bununla yanaşı, şəxsi "Comando Fight Klub"unu yaradaraq çoxlu sayda özü kimi tələbələr yetişdirib. Bir tələbəsi Gürcüstanda Ultimax döyüş növləri üzrə keçirilən 3-cü Dünya Çempionatında dünya çempionu adını qazanıb.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsinə könüllü olaraq yollanan Səbuhi Sadıqov Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyatçı kimi xidmət edib. Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib.

### Çadır şəhərciyində başlayan ömür

Müharibədə od-alovun içərisində olmasına baxmayaraq, Səbuhi ailəsi ilə hər dəfə telefon əlaqəsi saxlayanda, "Narahat olmayın, hər şey yaxşıdır" deyər, doğmalarının onun üçün nigaranlıq keçirməsinə razı olmazdı.

9 may tarixi Səbuhi Sadıqovun dünyaya göz açdığı gündür. Taleyinə qısa, amma şərəflə 24 bahar yazılan Səbuhinin xatirəsini 30-cu ildönümündə anası Yeganə Əliyeva ilə birlikdə "Azərbaycan" qəzetinin "Vətən oldu oğullar" rubrikasında andıq.

İllər bir-birinin üstünə gəlsə də, yaralı ananın göz yaşları hələ də qurumayıb, dilindən Səbuhi adı düşməyib, ürəyindəki oğul dağı qaysaqlamayıb...

Dünyasının yerlə yeksan olduğu, deyəgülə əsgərliyə yola saldığı həyat dolu oğlunun bayrağa bükülmüş nəşinin həyətlərinə gətirildiyi o məşum 5 noyabr gününü hər an ağrı-acı ilə yenidən yaşayır...

Səbuhinin hekayəsi 1993-cü ilin payızında - Füzulinin işğalı ilə başlayır. Gənc yaşlarındaykən atası Rövşən Füzuli rayonunun Ələsgərli, anası Yeganə isə Horadiz kəndindən didərgin düşürlər. Tale onların yollarını çadır şəhərciyində birləşdirir və ailə qururlar. Sadıqovlar ailəsi ilk körpələrinin sevincini yaşayırlar. 1996-cı il mayın 9-da Səbuhi Biləsuvardakı çadır şəhərciyində dünyaya göz açanda, onun ilk laylası həsrət, ilk nəfəsi isə yurd nisgili ilə yoğrulur. Ailə məcburi köçkünlüyün bütün ağrı-acılarını yaşayır. Qışın dondurucu şaxtasına, yayın nəfəs kəsən istisinə dözür... Biləsuvarın çadır şəhərciyindən, İmişli stadionunun sığınacağından, Bakının dar yataqxanalarına qədər uzanan bu çətin yolda Səbuhi bir həqiqəti dərk edərək böyüyürdü. İnsan harada yaşayırsa yaşasın, ruhu ancaq doğma torpağında azad, rahat olur. Səbuhinin qanındakı vətənpərvərlik ruhu, əslində, təsadüfi deyildi. Anasının babası Birinci Dünya müharibəsinin iştirakçısı, öz ana babası Birinci Qarabağ müharibəsi zamanı hərbi komandirin sürücüsü kimi cəbhənin qaynar nöqtələrində olmuşdu. Atası Rövşən Sadıqov isə Birinci Qarabağ müharibəsində "Kamaz" maşını ilə döyüş bölgəsinə mərmi daşımışdı. O, belə bir vətənpərvər ailədə doğmalarının müharibə xatirələri ilə böyümüşdü.



Səbuhinin daxili enerjisi və sarsılmaz iradəsi onu erkən yaşlarından idmana bağladı. Karate, kikboks və MMA üzrə qazandığı uğurlar, aldığı "qara kəmər" onun fiziki dözümündən çox, döyüşkən ruhundan xəbər verirdi.

Hərbi xidmət zamanı peşəkar döyüşçü və kəşfiyyatçı kimi yetişən Səbuhi üçün hərb sanki ruhunun ehtiyacı, darda qalan ata yurdunun azadlığına gedən yol idi.

Buna görə də Vətən müharibəsinin başladığını eşidən kimi işlədiyi şirkətin maşınına bayraq sancıb evə tələsmiş, "Vətən dardadır!" deyib könüllü olaraq cəbhəyə can atmışdı.

Yeganə xanım danışır ki, Səbuhi Xocalıda, digər ərazilərimizdə düşmənin törətdiyi vəhşilikləri heç zaman unutmurdu. Bunlarla bağlı videokadrlara baxır, yazılanları oxuyurdu və həmişə deyirdi ki, ana bu qan yerdə qalmaz, qisasımızı mütləq alacağıq:

- 2020-ci ilin yayında bütün fikri Lələtəpədə olan dostlarının yanında idi. Bibisi rayonda yaşayırdı, onlara gedib oradan həmin əsgərlərə yemək bişirtdirib, digər ehtiyaclarını - ərzaq, su, siqaret və sair aparıb postlarına çatdırmışdı.

Vətən müharibəsi başlayan gün Səbuhinin yaşadığı sevinci heç bir sözlə izah edə bilmirəm. Səbirsizlənirdi ki, onu da müharibəyə çağırsınlar və elə ertəsi gün bu arzusuna çatdı. İnanın ki, o sevincindən yerə-göyə sığmırdı.

Müharibəyə yola saldığımız gün qonşu qadın ona dedi ki, Səbuhi, getmə bala, evin tək oğlusan, nişanlısan, bu gün-sabah toyun olacaq. Onun həmin ilin aprelində pandemiyaya görə təxirə düşmüş toyunu payızda etməyi düşünürdük. Amma Səbuhi bircə kəlmə dedi: "Vətən dardadır, getməliyəm!"

Bütün qonum-qonşu, oğlumu tanıyan hər kəs zəng vurub deyirdi ki, müharibə başlayıb, bilirik ki, Səbuhi mütləq döyüşə gedəcək. Hamı onun lap uşaq yaşlarından necə vətənpərvər olduğunu bilirdi. Sosial şəbəkələrdə paylaşımlarında hər zaman şəhidlərimizi anardı, Mübariz İbrahimovu özünün qəhrəmanı sayardı. Üzərində şəhidlərimizin fotoları olan bir plakat hazırlamışdı. Onların sırasına öz fotosunu da yapışdırmışdı. O zaman bu mənə qəribə gəlməmişdi. Ancaq indi düşünəndə...

Müharibə günlərində tez-tez evə zəng vururdu, amma vaxt keçdikcə bu zənglərin arası uzanırdı. Deyirdi ki, dağlardayıq, ola bilər mənə iki, hətta on gün belə zəng çatmaya bilər. Nigaran olmayın". Eyni zamanda "Ana, bütün əsgərlərimizə dua et", - deyirdi.

Ermənilər Gəncəni vuran gün də Səbuhi evə zəng etmişdi. O mənim kədərli olduğumu duyub soruşdu ki, ana, niyə kefsizsən, dedim Gəncəni vurublar, orada körpə uşaqlar, dinc əhali həlak olub. Dedi ki, ana, bilirəm, şərəfsizlər Xocavənddən vurublar, amma yerlərində oturtduq onları, bir daha vura bilməyəcəklər. Cəbhədən zəng vuranda uşaq kimi sevinirdi və deyirdi ki, çox sevinirəm, ana, torpaqlarımızın azad olunmasında mənim də payım var.

Oktyabrın 24-də Səbuhi ilə sonuncu dəfə danışdıq. O gündən sonra nə onun səsini eşitdim, nə də üzünü gördüm... Balam gülə-gülə arzuladığı şəhidlik məqamına ucaldı.

### Jetonun arxasındakı müqəddəs sirr

Səbuhi Sadıqov Vətən müharibəsində 37 gün davam edən döyüş yolunda Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı istiqamətlərində əsl kəşfiyyatçı rəşadəti göstərdi. Anasına zəng vurub "Sənin, atamın doğulduğunuz torpaqdayam, ana!" deyəndə səsi uşaq kimi sevincli idi. Şəhidlərimizin qisasını aldığına, körpələrin qanını yerdə qoymadığına görə daxili bir rahatlıq tapmışdı.

Onunla çiyin-çiyinə vuruşan yoldaşları heyrətamiz bir detalı sonradan danışmışdılar. Səbuhi boynundakı hərbi jetonun arxasına öz əlləri ilə bir söz həkk etmişdi. Sanki gedəcəyi ünvanı qəlbi ilə əvvəlcədən duymuşdu...

...Cəbhənin barıt qoxulu gecələrindən biri idi. Səngərdə hər kəs bir anlıq sükuta dalsa da, Səbuhinin daxilində böyük bir fırtına qopmuşdu. O, boynundakı hərbi jetonu - hər bir əsgərin kimlik vəsiqəsi olan soyuq metal parçasını əlinə aldı. Ayın solğun işığı metalın üzərinə düşür, rəsmi rəqəmlər və hərflər qaranlıqda parıldayırdı.

Gənc döyüşçü bir an dayandı. Sonra cibindən iti uclu bir metal parçasını çıxardı. Heç bir tərəddüd etmədən, elə bil rəssamın kətan üzərində son ştrixini çəkdiyi rahatlıqla, jetonun hamar arxa tərəfinə bircə kəlmə həkk etməyə başladı.

Ş... Ə... H... İ... D...

Metalın metala sürtülərkən çıxardığı tükürpədici səs gecənin sükutunda sanki bir vəsiyyət kimi əks-səda verirdi. Bir kəşfiyyatçı üçün adının gizli qalması peşə qanunudur, amma Səbuhi öz "kod adı"nı əbədiyyət üçün özü seçirdi. Boynundakı kiçik metal parçasına öz gələcəyini, anasının duasını və Vətənin azadlıq müjdəsini sığdırırdı. Sonra jetonu yenidən köynəyinin altına, sinəsinin üstünə buraxdı. Soyuq metal bədəninə toxunanda o, gülümsədi. Çünki artıq bilirdi ki, bu lövhə nə vaxtsa tapılacaqsa, o, mütləq arzularına çatmış olacaqdı...

Bəli, Səbuhi Sadıqov tale zirvəsini öncədən seçmişdi. 2020-ci il noyabrın 4-də, Şuşanın azadlığına cəmi dörd gün qalmış Laçının Suarası kəndində mərmi qəlpəsi onun qəhrəman ürəyini nişan aldı. Səbuhi əli ürəyinin başında, simasında azad torpağın xoşbəxt təbəssümü ilə əbədiyyətə qovuşdu.

Torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan Səbuhi Sadıqovun nəşi ata yurdunda - Füzuli rayonunun Əhmədbəyli kənd qəbiristanlığında dəfn olunub.

Bu gün Səbuhi Sadıqovun adı "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə qoşa çəkilir. Çadırda doğulan o körpə böyüyərək düşməndən qisasını aldı, Azərbaycanın bütövlüyünü qoruyan qəhrəmanlarımızdan birinə çevrildi.

Səbuhi Sadıqovun ömür akkordları bəlkə həzin bitdi, amma onun yazdığı qəhrəmanlıq simfoniyası əsrlərlə bu torpaqlarda əks-səda verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Naxçıvan - memar Əcəmi irsi" gümüş sikkəsi təqdim olundu

**"AzerGold" QSC tərəfindən Naxçıvan memarlıq məktəbinin banisi, dahi memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin zəngin irsini əks etdirən gümüş xatirə sikkəsi təqdim edilib.**




"Şəhərsalma və Memarlıq İli" çərçivəsində hazırlanmış bu xüsusi buraxılış dahi memarın 900 illik yubileyinə həsr olunub. Xatirə sikkəsi dahi memarın zəngin irsini yaşatmaqla yanaşı, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası ərəfəsində Azərbaycanın tarixi memarlıq ənənələri ilə müasir şəhərsalma yanaşmaları arasında bağlılığın təbliğinə yönəlmiş simvolik töhfədir. Unikal gümüş sikkə mötəbər tədbir ərəfəsində beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın zəngin memarlıq irsinə yönəltməyi hədəfləyir.

Azərbaycanın Orta əsr memarlıq ənənələrini özündə əks etdirən yeni gümüş sikkənin konseptual dizaynı tarixi varisliklə müasir innovasiyaların vəhdəti prinsipi əsasında hazırlanıb. Azərbaycanın dünya sivilizasiyasına bəxş etdiyi nadir memarlıq inciləri sikkə üzərində numizmatika sahəsində texnoloji yenilik sayılan "Smart-minting" texnologiyasının tətbiqi ilə həkk olunub. Metal səthdə dahi memarın daş üzərində yaratdığı zərif detallar və mürəkkəb teksturalar təbii rənglərinə uyğun olaraq ultra yüksək relyefli təsvirlər şəklində yüksək dəqiqliklə əksini tapıb.

Sikkənin tərtibatında Naxçıvan şəhərində yerləşən və Əcəmi dühasının məhsulu olan Möminə Xatun məqbərəsi, Yusif ibn Küseyir türbəsi, Möminə Xatun məqbərəsinin önündə yerləşən qoşa minarəli baştağ, həmçinin Əcəmi memarlıq məktəbinin nümunələrindən sayılan Qarabağlar türbəsi vahid kompozisiya şəklində təqdim edilib.

Yeni sikkə limitli sayda olmaqla, həm kolleksiyaçılar, həm də mədəni irsə maraq göstərən geniş auditoriya üçün nəzərdə tutulub. Bakı şəhəri, Bülbül prospekti, 3 ünvanında yerləşən Satış və mübadilə mərkəzində, həmçinin www.azergold.gift onlayn satış platformasında sikkə nümunələri ilə tanış olmaq və əldə etmək mümkündür.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Şuşa
Zəfərin əbədi ünvanı
Şuşa artıq azadlığının qürurunu yaşayır
Azərbaycanın özü qədər əbədi
Heydər Əliyev ədəbiyyatın, mədəniyyətin hamisi idi
Xarici ekspertlər Avropanın enerji təchizatında Azərbaycanın artan rolunu etiraf və təqdir edirlər
Azərbaycanla əlaqələrin inkişafı Avropa üçün strateji zərurətdir
Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yüklər göndərilib
Fransa yanlış siyasətindən əl çəkmir
Hayların halına ağlayan gərək
Revanşistlər erməni xalqını yenidən keçmişə sürükləmək istəyirlər
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

**- Qardaşım Azərbaycan vətəndaşıdır, uşaqları isə Rusiya Federasiyası vətəndaşlarıdır. Hazırda uşaqlar mənim yanımda Azərbaycanda yaşayırlar. Mən onların qəyyumu ola bilərəmmi?**

***Z.FƏRƏCOVA,***
***Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, qəyyumluq və himayəçilik fəaliyyət qabiliyyəti olmayan (7 yaşınadək olan yetkinlik yaşına çatmayanlar (azyaşlılar))və ya məhdud fəaliyyət qabiliyyətli (7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar) fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün təyin edilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 33.3-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanların valideynləri, onları övladlığa götürənlər olmadıqda, valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə, habelə bu cür fiziki şəxslər başqa səbəblərə görə valideyn himayəsindən məhrum olduqda, o cümlədən valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda onların üzərində qəyyumluq və himayəçilik təyin edilir.

Həmçinin Mülki Məcəlləyə görə, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq (maddə 33.4), 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik (maddə 33.6) təyin edilir.

Bundan başqa, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 136.1-ci maddəsinin tələbinə görə, qəyyumluq və himayə Ailə Məcəlləsinin 114.1-ci maddəsində qeyd edilən uşaqlara (valideynləri öldükdə və ya məlum olmadıqda, məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə, valideynlik hüquqlarından məhrum olunduqda və ya valideynlik hüquqları məhdudlaşdırıldıqda, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edildikdə, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar valideynlik vəzifələrini həyata keçirə bilmədikdə, uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina etdikdə, uşaqları sosial xidmət müəssisələrindən götürməkdən imtina etdikdə, cəzaçəkmə müəssisələrində cəza çəkdikdə, həmçinin valideyn himayəsinin olmadığı digər hallarda) onların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə müəyyən olunur.

Qəyyum (himayəçi) yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxslər ola bilərlər. Uşaqlara qəyyum (himayəçi) təyin edilərkən qəyyumun (himayəçinin) əxlaqı və başqa cəhətləri, onun qəyyumluq (himayə) vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti, habelə mümkünsə, uşağın öz arzusu nəzərə alınmalıdır.

Həmçinin alkoqolik və narkomanlar, qəyyumluq (himayə) vəzifələrini icra etməkdən kənarlaşdırılmış, valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, keçmiş övladlığa götürənlər, əgər onların təqsiri üzündən övladlığa götürmə ləğv olunmuşsa və səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər qəyyum (himayəçi) ola bilməzlər.

Qəyyum və ya himayəçi təyin edilməsi üçün yerli icra hakimiyyəti orqanına müraciət etmək lazımdır. Bunun üçün müraciətçi tələb olunan müvafiq sənədləri yerli icra hakimiyyəti orqanına təqdim etməlidir. Yerli icra hakimiyyəti orqanının qəyyumluq və himayəçilik komissiyası tərəfindən müraciətlə bağlı müvafiq rəy verilir.

Qəyyumu və ya himayəçini qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı fiziki şəxs üzərində qəyyumluq və ya himayəçilik qoyulması zərurətinin ona məlum olduğu andan 3 ay ərzində təyin edir. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və ya himayəçi təyin edilənədək qəyyum və ya himayəçi vəzifələrini qəyyumluq və himayəçilik orqanı icra edir.

Əgər yerli icra hakimiyyəti orqanı tərəfindən müraciətə müsbət cavab verilməzsə, o zaman müraciətçi məhkəməyə müraciət etmək hüququndan istifadə edə bilər.

Mülki Məcəllənin 34.2-ci maddəsinə əsasən, fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə qərarın qanuni qüvvəyə mindiyi gündən etibarən üç gün ərzində məhkəmə həmin fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi üçün onun yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına bu barədə məlumat verməlidir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## BEYNƏLXALQ HƏYAT

# ABŞ ilə İran arasında qarşılıqlı hücumların baş verdiyi barədə xəbərlər yayıldı

### Lakin Vaşinqton və Tehran atəşkəsin qüvvədə qaldığını bildirirlər

**Dünən ABŞ ilə İran arasında biraylıq atəşkəsdən bəri yeni toqquşmalar baş verdiyi barədə xəbərlər yayılıb. Gərginlik İran Xarici İşlər Nazirliyinin müharibəyə son qoymaq üçün ABŞ-nin təklifini nəzərdən keçirdiyini elan etməsindən bir gün sonra baş verib.**



İnsidentə baxmayaraq, ABŞ Prezidenti Donald Tramp jurnalistlərə atəşkəsin qüvvədə qaldığını söyləyib: "Onlar bizimlə oynamağa çalışdılar. Biz onları məhv etdik". Öz növbəsində, İranın Ali Birgə Hərbi Komandanlığı ABŞ-ni atəşkəsi pozmaqda və İranın bir neft tankerini və başqa bir gəmisini vurmaqda, eləcə də Hörmüz boğazındakı Keşm adasının mülki ərazilərinə və materikdəki sahilyanı ərazilərinə hava hücumları etməkdə günahlandırıb. Eyni zamanda İran ordusunun boğazın şərqində və Çabahar limanının cənubunda Amerika hərbi gəmilərinə hücum edərək cavab verdiyini bildirib. İran Mərkəzi Qərargahının sözçüsü İranın zərbələrinin düşmənə "ciddi ziyan" vurduğunu iddia edib.

ABŞ Mərkəzi Komandanlığı isə heç bir obyektinin vurulmadığını deyib. Həmçinin qeyd olunur ki, İran Hərbi Dəniz Qüvvələrinin 3 gəmisini hədəf alarkən hücumda raketlərdən, dronlardan və qayıqlardan istifadə edib. ABŞ İrandakı raket və dron bazalarına və digər obyektlərə zərbə endirməklə cavab verdiyini bildirib. Bəyanatda deyilir: "Mərkəzi Komandanlıq eskalasiya axtarmır, lakin mövqeyində qalır və Amerika qüvvələrini müdafiə etməyə hazırdır".

İran da hücuma məruz qalacağı halda cavab verməyə hazır olduğunu bildirib. Dövlət televiziyasının məlumatına görə, hərbi sözçü bildirib ki, "ABŞ və müttəfiqləri bilməlidirlər ki, İran hər hansı bir təcavüz aktına qətiyyətlə və tərəddüd etmədən cavab verəcək". Daha sonra İranın "Press TV" kanalı məlumat yayıb ki, "bir neçə saatlıq atəşdən sonra İran adalarında və Hörmüz boğazı yaxınlığındakı sahilyanı şəhərlərdə vəziyyət normal vəziyyətə qayıdıb".

# Rusiya 9 May paradı üçün xarici jurnalistlərin akkreditasiyalarını ləğv edib

**Rusiya bu gün Moskvada keçirilən 9 May paradı üçün xarici jurnalistlərə verilən akkreditasiyaları ləğv edib. Ləğv edilən media təmsilçiləri arasında Almaniya, ABŞ, İtaliya və Yaponiya jurnalistləri var.**



Almaniyanın "dpa" agentliyi və həftəlik "Der Spiegel" qəzeti Rusiya Prezident Administrasiyasına istinadən xəbər verib ki, yalnız bir neçə yerli media orqanının nümayəndələrinin tədbirdə iştirakına icazə var.

Rusiya hökumət rəsmiləri jurnalistlərə bildiriblər ki, "mövcud vəziyyətlə əlaqədar paradı işıqlandırmaq formatı dəyişdirilib. Buna görə də, indiyədək akkreditasiyadan keçmiş xarici media orqanlarına artıq paradda iştirak etməyə icazə verilməyəcək". Halbuki bir müddət əvvəl Rusiya hakimiyyəti Qərb jurnalistlərinin akkreditasiyasını təsdiqləmiş və onlara 1941-1945-ci illər müharibəsində qələbə gününü qeyd etmək üçün Moskvanın mərkəzində tədbirlər cədvəli göndərmişdir. "Der Spiegel" qəzetinin məlumatına görə, Rusiyada 9 May paradı keçiriləndən bəri belə bir hal baş verməmişdir.

Prezidentin köməkçisi Yuri Uşakov bildirib ki, bu il Rusiya xarici qonaqları parada məxsusi dəvət etməyib. O, bu qərarın səbəbini açıqlamayıb, lakin qeyd edib ki, qələbə gününün 80 illiyi qeyd olunduğu 2025-ci ildə parada çoxlu sayda əcnəbi qatılmışdı. Uşakov həmçinin bir sıra xarici liderlərin bugünkü parada qatılmaq istəklərini bildirib.

2007-ci ildən bəri ilk dəfə olaraq Qırmızı meydandakı hazırkı parad hərbi texnikasız keçirilir. Bundan əlavə, Rusiya hakimiyyəti Suvorov və Naximov hərbi məktəblərinin, eləcə də kadet korpusunun tələbələrinin iştirakına icazə verməyib. Rusiya Müdafiə Nazirliyi bu qərarı "mövcud əməliyyat vəziyyəti" ilə izah edib. Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov isə Ukraynadan gələn "terror təhlükəsi" səbəbindən şənliklərdə avadanlıqlardan istifadə olunmayacağını bildirib.

Bundan əlavə, Rusiyanın bəzi bölgələrində qələbə gününü qeyd edən kütləvi tədbirlər ləğv edilib. Perm, Nijni Novqorod, Saratov, Çuvaşiya və Kaluqa həmin siyahıdadır. Voronej, Kursk, Bryansk və Belqorod vilayətlərində isə atəşfəşanlıq ləğv edilib. Yerli "Fontanka" onlayn nəşrinin məlumatına görə, Sankt-Peterburqdakı paradda hərbi texnika da qadağan ediləcək.

Bütün bu dəyişikliklər Ukraynanın Rusiyanın müxtəlif şəhərlərində hədəflərə hücumlarının artması ilə əlaqədardır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda mayın 9-na gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 12-15, gündüz 20-25 dərəcə isti olacaq. Atmosfer



təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət isə gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-15, gündüz 22-27, dağlarda gecə 4-8, gündüz 13-18 dərəcə isti olacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "Silk Way Holding" MMC-nin prezidenti Zaur Axundova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3773**
**Sifariş 568**

**Qiyməti 60 qəpik**